

Nazirin bu ifadəsi ciddi narazılıq yaratdı

Səh: 2-də



Tanınmış vəkil deputat Səyyad Aranı biabır etdi

Səh: 6-dı



Jurnalist Baş Prokuror Kamran Əliyevə müraciət etdi

Səh: 12-də

## Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com

ÜRƏKLƏRDƏ ÜRƏYƏ BƏNZƏR YARA

Qarabağ

№03-04 (2400) * 14 aprel 2026-cı il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik


## Bərdə Müalicə-Diaqnostika Mərkəzi həkiminin səhlənkarlığı: məktəbli qızın ayağı kəsildi



Bax: səh.3



*"Bunun nəticəsində müharibələr baş verir"*

Bax səhifə 2

### Hörmüz boğazından keçəcək İran gəmiləri dərhal məhv ediləcək!

✓2

### Türkiyə xəstəxanalarında dünyasını dəyişən məşhurlarımız

✓3

### Bu məhkəmənin hakimləri "100 adam/saat"ı "100 adam" kimi başa düşür

✓5

### 11 il həbs aldı-4 il yatdı-bəraət aldı-nə müstəntiq, nə prokuror, nə də hakim cəzalanmadı, əksinə...

✓6

### Ali Məhkəmənin dolaşıq və müəmmalı plenum qərarı...

✓7

### Eh, Balayev... Əziz dost, nə tez getdin...

✓15

Bax səh.2

## Əri vəfat edən sabiq nazir Südabə Həsənova niyə "Təzadlar"ın bağlanmasına çalışırdı???

Bax səhifə 11



O qızı tapın! - ana fəryad qoparır!

Bax səhifə 13



"Sabir Rüstəmxanlı ilə Nüsrət Kəsəmənli harda erməni görürdü, dava salıb döyürdülər"

## "Təzadlar" qəzetinin 33 yaşı tamam oldu - UZUN, ÇƏTİN VƏ İNCƏ BİR YOL!

✓4



Məzahir Pənahovun döyülən gəlini ABŞ-dan necə qaçıb canını qurtarıb?

✓2



Aktrisa Səbahət Adaların ümidsiz qadınlara işıq olacaq həyat hekayəsi

✓5-8-9



# Tramp yenə də ultimatum verdi

**"ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının yenidən açılması üçün İrana sabahadək vaxt qoyub".**

Bu sözləri adı açıqlanmayan Ağ Ev rəsmisi deyib. O da bildirilib ki, Tramp bu gün İran üzərində vurulan F-15 qırıcısı ilə bağlı mətbuat konfransı keçirəcək.

# "Bunun nəticəsində müharibələr baş verir"

**"Bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır".**

Bu sözləri Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə mətbuata bəyanatında bildirib.

Dövlət başçısı əlavə edib ki, Orta Dəhliz Azərbaycan və Gürcüstan ərazisindən keçir və bu, bizim üçün əsas nəqliyyat damarıdır: **"Bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcək".**

Prezident həmçinin vurğulayıb ki, bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir: **"Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir".**

**"Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilir",** - dövlət başçısı əlavə edib




# Hörmüz boğazından keçəcək İran gəmiləri dərhal məhv ediləcək!

**ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının blokadası ilə bağlı xəbərdarlıq edib. Tezadlar.az Reuters-ə istinadla xəbər verir ki, Tramp bu barədə "Truth Social"da yazıb. Tramp qeyd edib ki, İran gəmiləri blokadanı yarmağa çalışacağı təqdirdə, dərhal məhv ediləcəklər.**

İranın 158 gəmidən ibarət hərbi donanmasını məhv etdiklərini vurğulayan Tramp yerdə qalan sürətli hücum qayıqları ilə bağlı da xəbərdarlıq edib. Sitat: "Bu gəmilərdən hər hansı biri blokadamızı yarmağa çalışsa, dərhal məhv ediləcək – dənizdə narkotik qaçaqmalçılarına qarşı istifadə etdiyimiz eyni üsulla. Bu, sürətli və amansızdır".

Qeyd: ABŞ-ın Hörmüz boğazında İrana qarşı blokadası qüvvəyə minib. Bu andan etibarən İran limanlarına gedən və ya limanlardan çıxan bütün gəmilər ABŞ-ın hərbi blokadası ilə üzləşəcək. ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) İrana məxsus olmayan limanlar arasında hərəkət edən gəmilərin Hörmüz boğazından keçməsinə icazə veriləcəyini bildirib.

# "İslam ölkələri ilə əlaqələri gücləndirmək prioritetdir"

**"İslam sivilizasiyasına aid ölkələrlə əlaqələrin gücləndirilməsi ölkənin xarici siyasətində əsas prioritetlərdən biridir".**



Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov "Rusiya–İslam Dünyası Strateji Baxış Qrupu"nun rəhbərliyinin İslam Əməkdaşlıq Təşkilatı üzv dövlətlərinin səfirləri ilə keçirdiyi illik məlumatlandırma görüşündə səsləndirib.

Nazir vurğulayıb ki, dinlərarası harmoniya Rusiyanın əsas dayaqlarından biri olub və bu gün də belədir.

Onun sözlərinə görə, digər ənənəvi dinlərlə yanaşı, İslam da Rusiyanın mənəvi, tarixi və mədəni irsinin ayrılmaz hissəsidir.

# Kəmaləddin Heydərovun oğluna qarşı 12 milyonluq dələduzluq!

## *İstintaq davam edir*



**Bu dəfə Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğlu Tale Heydərovun zərərçəkmiş olduğu cinayət işi ilə bağlı daha bir tanınmış iş adamı cinayət məsuliyyətinə cəlb edilib.**

Elektron mediada və sosial şəbəkələrdən bəlli olur ki, "Azfinance İnvestisiya Şirkəti" QSC-nin Müşahidə Şurasının sədri olmuş Abid Mamedov barəsində qiyabi həbs qətimkan tədbiri seçilib. A.Mamedov hazırda həbsdə olan "Azfinance İnvestisiya Şirkəti"nin direktoru İntiqam Səfərəliyevlə birgə xüsusilə külli miqdarda dələduzluqda təqsirləndirilir. Lakin Mamedov ölkədə olmadığı üçün onun tutulması mümkün olmayıb.

ZƏRURİ QEYD: İntiqam Səfərəliyev və Abid Mamedovla Tale Heydərov arasında alqı-satqı münasibətləri olub. Onlar Heydərova milyonlarla manat dəyərində zavod satıblar. Lakin sonuncu sonradan müqavilədən imtina edərək aldadıldığını bildirib və prokurorluğa şikayət edib. Tale Heydərov istintaqda ona 11 milyon 903 min manat ziyan dəydiyini deyib. Yekunda dəymiş ziyanın məbləği də bu həcmdə müəyyən edilib. Hazırda İntiqam Səfərəliyevin işi üzrə ilkin istintaq yekunlaşıb, Abid Mamedovun işi isə ayrıca icraata ayrılıb və o, axtarışa verilib.

Bəs istintaq Abid Mamedovu həbs edə biləcəkmi? Çünki onun ölkəni tərk edib gizləndiyi bildirilir.

**SƏBUHİ**

# Nazirin bu ifadəsi ciddi narazılıq yaratdı

**Elm və təhsil naziri Emin Əmrullayev mediaya açıqlamasında deyib: "Mən səmimi olaraq hələ də başa düşə bilmirəm ki, yaxşı hüquqşünas ola bilmək üçün nəyə görə tarixi riyaziyyat fənnindən daha yaxşı bilmək lazımdır...".**



**Araşdırmaçı jurnalist Fərəməz Novruzoğlu sosial mediada bu ifadəyə maraqlı şərh verib. Sitat: "...Bu nazir 6 ildir ən strateji nazirliklərdən birinə rəhbərlik edir... Və o, hər ay 13 500 manat maaş alır...**

Bu bilirsiniz nəyə bənzədi? Şeyx həzrətləri də bir vaxtlar demişdi ki, 40 ildir şeyxəm, amma hələ də vicdanın nə olduğunu bilmirəm. Fetoçu nazirə gəlincə, o doğrudan da səmimi olsa, çıxıb deyər ki, 6 ildir nazirəm, amma hələ də başa düşə bilmirəm ki, məni bu vəzifəyə niyə təyin ediblər, niyə hələ də bu vəzifədə saxlayırlar? Amma deyə bilməz, çünki şeyx həzrətləri kimi o da vicdan nədir bilmir, çünki vicdanı yoxdur, özündə olmayanı hardan bilsin? O ki qaldı hüquqşünasın nəyi daha yaxşı bilməsinə, mükəmməl hüquqşünas riyaziyyat və tarixlə yanaşı coğrafiyanı, psixologiyanı, hətta ritorikanı bilməlidir, yəni universal olmalıdır. Hüquqşünas üçün tarixin bir addım öndə olması məhz ondan qaynaqlanır ki, tarix "niyə" sualına cavab tapmaq üçün bünövrədir, riyaziyyat isə "necə" sualını cavablandırmaq üçün texniki strukturdur. Eynilə coğrafiya, psixologiya, dil və ritorika hüquqşünas üçün mühüm alətdir.

Ümumiyyətlə, Emin Əmrullayevin bilmədən də olsa, qaldırdığı bu tema olduqca maraqlıdır, daha ətraflı təhlil olunması gərəkir. Hüquqşünas üçün riyazi məntiq, coğrafi bilgi və insan psixologiyasına bələd olmanın əhəmiyyəti nədir? Bu da araşdırılması vacib məsələdir. Vaxt etsəm yazacağam...".

# Əri vəfat edən sabiq nazir Südabə Həsənova niyə "Təzadlar"ın bağlanmasına çalışırdı???

**Keçmiş ədliyyə naziri Südabə Həsənova 79 yaşında vəfat edib. Tezadlar.az xatırladır ki, Südabə Həsənova ədliyyə naziri (1995 - 2000), Ali Məhkəmənin sədri (2000 - 2005) vəzifələrində işləyib.**

Xatırladırıq ki, Südabə Həsənova ədliyyə naziri işləyərkən "Təzadlar" qəzetinin bağlanması üçün çox səylər göstərmişdir... Bunun üçün hüquqi əsas tapmadığından siyasi addımlar atmağa başlamışdı... O, Ulu Öndər Heydər Əliyevə məktubla müraciət edərək qəzetin guya müxilif fikirlər yaymasını(tənqidi fikirləri beklə qəbul edirmiş) əsas tutaraq tədbir görməsini xahiş etmiş, Professor İlham Rəhimovun da bu məslədə adını hallandırmışdı... Lakin ölkə rəhbərliyindən bu məsələdə rədd cavabı gəlmiş, qəzet fəaliyyətini davam etdirmişdir... Həmin vaxt Professor İlham Rəhimov qəzetin Redaksiya Heyətinin üzvü kimi(Xalq şairləri- Bəxtiyar Vahabzadə, Məmməd Araz, Professorlar- Nurəddin



Rza, Famil Mehdi... kimi) bu məsələyə qəti etiraz edərək redaksiyaya belə bir məzmunda məktub göndərmişdir. Məktubun fotosurəti aşağıda təqdim olunur:

# Məzahir Pənahovun döyülən gəlni ABŞ-dan necə qaçıb canını qurtarıb?

**Daha bir ailə qalmaqalına nöqtə qoyulub: Tezadlar.az xatırladır ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun oğlu Məhəmməd Pənahovla keçmiş həyat yoldaşı H.Pənahova arasındakı məhkəmə çəkişməsi sonlanıb. başa çatıb. Belə ki, Bakı Apellyasiya Məhkəməsi M.Pənahovun keçmiş həyat yoldaşına çatmalı olan əmlakın ona qaytarılması barədə qərar çıxarsa da, M.Pənahov bu qərardan Ali Məhkəməyə şikayət vermişdi.**

Bakı Apellyasiya Məhkəməsinin qərarında göstərilirdi ki,iddiada qeyd olunan əşyalar, onlar olmadıqda isə əşyaların dəyəri Məhəmməd Pənahovdan alınaraq H.Pənahovaya verilməlidir. Lakin Ali Ali Məhkəmə Məzahir Pənahovun oğlunun şikayətin təmin etməyib və Bakı Apellyasiya Məhkəməsinin qərarını qüvvədə saxlayıb. Bununla da ümumi dəyəri 300 min manat olan əmlaklar bunlardır: -17 adda qızıl-zinət əşyası, 100-ə yaxın şəxsi əl işi olan rəsm əsəri, ümumi dəyəri 60 000 manat olan iki çamadan şəxsi əşya, 40 adda cehiz əşyası, 10 000 manat pul, 40 adda şəxsi geyim əşyaları, doqquz adda ziyafət paltarları daxildir.



Cehiz əmlakın siyahısına daxil olanlar:

1) Toy komplekti: boyunbağı, üzük, qolbaq, sırğalar - 150 000 AZN;
2) Brilyant təkqaş üzük - 50 000 AZN;
3) Mərkəzdə oval böyük brilyant, kiçik dairəvi brilyantlardan əhatə olunmuş təkqaş üzük - 40 000 AZN;
4) Brilyant komplekt: boyunbağı, üzük, qolbaq, sırğalar - 11 000 AZN;
5) Brilyant komplekt: boyunbağı, nişan üzüyü, sırğalar - 7 000 AZN;
6) Brilyant komplekt: boyunbağı, üzük, qolbaq, sırğalar - 20 000 AZN;
7) Brilyant üzük - 1 500 AZN;
8) Brilyant üzük birkaratlıq zümrüd daşla, yanlarda 0.5 karatlıq 10 brilyant daşla - 1 500 AZN;
9) Ağ qızıldan brilyant qolbaq ("Roberto Coin" 23 qram) - 3 000 AZN;
10) Ağ qızıldan (qara və ağ) brilyant qolbaq ("Roberto Coin" 23 qram) - 3 000 AZN;
11) Qızıl qolbaq xırda brilyantlarla - 1 500 AZN;
12) Sadə qızıl qolbaq - 700 AZN;
13) Qızıl üzük kiçik brilyantla - 550 AZN;
14) "Rado" İsveçrə saatı - 4 400 AZN;
15) "Tissot" saatı - 3 000 AZN;
16) "Versace Hellenyium" saatı - 2 266 AZN;
17) "Swarovski" saatı - 824 AZN və sair.

Zəruri qeyd: H.Pənahova keçmiş həyat yoldaşı ilə birlikdə ABŞ-nin Kaliforniya ştatında yaşayıb. Onun məhkəmə iddiasında da bildirilir ki, o, evlilik müddətində əri tərəfindən dəfələrlə döyülüb, cəmi 17 ay birgə yaşadıqdan sonra o, yaşadıqları villadan qaçaraq xilas ola bilib. Sosial şəbəkələrdə H.Pənahovanın ABŞ-da yaşayan azərbaycanlıların köməyi sayəsində Azərbaycana çətinliklə gələ bilməsi barədə mesajlar varg Mediada da müddət əvvəl isə H.Pənahovanın həyat yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalmasına-döyülməsinə dair dəhşətli fotolar yayılmışdıg

Bu da qadına qarşı zorakılığın daha bir nümunəsi və sonu: boşanma, məhkəmə davası, 300 minlik əmlak qayıdışı və s.

**Səbuhi**

# Bərdə Müalicə-Diaqnostika Mərkəzi həkiminin səhlənkarlığı: məktəbli qızın ayağı kəsildi

*Ağcabədi rayon prokuroru Vüqar Hacıyev avtoqəza ilə bağlı qaldırılmış cinayət işinin istintaqında müstəntiqin 3 aylıq hərəkətsizliyinə susur: 11-ci sinif şagirdinin atası Baş Prokuror Kamran Əliyevə şikayət etdi...*

**Ağdam rayon sakini, hazırda Ağcabədi rayonunun Hüsülü ərazi nümayəndəliyinin Təzəkənd kəndində müvəqqəti məskunlaşmış Əliyev Zabil Əsgər oğlu Baş Prokuror Kamran Əliyevə şikayət yazıb. O, surəti “Təzadlar” qəzeti redaksiyasına göndərilmiş müraciətində ailəsinin və qız övladının başına əbədi travma-faciə gətirmiş vəzifəli şəxslərin, eləcə də bu iş üzrə Ağcabədi rayon Polis Şöbəsində qaldırılmış cinayət işinin istintaqının qəsdən və müəmmalı səbəblərdən uzadılmasından ciddi narahatlığını qeyd edir. Ata, həmçinin həmin cinayət işinin Ağcabədi RPŞ-dən alınaraq başqa rayona verilməsini xahiş edir.**

*Şikayət məktubunu kiçik ixtisarla təqdim edirik:*

**“Azərbaycan Respublikasının Baş Prokuroru cənab Kamran Əliyevə!**

Çox hörmətli cənab Baş prokuror, bildirirəm ki, 09.01.2026-cı il tarixdə yaşadığımız Ağcabədi rayonunun Təzəkənd kəndində övladım, 08.03.2009-cu il təvəllüdlü 11-ci sinif şagirdi Əliyeva Yetər Zabil qızı, kəndin mərkəzi yolunun kənarı ilə gedərkən arxadan gələn “Jiquli06” markalı 50BF670 dövlət qeydiyyat nişanlı avtomaşını idarə edən, sürücülük hüququ olmayan, Ağcabədi rayonu Təzəkənd kənd sakini Məhərrəmov Elnur Novruz oğlu başqasına məxsus avtomaşınla qızım Yetəri yol kənarında olan qaz borusuna çırpmışdır. Yetərin sağ ayağı dizdən aşağı sınmış, avtomaşının qabaq təkəri isə sağ ayağının üstündə təxminən 3-4 dəqiqədən artıq qalaraq ayağının pəncəsini ağır vəziyyətdə əzmişdir. Sürücü isə hadisə yerindən kənarlaşmış, mən özüm qızım Yetər Əliyevanı dərhal şəxsi avtomaşınla Bərdə Müalicə Diaqnostika Mərkəzinə aparmalı oldum. Xəstə həkim travmatoloq Xaliq Məmmədov tərəfindən qəbul edildi, o, rentgen çəkilişinə baxaraq ayağı baldır hissəyədək gipsə qoydu, bunun müqabilində 100 (yüz) manat da pul aldı, sonra bizi xəstəxanada saxlamayaraq evə yola saldı. Bu hadisədən təxminən 19 gün sonra-28.01.2026-cı il tarixdə baxdıq ki, Yetərin barmaqları və ayağının üstü qaralır. Dərhal ayağı gipsə qoymuş həkimlə əlaqə saxladıq, bildirdi ki, təcili Bakıya aparın, mən heç nə edə bilmərəm və s. Biz dərhal qızımı Bakı şəhərinin Nərimanov rayonunda yerləşən “Funda” Hospitalına apardıq. Həkimlər uzun müddət müalicə etməsinə baxmayaraq azyaşlı qızım Yetər Əliyevanın sağ qılçası dizindən yuxarı amputasiya edildi. Həkimlərin rəyi əvvəldən belə olmuşdu ki, Bərdə Müalicə Diaqnostika Mərkəzinin travmatoloqu Xaliq Məmmədov ayağın sınmış hissəsini deyil, diz də qarışıq, yuxarı baldır hissəni də gipsə qoymaqla oynaq damarlarının sıxılmasına və ayağa qan işləməməsinə səbəb olan səhlənkarlığa yol vermiş, nəticədə aşağı ayaq hissəyə qan işləmədiyindən qanqren vermiş, damarlar tıxanmış, çürümə baş vermişdir.



Xatırladım ki, törədilmiş avtoqəza ilə bağlı Ağcabədi RPŞ-nin istintaq bölməsində cinayət işi başlansa da, bu günədək başqasının avtomobili ilə sürücülük vəsiqəsi olmadan ağır yol-nəqliyyat hadisəsi törətmiş sürücünün və avtomobilin əsl sahibinin barəsində qanuni tədbirlər görülməmiş, əksinə, müstəntiqlə “dil tapan” “sürücü” bizə açıq şəkildə deyir ki, hara istəyirsiniz şikayət edin, mənlik deyil və s. Axı bu necə ola bilər! Aradan 3-aydan çox vaxt keçməsinə baxmayaraq hadisəni törətmiş Elnur Məhərrəmov və həkim travmatoloq Xaliq Məmmədovun barəsində istintaq heç bir tədbir görməmişdir.

Qeyd edim ki, hazırda oğlum “N” saylı hərbi hissədə xidmət edir və o, avtomaşın bacısını vuranda hərbi xidmətə getməmişdi, andiçmədə bildirdi ki, əgər bacımın ayağı kəsilsə, hərbi hissənin həyətində intihar edəcəm. Oğlumun bu sözündən də hazırda qorxuya düşmüşük, bu bədbəxt və faciəvi hadisə barədə ona heç nə demirik.

Hörmətli cənab Baş Prokuror! Bu cür ailə faciəsi üzərindən istintaqın hərəkətsizliyinə isə istintaqa nəzarət etməli olan Ağcabədi rayon prokuroru Vüqar Hacıyev 3 aydır susur. Niyə? Mən ata kimi məktəbli qızımın qarşısında hər gün dayanıb sualsuram və göz yaşı içində ona deyə bilmirəm ki, mən Ağcabədi rayon Polis Şöbəsinin rəisinin və müstəntiqin hərəkətsizliyi, qanuni vəzifələrini yerinə yetirməmələri qarşısında hələki acizəm! Axı niyə belə olmalıdır??? Ailəmizə və övladıma əbədi faciə gətirmiş “sürücü” necə ola bilər ki, ortalıqda gəzsin və günahkar ola-ola cəzalandırılması, məsuliyyətə cəlb edilməsin?

Ulu Öndər Heydər Əliyev deyirdi ki, dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda! İndi günahkar cəzasızdır, günahsız məktəbli qızım isə heç nədən əbədi olaraq həyati cəzaya məhkum edilib!

Hörmətli Kamran müəllim, yəqinki bir ata və valideyn olaraq Siz mənim acizanə vəziyyətimi qiymətləndirəcəksiniz. Xahişim odur ki, bu faciə ilə bağlı Ağcabədi rayon Polis Şöbəsində qaldırılmış cinayət işi alınaraq başqa rayona verilsin. Eləcə də orta məktəb şagirdi olan azyaşlı qızımın bu vəziyyətə düşməsində birbaşa günahkar olan sürücü Elnur Məhərrəmov, eləcə də ona avtomobilini vermiş əsl sahibi, həmçinin qızımı həkim səhlənkarlığı ilə əbədi əlilliyə düçar etmiş Bərdə Müalicə-Diaqnostika Mərkəzinin travmatoloqu Xaliq Məmmədovun qanuna müvafiq qaydada cəzalandırılması üçün aidiyyəti üzrə tapşırıq verəsiniz”.

**REDAKSİYADAN: Şikayət aidiyyəti üzrə Baş Prokurorluğa, həmçinin Daxili İşlər Nazirliyinə və Səhiyyə Nazirliynə, TƏBİB-in tabeliyində olan Bərdə Müalicə-Diaqnostika Mərkəzinə göndərildi.**

***Əlavə məlumat veriləcək.***

# Türkiyə xəstəxanalarında dünyasını dəyişən məşhurlarımız

***...Niyə Azərbaycanlı tanınmışlar Türkiyə xəstəxanalarına sağ gedir, geriyə salamat qayıtmır- tabutda gətirilir???***



**“Təzadlar” olaraq bu suala cavab axtarmağa çalışdıq... Elə bu günlərdə Türkiyə xəstəxanalarına öz ayağı ilə gedib, sonda dünyasını dəyişənimiz -Xalq artisti, tanınmış aktyor, korifey sənətkarımız Rasim Balayevdir! Azərbaycanda elə bir adam tapılmaz ki, bu ölümə acımasın, təəssüflənməsin. Allah rəhmət eləsin!**

Bəs nə baş verir? Sosial mediada rast gəldiyimiz bu sual və şərh düşündürücüdür: necə ola bilər ki, Türkiyənin, yaxud Almaniyanın, ABŞ- ın məşhur həkimləri Azərbaycana saathesabı işləməyə gəlir, ən ağır cərrahi əməliyyatlara, müayinələrə cəlb edilir, amma bizim bir çox məşhurlarımız, kobud sələnsə də, Türkiyə xəstəxanalarına diri gedib ölü qayıdır???

Bir çoxlarını yada salaq: sabiq deputat Fəzail Ağamalı Türkiyəyə müalicəyə sağ- salamat getdi, amma geriyə tabutda qayıtdı.

Sabiq deputat Qənirə Paşayeva İstanbula sağ- salamat getdi, müalicə aldı, amma Mərkəzi Klinik Xəstəxanada vəfat etdi...

Milli Məclisinin sabiq deputatı Mahir Aslanov da Türkiyəyə sağ getdi, salamat qayıtmadı, orda vəfat etdi...

Budur, ötən il “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti” İdarə Heyətinin sədri Köçərli Həsənov İstanbulda Memorial Şişli xəstəxanasında ürək əməliyyatı keçirdi, amma əməliyyatdan az sonra həyatını itirdi.

Əməkdar incəsənət xadimi Həsənağa Adıgözəlzadə də Türkiyədə müalicə alarkən dünyasını dəyişib...

Ondan əvvəl isə Xalq artisti Ramiz Əzizbəyli də qardaş ölkəyə, necə deyərlər, bahalı müalicəyə getdi, amma dünyasını dəyişdi.

Xalq artisti, sevilən aktyorumuz Yaşar Nuri də İstanbulun məşhur “Memorial” xəstəxanasına sağalmağa getdi, amma geriyə nəşi qayıtdı.

Əvəzolunmaz səs sahibi, Xalq artisti Qədir Rüstəmov da Türkiyəyə öz ayağı ilə getdi, geriyə tabutda qayıtdı.

Sabiq deputat, Xalq şairi Zəlimxan Yaqub da Türkiyəyə müalicəyə getdi, geriyə qayıdandan az sonra dünyasını dəyişdi.

Azərbaycanın keçmiş prezidenti Əbülfəz Elçibəy və həyat yoldaşı Həlimə Əliyeva da Türkiyə xəstəxanalarında dünyasını dəyişiblər.

Azərbaycanın tanınmış nazirlərindən biri, “ARDNŞ”nin sabiq prezidenti Natiq Əliyev də Türkiyəyə müalicəyə getmişdi, geriyə cənazəsi gəldi...

***

**Bu siyahını bir az da artırmaq olar. Amma sual birdir: niyə???**

Hesab edirik ki, biz Azərbaycanlı olaraq həkimə ən sonda gedirik! Hər şeyə qızıldan qiymətli vaxtımızı ayıra bilirik, pul xərcləyirik, amma səhhətimizə olmayan qədər biganəyik! Və belə çıxır ki, Türkiyədəki həkimlər dərdimizə çarə tapa bilmirlər və s. Yox, belə deyil! Amma “Təzadlar”ın müşahidə və araşdırmaları göstərir ki, əslində, məsələ elə deyil, sadəcə, bizim məşhurları Türkiyə xəstəxanalarına xəstəliyin ən son mərhələsində aparırlar. Bu zaman isə hər şey gec olur!

Beləliklə, məşhurlarımızın ölümlərinə yanıb- yaxılarkən, həm də düşünək ki, özümüz də səhhətimizə olmayan qədər biganəyik!

**Asif MƏRZİLİ**



# Nərimanovda restoranın qarşısında kütləvi dava

**Paytaxtın Nərimanov rayonunda yerləşən restoranlardan birinin qarşısında kütləvi dava düşüb.**

Hadisə “Tempo Baku” restoranının qarşısında baş verib.

Belə ki, bir qrup sərxoş şəxs arasında mübahisə olub və daha sonra davaya çevrilib. Tərəflər bir-birilərinə xəsarətlər yetiriblər.

“Qafqazinfo”nun əldə etdiyi məlumata görə, Nərimanov rayonu ərazisində sərxoş halda ictimai asayişi pozan şəxslərin kimliyi polis əməkdaşları tərəfindən müəyyən olunub. Hazırda faktla bağlı zəruri prosessual araşdırmalar davam etdirilir.

**...“Təzadlar” qəzetinin 33 yaşı tamam olur... Bu 33 ildə qəzet əməkdaşlarının- kollektivin başına çox müsibətlər gəlib. Şüarı 2020- ci ilədək “Qarabağı xilas etməyən xalqı Allah da xilas etməyəcək!” olub... Kollektiv çalışıb ki, xalqımız ruhdan düşməsin, yurda qayıdış arzusu ilə yaşasın... Hətta Sovet dönəmində belə AzTV efirindən xalqa sözünü “Xalq- qalx” ifadələri ilə çatdıran dünya şöhrətli alim Xudu Məmmədovun şəklini qəzetin başlığında veriblər ki, millət daha ruhlu olsun, ağı qaradan, pisi yaxşıdan, alimini nadanından, dürüstünü yaltağından, şəxsi maraqlarını milli maraqlardan üstün tutmayanları qarın və vəzifə davası edənlərdən fərqləndirsin... Amma onları qəsdən anlamaq istəməyənlər vardı və daim badalaq vurmağa çalışırdılar ki...**



# “Təzadlar” qəzetinin 33 yaşı tamam oldu - UZUN, ÇƏTİN VƏ İNCƏ BİR YOL!

## *“Nizami Xudiyev təəssüflə dedi ki, Fatma Abdullazadə zəng edərək göstəriş verib ki...”*



Qəzetin 33 illiyində 33 ildir bu çətinliklərə dözən baş redaktor Asif Mərzili ilə söhbətləşdik... O, indiyədək heç kimin bilmədiyi bəzi detalları dilə gətirməyə məcbur oldu. 1993-cü ildən “Təzadlar”ın baş redaktoru olmuş Asif Mərzilinin söhbətlərindən bəzi məqamları təqdim etməyi “Ölüm-itim dünyasıdır”, - deyərək diqqətə çatdırmaq istədik... Deyir: “...Xudu Məmmədovun şəklinin qəzetin başlığında verilməsi bəzilərini qıcıqlandırırdı... 1995-ci ilin məlum 13-17 mart hadisələrindən sonra qəzetin təsisçisi olmuş X.Məmmədov Xeyriyyə Cəmiyyətinin fəaliyyəti dayandırıldı, təsisçiliyi öz üzərimə götürməli oldum... Lakin o vaxtlar Mətbuat və İnformasiya Komitəsinin sədri olan Sabir Rüstəmxanlı qəzeti yenidən qeydiyyatdan keçirməyə çəkindi... Az sonra rəhmətlik Sirus Təbrizli komitənin sədri oldu, qəzet lisenziyasını aldı, lakin “Azərbaycan” nəşriyyatının rəhbərliyi qəzetin çapına risk etmədi... Prezidentin köməkçisi Əli Həsənovla görüşdüm, insafən, sağ olsun, söhbətləşdik, bəzi məsləhətlər verdi və nəşriyyatın direktoru Nazim İbrahimova zəng edərək qəzetin çapına kömək olunmasını bildirdi... Qəzet nəşrə davam etdi... Lakin bu dəfə başqa problemlərə tuş gəldik. “Azərbaycan” qəzetinin indi baş redaktoru, o vaxtlar əməkdaşı və sonralar Ramiz Mehdiyevə xidmətləri sayəsində Ağdamdan deputat olmuş Bəxtiyar Sadıqov yazı və mətbu çıxışlarında Xudu Məmmədovun şəklinin qəzetin başlığından götürülməsini tələb edirdi... “Azərbaycan” qəzetinin baş redaktoru Əmir Mustafayevdən bu barədə soruşdum ki, Bəxtiyar Xudu Məmmədovun şəklindən nə istəyir? Dedi ki, Fatma Abdullazadə Ramiz Mehdiyevə, o da Bəxtiyara göstəriş verib... Beləcə, biz də bu şəkil təhdidlərinə dözməyə davam etməli olduq... Əsas o idi ki, X.Məmmədovun ailəsi hələki bu barədə danışmırdı... Amma az keçmiş bunu da etdilər... Sonra Xalq şairi Bəxtiyar Vahabzadənin və professor Nurəddin Rzayevin məsləhəti ilə öz hesabımıza X.Məmmədovun 70 illiyinə həsr edilmiş “Xüsusi buraxılış” hazırladıq. AMEA- da alimin 70 illiyi keçirilirdi, mən də dəvət olunmuşdum. Orada təxminən 200 qəzeti iştirakçılar arasında payladıq... Elmi konfransı AMEA-nın prezidenti Fərəməz Maqsudov açıq elan etdi. Fatma Abdullazadə də iştirak edirdi... Açığı sönük tədbir oldu. Yanaşı əyləşdiyim vətənpərvər şairimiz Famil Mehdi də bunu mənə bildirdi, hətta bir ara dedi ki, dur çıxaq, bu konfransdan gözüm su içmir... Nəhayət, sözü ailə adından təşəkkür etmək üçün X.Məmmədovun oğlu Toğrula verdilər... O, tribunaya çıxıb duruxdu, ən azı iki dəqiqə sakit dayandı, çox həyəcanlı idi, hiss olunurdu ki, ona nəyi və necə danışmağı tapşırmışdılar, lakin o, tərəddüd içində idi... Amma nəhayət, o, danışdı... Qəzetin və təsisçilərin, qəzetin İdarə Heyət üzvlərinin (İH- də Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nurəd-

*“...Xudu Məmmədovun şəklinin qəzetin başlığında verilməsi bəzilərini qıcıqlandırırdı...”*

din Rzayev, İlham Rəhimov, Famil Mehdi və başqaları vardı), əleyhinə danışdı, hətta qəzetin düşmənə xidmət etdiyini dedi və qəzetdə dərc edilmiş bəzi siyasi aforizmlərimizi misal da çəkdi... Sonda atası Xudu Məmmədovun qəzetin başlığında hər nömrə verilən şəklinin çıxarılmasını yuxarılara, yəni Fatma Abdullazadəyə xitabən xahiş etdi... Fatma xanımın bu vaxt üzü güldü... Amma zal şokda idi... Hamı qəzetin media xəttini, dövlətçiliyə sadiqliyini bilirdi... Bunları eşidən kimi zalda olan alimlərin hamısı yavaş- yavaş konfransı tərk etməyə başladı... Bu hələ haradır... İki gün sonra isə Ağdamda X.Məmmədovun 70 illik yubileyinin keçirilməsi üçün Bakıdan bir qrup ziyalılarla (tarix elmləri doktoru Boran Əziz, Xudu Məmmədovun sevimli tələbəsi, kimya elmləri doktoru İxtiyar Bəxtiyarlı və başqaları) Ağdama getməli olduq... Ağdama axşam saatlarında çatdıq, səhəri gün Üçoğlandakı Mədəniyyət Evində alimin 70 illiyi keçirilməli idi. Ağdamın İcra başçısı Həsən Sarıyev tapşırmışdı, yubiley tədbirinə ciddi hazırlıq görülmüşdü... Axşam olduğumuz qohum evində səhərisi baş tutacaq tədbiri müzakirə edirdik, birdən işıqlar söndü. O dövrlərdə bölgələrdə belə hallar adi idi. Biz dilxor olduq, çünki saat 21:30-da AzTV- də hər il ənənəvi olaraq Xudu Məmmədovun doğum gününə veriliş həsr edilərdi... Saat 21:32-də elə bil Allah üzümüzə baxdı, narahatçılığımıza dəstək verdi, işıqlar yandı. Hamı AzTV- yə hakim kəsildi... Veriliş başlamışdı, amma məlum oldu ki, bu, ötən ilki verilişdir, təkrar verirlər... Bir də gördük ki, alimin oğlunun iki gün əvvəl AMEA- da səsləndirdiyi narahat çıxışının fərqli və daha sərt forması xüsusi çəkilərək onun dilindən həmin verilişin içərisinə yamaq kimi verilib...”.

**Asif Mərzili danışır ki, dövlət TV- də yayımlanan bu verilişi görüb Bakıya qayıtmaq istəyiblər:** “Düşündük ki, icra başçısı bunu gördüsə, birmənalı olaraq tədbir ləğv edilib... Lakin əksini gördük, Bakıya yola düşmək üçün maşınlara minib getmək istəyirdik ki, başçı Həsən Sarıyev zəng etdi ki, bəs hardasız, tədbirə az qalıb, sizi gözləyirik... Çox sevindik... Tədbir yüksək səviyyədə keçirildi...”.

Asif Mərzili ən vacib bir məqamı da diqqətə çəkdi: “...Bakıya qayıdanda AzTV sədri Nizami Xudiyevə zəng vurub görüşmək və X.Məmmədovla bağlı verilişin bu dəfəki variantının nə demək olduğuna aydınlıq gətirmək istədim... AzTV-də, özünün kabinetində görüşdük... Mənə veriliş və Xudu Məmmədovun oğlunun çıxışı ilə bağlı dedi ki, “...Fatma Abdullazadə zəng edib tapşırdı ki, təcili olaraq Xudu Məmmədovun oğlunu tapın, özünə deyilib, o, çıxış edəcək, olduğu kimi, bu axşam efirə gedəcək verilişə əlavə edin...”.

Artıq vəziyyət bəlli idi. Qəzetə qarşı sərt hücuma start verilmişdi... Nizami Xudiyev daha bir vacib məqamı xatırlatdı: “...Mən xeyli düşündüm, amma səni tanıyırdım, qəzetin fəaliyyətini, Qarabağla bağlı ürək yanğılı məqalələrinizi daim oxuyurdum. Faima Abdullazadə təkrar zəng etdi ki, operatoru tez göndərin. Mən operatoru Xudu Məmmədovun evinə göndərdim... Çəkilişdən qayıtdılar, çıxışa baxdım ki, bu efirə getsə, ən azından Xudu Məmmədovun adına yaxşı deyil, üstəlik, oğul atası haqqında efirə gedəsi verilişdə belə mənasız bir mövzunu ortaya atır, bu yamaq kimi görünəcək. Rejissoru çağırdım, inanırdım ona, dedim bu lenti qəsdən xarab elə, səs xırıldasın... Dedi, baş üstə... Sonra Fatma Abdullayevaya zəng etdim ki, bəs səs çox pis düşüb, xırıltı var, efirə yaramır... O, dərhal dedi ki, yaxşı, mən öz operatorumu göndərirəm. Beləcə, F.Abdullazadə özünün operatorunu çəkilişə göndərdi, ixtisarla verilişin arasına saldırdıq...”. Amma o, çox təəssüflənirdi ki, görkəmli alimin oğlunu siyasətə qatmışdılar... Mən bu barədə Xudu müəllimin yaxın qohumu, Ağdam RİH başçısının sabiq müavini Akif Məmmədova danışdım, onunla birlikdə Xudu Məmmədovun həyat yoldaşı Maya xanımla evlərində görüşdük... Toğrul da evdə idi. Maya xanım oğlunun məlum çıxışından çox təəssüfləndi və başqa əlavə heç nə demədi, ətraflı söhbətimiz oldu... Akif müəllim də bildirdi ki, artıq F.Abdullazadə bu işə qarışıbsa, sərt addım atmamaq məsləhətdir... Beləliklə, Xudu müəllimin şəklini qəzetin başlığından çıxarmalı olduq”.

Asif Mərzili daha bir inanılmaz faktı da açıqladı: “...Sonralar da Fatma Abdullazadə “Təzadlar”dan əl çəkmədi, bizi qaralamaqdan çəkilmədi... Qeyd edim ki, Xalq şairi, ustad Məmməd Arazın həyat yoldaşı (Allah hər ikisinə rəhmət eləsin!) **Gülxanım Fətəliqızı Məmməd Arazın xatirələrindən ibarət “Ömürdən yarpaqlar” kitabını** ərsəyə gətirmişdir. Kitabda Məmməd Arazla bağlı xatirələrin biri də “Təzadlar” qəzeti ilə bağlıdır. Təxminən yadımdadır, 1997-ci ildə “Təzadlar”da belə bir siyasi replika dərc olunmuşdu: “ELAN: Etibarsız sayılır! Vaxtında dədə-baba torpağına qayıtmadığı üçün Qarabağ camaatı etibarsız sayılır!”. Növbəti siyasi replika: “Bu Qarabağ köçkünlərini heç başa düşə bilmirik. AzTV-də çıxış edib deyirlər ki, “Möhtərəm Prezident nə vaxt əmr eləsə, əlimizə silah alıb gedib torpaqlarımızı azad edəcəyik!” Yaxşı, tutalım Prezidentin başı qarışdı, heç sizə o əmri vermədi, gedib torpağınızı azad etməyəcəksiniz??? Qalxın ayağa, səfərbər olub gedin dədə-babanızın yurdunu azad edin də!”. Bir aforizmdə isə belə deyilirdi: “Halva, halva, halva... Sülh, Sülh... Sülh...”. Yəni, mənası bu idi ki, halva deməklə ağız şirin olmadığı kimi, sülh deməklə də sülh quşu uçub başımıza qonası deyil... Xalq şairi Bəxtiyar Vahabzadə zəng edib dedi ki, “Ay oğul, o “Azərbaycan” qəzetində Bəxtiyar kimdi, zəng edib Fatmaya deyib, Fatma da Ramiz Mehdiyevə bildirib ki, bəs, Asif Mərzili bu günkü qəzetdə xalqı meydanlara, üsyana çağırır, yazıb ki, xalq ayağa qalxmalıdır... Bu nə məsələdir???”. Mən də Horadizdə idim, Beyləqan şərab zavodunun mərhum direktoru Nizami Məmmədov və yaxın dostum Teyyub Abdullayevlə birlikdə hərbi hissəyə yardım aparmışdıq... Bəxtiyar müəllimə onların yanındaca izah verdim ki, bu günkü qəzetdə elə şey yoxdur...

Bəxtiyar müəllim bildirdi ki, təcili Bakıya qayıt, prezident Heydər Əliyev işə qarışıb, vəziyyət çox gərgindir... Məlum oldu ki, Fatma Abdullazadə qəzetdəkiləri Ramiz Mehdiyevə tərsinə məruzə edir, o da Prezident Heydər Əliyevə fərqli izahlayıb... Gəlirəm əsas məsələyə: üstündən uzun illər keçdi, **Gülxanım Fətəliqızının həyat yoldaşı, ustad Məmməd Arazın xatirələrindən ibarət “Ömürdən yarpaqlar” kitabı işıq üzü gördü. Kitabda oxuyuram... Deməl, həmin vaxt Fatma Abdullazadə Bəxtiyar Vahabzadəyə zəng edir ki, təcili olaraq “Təzadlar” qəzetinin Redaksiya Heyətindən istefa verirsiniz və qəzetlə bağlı bəyanata imza atırsınız və s. Budur, neçə illər sonra kitabda yazılır: “...Bəxtiyar müəllim əvvəl Məmmədlə danışdı. Onların nə danışdığını bilmədim. Bu məqamda telefona zəng gəldi, Prezident Aparatından Fatma Abdullazadə Məmmədlə danışmaq istədiyini bildirdi. Dedim ki, Bəxtiyar Vahabzadə ilə danışır...**

**Dedi:**

**- Buyursunlar, gözləyirəm... Bir məsələ ilə əlaqədar olaraq sizə zəng etdim. “Təzadlar” qəzeti ki, var, olub bir faşist qəzeti. Əvvəl Xudu müəllimin şəkli ilə çap olunurdu... Onun redaktoru yaman cığallıq edir. Bir qrup yazıçı Heydər Əliyevin yanına gəlmişdilər. Onlar prezidentə dedilər ki, bu necə olur, belə bir qəzetin redaksiya heyətində Bəxtiyar, Məmməd Araz kimi şairlərin adı var?.. Mən Bəxtiyar müəllimlə də danışmışam. Bəxtiyar müəllim bildirdi ki, o qəzet çap olunanda biz Xudunun ətrafına yığışmışdıq... (Qəzet 1993-cü ildə təsis edilib, Xudu müəllim isə 1988-ci ildə vəfat edib. RED.”Təzadlar”). Mənim sözlərimi Məmməd müəllimə çatdırın, qoy fikirləşsin, sonra siz mənə çatdırarsınız.**

**- Vallah, bizə lazım olanda sizi bizimlə calaşdırmırlar. Ona görə də özünüz zəng edərsiniz.**

**Onun sözlərini olduğu kimi Məmmədə çatdırdım.**

**Bəxtiyar müəllim təzədən zəng edib telefonla danışdı:**

**- Ay bacım, mən bayaq Məmmədlə də danışdım. Sən evdə deyildin, sizinlə danışdılarmı? Onlara dedim ki, demokratiyadır, danışırlar. Qəzetdə nə yazılıb ki, elə bir şey deyilmir. Asif Mərzili prezidentə açıq məktub yazıb. Yazıb ki, Qarabağ əldən gedir. Bizim varımız da, əhalimiz də, qoşunumuz da ermənilərdən çoxdur. Prezidentimiz niyə Köçəryanın yanında pərt oturmalıdır? Niyə? Dedim ki, burada pis nə var ki? Deyir ki, yox, qəzet Murtuzu da söyür... Mənə həmişə hücumlar olanda “Təzadlar” qəzeti məni müdafiə edib... İndi Fatma deyir ki, qəzetin Redaksiya Heyətindən çıxıb bəyanat verməlisiniz...**

**- Sizin işiniz pis olacaq, Bəxtiyar müəllim. Redaksiya heyətindən çıxsanız xalq sizi söyəcək, çıxmasanız hökümət...**

**- Elədir... Qəzetdə mənim və Məmmədin də adını çəkiblər. Yazırlar ki, biz bu xalq şairlərindən problemlərin həllində çox şey gözləyirdik, ancaq onlar susurlar... Fatma mənə deyir ki, sən bir Asif Mərzili ilə danış, gör nə edirsən... Hələ bizimlə pişim-pişim danışıblar, Nurəddinin üstünə isə hücum çəkiblər.**

**-Yaxşı, Bəxtiyar müəllim, danışaram.**

**- Hə bala, Məmmədlə danış görək neyləyirik...”.**

**Sonda:** Məmməd Araza təkrar zəng edəndə, Fatma Abdullazadənin təklifini rədd edir... Və Bəxtiyar Vahabzadə isə prezident Heydər Əliyevlə danışır, vəziyyəti olduğu kimi söyləyir, Fatma xanımın məsələni şişirtdiyini bildirir, qəzetdə xalqı üsyana deyil, torpaqların azadlığına çağırış olduğunu söyləyir... Bəxtiyar müəllim deyirdi ki, Rəhmətlik Heydər Əliyev PA-nın şöbə müdiri Fatma Abdullazadəni bu yanlış izahlarına görə o ki var danlayıb...”.

***

**Xatırladırıq ki, bu gün “Təzadlar” qəzetinin 33 yaşı tamam olur: yəni, 1993-cü ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçdiyi gündür - anadan olduğu gün(ilk sayı isə aprelin 14-də işıq üzü görüb). Bu günədək bizə dəyər verən oxucularımızı salamlayır və var olun deyirəm... MEDİA Agentliyinin rəhbərliyinə, Mətbuat Şurasının hazırkı rəhbərliyinə... təşəkkürümüzü çatdırıram! Çətin, mürəkkəb və məsuliyyətli, amma olduqca incə bir yoldayıq... O yol ki, Azərbaycanımızın və dövlətimizin adınadır-özümüzün seçdiyimiz-getdiyimiz yoldur!**

**“Təzadlar”**

# Aktrisa Sebahat Adaların ümidsiz qadınlara işıq olacaq həyat hekayəsi

**Xəyallarının ardınca uzun və çətin yol gələn, uşaq ikən böyüyən, qanqallar üzərindən ayaqyalın keçərkən batan tikanlara "uf" deməyən, yıxılanda sıyrılan dizlərinə baxmayaraq yürüyən, göynəyən qəlb yarasına "sus" deməyə güc tapan və hər zaman insanlara gülümsəməyi bacaran bir aktrisa, həm də uğur hekayəsini öz əlləri ilə yazan möhtəşəm qadın – Sebahat Adalar!**

## Bugünkü qonağımız fərqli qadınlardandır - dünyaya baxışı, həyatdan gözləntiləri, xoşbəxtlik barədə düşüncələri ilə...

Onun teatr və kino yaradıcılığını Fransada yaşayan tanınmış şair, yazar Caroline Laurent Turunç belə təsvir edib:

**SİTAT:** "Sebahat Adalar türk teatr, kino və televiziya hekayələrində səssiz, amma dərin iz buraxmış — aktyorluğa tamaşa məkanı kimi deyil, insanlığın tədqiqi kimi baxan görkəmli sənətkarlardan biridir. Onun sənəti yüksək səslə var olmağa deyil, daimiliyə üstünlük verir. Buna görə də, onun adı çox zaman rolun önünə keçmədən, lakin həmişə rolun özündə hiss olunaraq xatırlanır. Teatr keçmişi olan bir sənətkar olaraq, Sebahat Adalar səhnəni texniki sahə kimi deyil, etik sahə kimi görür. Onun aktyorluğu şişirtmənin və ya asan emosiyaların deyil, ölçünün, daxili intizamın və dərin intuisiyanın məhsuludur. Onun canlandırdığı personajlar tamaşaçı qarşısına "oynanılmış" deyil, yaşanmış vəziyyətlərdə çıxırlar. Bu, onu keçici parlaqlıqdan ayıran əsas fərqdir. Onun televiziya seriallarında və filmlərində oynadığı rollar çox zaman hekayənin mərkəzində olmasa belə, hekayənin vicdanını daşıyır. Sebahat Adaların aktyorluğu səhnənin bütün diqqətini tələb etmir, lakin səhnəyə çıxdığı anda varlığını hiss etdirir. O, hekayəni daşıyır, dərinləşdirir və tez-tez görünməz bir ox kimi dimdik saxlayır...".

***

*Bəli, qonağımız paytaxt Bakıya rol aldığı "Muamma-Cenin-i-Cin" filminin Qala gecəsinə təşrif gətirən Sebahat xanım Adalardır. Mən də Bakıda olduğu günlərdə fürsəti dəyərləndirərək onunla həmsöhbət oldum:*

**– Xoş gəlmisiniz, Sebahat xanım. Sizi yenidən Azərbaycanda gördüyümə çox şadam. Artıq sizinlə üçüncü dəfədir görüşürük. Ötən il də Türkiyə istehsalı olan bir filmin Qala gecəsində görüşmüşdük. Bu gəlişinizdə isə sizin rol aldığınız filmin Qalasında bir araya**



**gəldik. Daha əvvəl isə Tezadlar TV-nin efir saatında qonağım olmuşduz. İstərdim ki, Azərbaycan tamaşaçıları, eyni zamanda oxucularımız ekrandan tanıdıqları Sebahat Adaları daha yaxından tanısınlar...**

– Xoş gördük, Yasəmən xanım. Sizi görməyimə mən də çox şadam. Azərbaycandakı tamaşaçılarımı da çox sevirəm. Bakıda Türkiyə filmlərinin Qala gecələrinin təşkil olunması həm filmin izləyiciləri ilə, həm də dostlarımla görüşməyimə vəsilə olur.

**– Filmlərdən danışmışkən, bildiyim qədər sizin səhnə və kino fəaliyyətiniz 1993-cü ildən başlanır. Təqribən 40 yaşlarda filmlərə çəkilməyə başlamısız, lakin rejissorlar sizi çox tez kəşf ediblər və Azərbaycanda da sevilərək izlənilən seriallarda, filmlərdə yer almısız. Maraqlıdır, aradakı böyük bir zaman itkisi nədən qaynaqlanır, yaxud, sənətə gəlişinizə nə mane olub?**

– Mən Adanada doğulmuşam. Uşaq ikən təhsilimi davam etdirmək istəyirdim. Lakin böyük qardaşımın məni çox qoruması və qısqanması səbəbindən məktəbdən çıxarıldım, həm də orta məktəbin son sinfində. Təhsil almayınca atam da məni kiçik yaşda ərə verdi. Mən bu evliliyə qarşı idim, çünki təhsilimi davam etdirmək istəyirdim. Ailə qurduqdan sonra uşaq yaşında ana oldum. Ardıcıl olaraq 3 övladım dünyaya gəldi. Onlarla böyüdüm. Amma həyat bəzən sürprizlərlə dolu olur. Ailə həyatımız da başqalarının müdaxiləsi ilə bitdi və ayrılmaq məcburiyyətində qaldım. Yenidən ata evinə döndüm, lakin həyat şərtləri daha ağır oldu. Atam xəstə idi və ölümə məhkum idi. Qardaşlarım əvvəl təhsil almağıma mane olduqları kimi, bu dəfə də işləməyimə qarşı çıxdılar. Anam isə gücsüz idi — daha əvvəl də onlara mane ola bilməmişdi. Övladlarım bir-birindən ayrı düşdü. Gah atalarında, gah da mənimlə qalırdılar. Çox məşəqqətli günlər yaşadım. Ölməyi belə düşündüm. Atamın evində olduğum müddətdə orta təhsilimi tamamladım — liseyi bitirdim. Bu dəfə isə atam məni özümdən yaşca xeyli böyük insanla evləndirdi. Yenə də istəmədən, razılığım olmadan ailə qurmağa məcbur edildim. Heç xoşbəxt olmadım... Amma ikinci evliliyim dövründə xəyallarıma doğru yavaş-yavaş addımlamağa başlamışdım. Bursada konservatoriyada təhsil almağa başladım, eyni zamanda dram bölümünü də qazandım. Yəni, hər ikisinə qəbul oldum və təhsil aldım. Həyat yoldaşım təhsil almağıma mane olmadı, amma işləməyə qoymurdu: radio aparıcılığında müsabiqədən keçmişdim, lakin həyat yoldaşım yenə icazə vermədi. Sonra FLASH TV-də xəbər aparıcılığı üçün şans yarandı, yenə razılıq vermədi. Daha sonra kanalda başqa həyatları canlandırma layihəsi vardı, onunla başladım. İllərlə adətlərin qurbanı oldum: "Birincidən ayrıldı, ikincidən də ayrılıb" deyə dedi-qodular edilməsin deyə ata-anam boşanmama qarşı çıxdı. Mən də susmaq məcburiyyətində qaldım. Artıq bıçaq sümüyə dirənmişdi. Dözə bilmirdim. İllər sonra, sonuncu kursda təhsil alarkən ailəmə qarşı çıxdım və evliliyimə son verdim. Bu dəfə ata evinə dönmədim və İstanbulda təhsil alan kiçik oğlumun yanına getdim. Oğlum İstanbul Universitetinin film fakültəsində təhsil alırdı. Uşaqlarımın ən böyüyü olan digər oğlum Bursada qaldı, qızım isə artıq ailə quraraq İngiltərəyə köçmüşdü... Müxtəlif işlərdə çalışmağa başladım. Ancaq dram fakültəsində də təhsil aldığım üçün filmlə bağlı təcrübəm vardı və filmə çəkilmək istəyirdim. Ən böyük təcrübəm isə atam idi — kamança ifaçısıydı. O, musiqişünas idi, eyni zamanda filmlərə də çəkilmişdi, tamaşalarda oynamışdı. Mənim bu peşəyə aşiq olmam da uşaqlıqdan onun tamaşalarını izləyərkən baş vermişdi. Onların hamısını xatırlayıram... Atam Ferit Adalar vaxtilə Yılmaz Güney və Nebahat Çehre ilə "Çirkin kral affetmez" filmində çəkilib və vəkil rolunu canlandırıb.

**(Davamı 8-ci səhifədə)**

---

# Bu məhkəmənin hakimləri "100 adam/saat"ı "100 adam" kimi başa düşür

## ...Niyə Azərbaycanlı tanınmışlar Türkiyə xəstəxanalarına sağ gedir, geriyə salamat qayıtmır- tabutda gətirilir???

**...Yuxarı instansiya məhkəməsinin "təcrübəli" hakimi və Vəkillər Kollegiyasının "təcrübəli" vəkili tərəfindən "100 adam/-saat" əmək sərfi termininin "100 adam" kimi təqdim edilməsi həm məntiqi, həm də peşəkar baxımdan ciddi suallar doğurur. Axı "adam/saat" anlayışı konkret olaraq müəyyən işin görülməsi üçün sərf olunan ümumi vaxtını ifadə edir – bu, 100 nəfərin eyni anda işləməsi demək deyil, bir nəfərin 100 saatlıq işi də, 10 nəfərin 10 saatlıq işi də ola bilər.**

Belə bir əsas anlayışın yanlış şərhi isə sadəcə terminoloji səhv deyil, həm də məsələnin mahiyyətinin təhrif olunmasıdır. Xüsusilə hüquq müstəvisində, burada hər bir ifadənin və anlayışın dəqiq mənası olduğu halda, bu cür yanaşma qərarların obyektivliyinə və əsaslılığına kölgə salır.

Bəzən bir məhkəmə qərarı təkcə hüquqi mübahisəni həll etmir, əksinə, peşəkar savadsızlıq kimi daha dərin və narahatedici bir problemi üzə çıxarır. Bakı Apellyasiya Məhkəməsinin son qərarlarından biri bunun bariz nümunəsidir.

Məhkəmə işində müstəqil auditor Yasin Şirinov tərəfindən aparılmış ekspertiza üzrə iş 1 nəfər tərəfindən icra olunub, 14 gün davam edib və ümumilikdə 100 adam/saat əmək sərf olunub. Bu isə o deməkdir ki, iş 1 nəfər auditor tərəfindən yerinə yetirilmiş, 14 gün ərzində gündə orta hesabla təxminən 7,14 saat işlənilmişdir. Riyazi olaraq: 100 adam/saat ? 14 gün ? 7,14 saat/gün. Bu, tamamilə normal peşəkar göstəricidir.

Amma məhkəmə prosesində nə baş verdi? Cavabdeh tərəfin nümayəndəsi, Vəkillər Kollegiyasının "təcrübəli" vəkili "adam-saat" anlayışını belə başa düşdü: **"100 adam işləyib". Vəkil bundan belə bir "hesablama" çıxardı ki, guya bu iş üçün 100 nəfər cəlb olunub və bu səbəbdən xidmət haqqı "absurddur".**

Ən təəccüblüsü isə bu deyil. Ən təəccüblüsü odur ki, məhkəmə bu açıq səhvi düzəltmədi, uzun illər yuxarı instansiya məhkəmələrində çalışmış təcrübəli hakim bu termin səhvini izah etmədi və nəticədə ekspertin haqqını 3000 manatdan 300 manata endirdi.

Sadə dillə desək, bir sözün yanlış başa düşülməsi ekspertin əmək haqqında 2700 manatlıq fərq yaratdı.

Bu artıq hüquqi məsələ deyil, peşəkarlıq məsələsidir.

"Adam-saat" bütün dünyada istifadə olunan iqtisadi anlayışdır. Bu, işçi sayı deyil, sərf olunan əməyin ölçü vahididir. Amma bu anlayışın yanlış izahı ekspert əməyinin dəyərsizləşdirilməsinə, məhkəmə qərarının



keyfiyyətinin aşağı düşməsinə və ən təhlükəlisi isə ədalətin texniki səhvlərlə təhrif edilməsinin səbəb oldu.

Əgər bu yanaşma davam edərsə, sabah hər hansı mütəxəssis məhkəməyə ekspert kimi getməkdən imtina edəcək. Çünki risk aydındır: siz işləyirsiniz, nəticə təqdim edirsiniz, məhkəmə ondan istifadə edir, amma haqqınız termin səhvinə görə kəsilir.

Bu, hüquqi dövlət üçün təhlükəli siqnaldır. Ədalət yalnız qərarla yox, düzgün anlayış və düzgün qiymətləndirmə ilə təmin olunur.

Qətnamədə cavabdeh tərəfindən "100 adam-saat" "100 nəfər" kimi təhrif edilib. Bu isə elementar iqtisadi anlayışın yanlış izahıdır. Məhkəmə qətnaməsində vəkil bildirir:

**"1. Hörmətli kollegiya, dövlət xəzinədarlığının auditi ilə bağlı heç 100 adam cəlb olunmur. Necə oldu ki, 2 icra sənədinin hesablaşması üzrə qalıq borca illik 5 faiz məbləğin müəyyən edilməsi tapşırığına 100 adam cəlb edildi və hətta 100 adamla birlikdə bu tapşırıq 14 günə icra olundu?!**

**2. Bundan əlavə, sərəncamla ekspertiza qərardadının icrası yalnız bir şəxsə tapşırılmışdır. Belə olan halda, 100 adamın tapşırığın icrasına cəlb edilməsi zərurəti nədən qaynaqlanır?!**

**3. Ekspertiza tapşırığının icra edən MMC-nin ştatında heç 100 nəfər işçi yoxdur. Tapşırığın icrasına 100 nəfər işçi haradan cəlb edildi? (MMC-nin cəmi 3 işçisi var)."**

Məhkəmə bu savadsız izahı təkzib etmədi, onu dolayısı ilə qəbul etdi. Bu isə artıq sadə səhv deyil, sübutun mahiyyətinin dəyişdirilməsidir.

**Akif NƏSİRLİ**



## 11 il həbs aldı-4 il yatdı-bəraət aldı-nə müstəntiq, nə prokuror, nə də hakim cəzalanmadı, əksinə...

**...Polad İsmayılov törətmədiyi "qətl hadisəsi"nə görə 4 il həbsdə saxlanıldı... Sonra bəraət aldı və məhkəmə vurulmuş maddi və mənəvi ziyana görə ona 59 min manat kompensasiya təyin etdi. Amma indi məlum olur ki, bu kompensasiya azaldılıb.**

Tezadlar.az AzadliqRadiosu-na istinadla bildirir ki, buna əsas kimi qanunsuz həbsi nəticəsində Polad İsmayılovun ona vurulmuş maddi ziyanı fakt olaraq sübut edə bilməməsi göstərilib. Bu günlərdə isə Nəsimi Rayon Məhkəməsi qərar verib ki, P.İsmayılova yalnız mənəvi zərərə görə həbsdə olduğu hər ay üçün min manatdan hesablanmaqla, 46 min manat təzminat ödənilə bilər. Gəncə sakini olan P.İsmayılov 2020-ci ilin fevralından 2023-cü il dekabrın 28-dək törətmədiyi qətlə görə həbsdə olub. Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsiylə 11 il azadlıqdan məhrum edilən İsmayılov 3 il 10 aydan sonra bəraət alıb və həbsdən buraxılıb.

Bəs bu cinayət işini aparmış müstəntiq və İttiham aktını təsdiq etmiş prokuror, eləcə də 1-ci məhkəmə instansiyasının hökm çıxarmış hakimi cəzalandırılıbmı???

"Təzadlar" bu suala cavab tapmaq üçün Polad İsmayılovla əlaqə saxlamağa çalışır... Əlavə məlumat veriləcək.

**"Təzadlar"**

**Elektron mediada deputat Səyyad Aranın "Mən neyləyim ki, sən 300 manat alırsan?" kimi xalqa xitabən kinayəli sözləri yayımlanıb. Bir sıra tanınmış şəxslər deputatın bu məntiqsiz və kinayəli sözlərinə sərt cavab verib. Tanınmış vəkil İkram Abdullayev özünün fb platformasında yazır:**

# TANINMIŞ VƏKİL DEPUTAT SƏYYAD ARANI BİABIR ETDİ

*"Sən Konstitusiyamızın 81-ci maddəsindəki əmək funksiyanı yerinə yetirə bilmirsən, həmçinin qanun qəbul edə bilmirsənsə, onda niyə 7-8 min manat əməkhaqqı alırsan?!"*

"Mən vəkil və hüquq müdafiəçisi olaraq çalışıram ki, siyasətə qarışmayım. Mənim üçün ən vacibi odur ki, ölkəmizdə qanunlarımıza hörmət mədəniyyəti, qanunların icrası mədəniyyəti bərqərar olsun. Qanunçuluq dövlətçiliyin ən vacib atributudur. Deputat Səyyad Aranın ciddi, sərt, kəskin, nifrətlə müzakirə edilən "mən neynəyim ki, sən 300 manat əmək haqqı alırsan" kimi sözünə cavab verməyi özümə borc bilirəm.

Sevgili Xalqım, biləsiniz ki, Milli Məclis, heç bir səlahiyyəti olmayan, əhəmiyyətsiz, yalanpıçı bir qurumdur. Orada yalandan Xalqın adından təmsil olunan 125 deputatın böyük əksəriyyəti, o cümlədən Səyyad Aran yalandan külli miqdarda pul alırlar. Onların aldığı əməkhaqqılar qanunsuzdur, büdcəni talamaqdır. Əgər qanacaqları çatsa, hamısını qaytarmalıdırlar büdcəyə. NİYƏ?! Konstitusiyamızın 81-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. Yəni, Azərbaycan Respublikasında qanunları Milli Məclis qəbul edir. Milli Məclis kimdir? Milli Məclis- Ramız Mehdiyevin təyin etdiyi Səyyad Aran və digərləri. Konstitusiyamız 1995-ci ildə ULU ÖNDƏRİMİZİN Prezidentliyi dövründə qəbul olunub. İndi sizcə, HEYDƏR ƏLİYEV kimi dahi şəxsiyyət arxayın ola bilərdimi ki, Ramiz



Mehdiyevin təyin etdiyi səyyad aranların qabiliyyəti çatacaq dövləti və cəmiyyəti idarə edən qanunlar qəbul etməyə? Əlbətdə yox! Ona görə də ULU ÖNDƏRİMİZ Konstitusiyamızda özünün 109-cu maddədəki səlahiyyətlərinin 19 -cu bəndində göstərib ki, səyyad arangilin qəbul etdiyi qanunların imzalanması və dərci Prezidentin səlahiyyətinə aiddir. Ulu Öndər bununla da kifayətlənməyib. Konstitusiyaya 109-cu maddədən sonra daha bir 110-cu maddə də əlavə edilib. Həmin maddədə göstərilir ki, Milli Məclis qanunu "qəbul etdikdən" sonra imzalamaq üçün göndərir Prezidentə. Prezident 56 gün müddətində Qanunu imzalamalıdır.

Əgər səyyad arangillərin "qəbul etdiyi" qanun Prezidenti qane etmirsə, Prezident qanunu öz etirazı ilə birlikdə qaytarır Səyyad Aranla birlikdə 124 deputatın özünə. Deməli, Konstitusiyamızın 81-ci maddəsi asılıdır Cənab Prezidentdən. Prezident Qanunu imzalamasa, Səyyad Aran və 124 deputat qanun qəbul edə bilməz. Onda bunlar nəyə görə külli miqdarda əmək haqqı almalıdır?

Səyyad Aran, cavab ver mənim millətimin 300 manat aylıq alanına!!! Aldığın əməkhaqqı halaldırmı?! Bir halda ki, sənin qanun qəbul etmək səlahiyyətin yoxdur və sən Konstitusiyamızın 81-ci maddəsindəki əmək funksiyanı yerinə yetirə bilmirsən, həmçinin qanun qəbul edə bilmirsənsə, onda niyə 7-8 min manat əməkhaqqı alırsan?! Cavab ver ələ saldığın Xalqa!!!".

"Təzadlar" deputat Səyyad Aranın sosial media hesabına bu və ya digər suallarla bağlı sorğu göndərib, hələ ki cavab yoxdur.

**Bu günlərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında çalışmış, Ordubadda YAP-ın formalaşmasında xüsusi rol oynayan Mehrac Əliyevin haqqında yazıçı-publisist Nazilə Rafiqin yazdığı "Mənalı və şərəfli ömürdən səhifələr" kitabının təqdimatı keçirildi.**

# Kitab təqdimatında müəllifin adı unuduldu: Niyə?

***Bəs əsərin qəhrəmanı Mehrac Əliyev hara baxırmış? Onun həyat və fəaliyyətini qələmə alaraq tarixləşdirən Nazilə xanıma niyə adi bir təşəkkürü çox görüblər?***

Xatırladıram ki, dəyərli qələm sahibi, "Respublika Gəncləri" qəzetinin və "Gənclik news" jurnalının baş redaktoru, "Qızıl qələm" mükafatçısı Nazilə Rafiqin "Mənalı və şərəfli ömürdən səhifələr" kitabı xüsusilə diqqəti cəlb edir. Kitab 1990-cı illərin əvvəlində, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən, siyasi mübarizənin önündə dayanan, Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında çalışmış, Yeni Azərbaycan Partiyasının Ordubad rayonunda formalaşmasında mühüm rol oynamış, Ordubad Raryon İcra hakimiyyətinin başçısı işləmiş, dəyərli ziyalı Mehrac Əliyevə həsr olunub.

Məlumat üçün qeyd edək ki, aprelin 10-da Bakı Mühəndislik Universitetində (BMU) Milli Məclisin Elm və Təhsil Komitəsi ilə birgə xalqımızın Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı tədbir keçirilib. Bu tədbirdə Nazilə Rafiqin Mehrac Əliyevə həsr etdiyi "Mənalı və şərəfli ömürdən səhifələr" adlı kitabının təqdimatı da baş tutub.

BMU-nun rektoru Yaqub Piriyev öz çıxışında müstəqil dövlətçiliyimizin memarı, milli ideologiyanın və ölkənin hərtərəfli inkişaf strategiyasının banisi, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyəti ilə bağlı danışmaqlı yanaşı eləcə də kitab haqqında fikirlərini də bölüşüb: "Mənalı və şərəfli ömürdən səhifələr" kitabının təqdimatı təsadüfi xarakter daşımır. Kitabda haqqında bəhs edilən Mehrac Əliyev dövlətə və ulu öndərə sadiqliyi ilə seçilən dəyərli ziyalımız olub. 1990-cı illərin əvvəllərində Ordubadın ictimai-siyasi həyatında çox önəmli rol oynayıb. Kitab bu cəhətdən çox təqdirəlayiqdir".

Milli Məclisin Elm və təhsil Komitəsinin sədri Anar İsgəndərov, Azərbaycan Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü İmran Əliyev, Milli Məclisin deputatları -Vüqar Rəhimzadə, Elçin Mirzəbəyli, BMU-nun professoru Şikar Qasımov və digərləri öz çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, müstəqil dövlət quruculuğunun formalaşdırılmasında və milli inkişaf strategiyasının müəyyənləşdirilməsində misilsiz xidmətlərindən bəhs etməklə bərabər, Mehrac Əliyevin də dövlətçiliyimizə göstərdiyi xidmətlərindən danışdılar. Qeyd olundu ki, Mehrac Əliyev ictimai-siyasi fəaliyyəti ilə həmişə dövlətçilik prinsiplərinə sadiq olub: "Mehrac Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunun müdafiəçisi kimi 1990-cı illərin əvvəllərində mühüm xidmətlər göstərib. Ona edilən hücumlara, yaralanmasına belə baxmayaraq, öz yolundan dönməyib ki, bunlar da kitabda öz əksini tapıb".




Daha sonra Mehrac Əliyevin bölgənin sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirdiyi işlər, bundan əlavə, uzun illər müəllim kimi, çalışarkən gənc nəslin yetişməsinə verdiyi töhfələr, müxtəlif nazirliklərdəki səmərəli fəaliyyəti diqqətə çatdırılıb.

Sonda əsərin qəhrəmanı Mehrac Əliyev ona göstərilən yüksək diqətə və ehtirama görə tədbir iştirakçılarına dərin minnətdarlığını bildirib. O,Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, onunla görüşlərinin həyat və fəaliyyətində xüsusi yer tutduğunu vurğulayıb. Gənc nəslə dəyərli tövsiyyələrini çatdıran Mehrac Əliyev, onları milli-mənəvi dəyərlərə sadiq qalmağa, vətənə və xalqa xidmət etməyi əsas məqsəd kimi müəyyənləşdirməyə çağırıb.

***

Qeyd edim ki, bu tədbir barədə informasiyalar AzərTAC və çoxsaylı saytlarda yayımlanıb. Amma burada olduqca diqqətçəkən və maraqlı bir məqam üzə çıxır. Tədbirdə iştirak və çıxış edənlər, həmçinin haqqında kitab yazılan, elə oradaca təqdimatı keçirilən "Mənalı və şərəfli ömürdən səhifələr" əsərinin qəhrəmanı Mehrac Əliyev belə, kitabın müəllifi olan yazıçı-publisist Nazilə Rafiqin adını belə çəkməyə lüzum bilməyiblər. Niyə? Mən çoxillik jurnalistlik fəaliyyətimdə ilk dəfədir görürəm ki, kitabın təqdimatı keçirilir, amma müəllifin adı çəkilmir. Bu, hansı məntiqə sığır? Əllərində tutduqları kitabın üstündə məgər müəllifin adını görən olmayıb? Bəs əsərin qəhrəmanı Mehrac Əliyev hara baxırmış? Onun həyat və fəaliyyətini qələmə alaraq tarixləşdirən Nazilə xanıma niyə adi bir təşəkkürü çox görüblər? Halbuki Nazilə Rafiq də Ordubadlıdır, onda Mehrac Əliyevin ən azı bir yerli kimi, uzun illərin əziyyətinin, araşdırmalarının nəticəsi olaraq, araya-ərsəyə gətirdiyi, özünün maddi və mənəvi dəstəyi hesabına çap etdirdiyi bu kitaba görə Nazilə xanıma təşəkkür etməli və bunu tədbir iştirakşılarına da çatdırmalı idi! Belə çıxır ki, kitab yaxşıdır, müəllifi isə pis? Bu məntiqi, daha doğrusu, məntiqsizliyi necə başa düşmək olar? Müəllif pisdirsə, bəs niyə onun kitabının təqdimatı ən yüksək səviyyədə keçirilir və informasiya agentlikləri vasitəsi ilə bütün ölkəyə yayılır? Yox, əgər müəllif qəbul ediləndirsə (kitabın təqdimatı da bunu sübut edir-E.M.), onda niyə təqdimat zamanı heç kim, hətta əsərin qəhrəmanı Mehrac Əliyev belə Nazilə Rafiqin adını çəkib, yaradıcı zəhmətinə görə adi bir təşəkkür belə etmirlər? Maraqlı deyilmi?

İnanıram ki, bu məsələyə, ən azından haqqında o boyda dəyərli kitab yazılan Mehrac Əliyev aydınlıq gətirəcək. Çünki hər bir əziyyətin, ən azından halallıq üçün, quru bir "Sağ ol!"la dəyəri verilməlidir.

**Elçin MƏMMƏDLİ**

# Ali Məhkəmənin dolaşıq və müəmmalı plenum qərarı...

## Yaxud, akademik vicdan-görünməyən təhlükə...

**...Elm cəmiyyətin ən etibarlı dayaqlarından biri hesab olunur. Akademik dərəcə isə yalnız bilik, zəhmət və dürüstlük nəticəsində qazanılmalıdır. Lakin illərdir hamının bildiyi, amma çoxlarının susmağa üstünlük verdiyi bir həqiqət var: bəzi hallarda bu dərəcələr kitabxanalarda deyil, pulla "hazırlanır". Pul müqabilində dissertasiya yazan, elmi işləri "paket xidmət" kimi təqdim edən şəxslər artıq akademik mühitin kölgə sektoruna çevriliblər. Mətbuatda bu barədə çox yazılıb... Bu bazarın da öz qaydaları, öz "mütəxəssisləri" və hətta öz müştəriləri var. Nəticədə isə elmi dərəcə bilik göstəricisi olmaqdan çıxaraq, maddi imkanların göstəricisinə çevrilir. Amma məsələ yalnız bu qədər deyil...**

...Bu yazıda diqqətimizi bu yollarla elmi dərəcə əldə edənlərə deyil, məhz bu sistemi yaradan və yaşadan "oturuşmuş alimlərə" yönəltmək istəyirik. Öz fəaliyyətlərini çox zaman sosial səbəblərlə - ailəni dolandırmaq zərurəti ilə-əsaslandıran bu şəxslər, əslində, elmin nüfuzuna ciddi zərbə vururlar. Daha təhlükəli olan isə bu prosesin uzunmüddətli nəticələridir.

Ən təhlükəli tərəf ondadır ki, bu "xidmətləri" göstərənlər zaman keçdikcə akademik sistemin içində yüksəlir, vəzifə tutur, qərar verən mövqelərə gəlirlər. Dünən başqası üçün dissertasiya yazan bu gün elmi siyasəti müəyyən edən şəxsə çevrilir. Və burada artıq sual yaranır: belə bir sistemdə elm kimə xidmət edir? Keçmiş isə unudulmur. Bir vaxtlar eyni qeyri-rəsmi fəaliyyətlərin iştirakçıları olan şəxslər sonradan fərqli statuslara sahib olurlar: biri institut direktoru, yaxud yüksək statuslu şəxs olur, digəri isə sistem daxilində qalaraq "kölgə təsirini" qoruyur. Dünənin əməkdaşlığı bu günün asılılığına çevrilir. Və bu asılılıq artıq səssiz deyil- o, idarəetməyə diktə edir. Çünki keçmişdəki qeyri-qanuni fəaliyyətləri onların özləri üçün zəif nöqtəyə çevrilir. Nəticədə həmin şəxslər keçmiş "tərəfdaşlarının" təzyiq və şantaj alətinə çevrilir və bu yolla yeni qanunsuz fəaliyyətlərə cəlb olunurlar. Nəticədə institut daxilində qərarlar artıq elmi məntiq və qanun çərçivəsində deyil, kölgədə qurulan münasibətlərin diktəsi ilə formalaşmağa başlayır. İdarəetmə şəffaflığını itirir, institutun nüfuzu isə səssiz, amma sürətlə aşınır. Belə bir mühitdə direktor artıq yalnız rəhbər deyil- o, keçmişin girovuna çevrilmiş fiqurdur. Onun hər addımı görünməz təzyiqlərin kölgəsində atılır.

Bu isə artıq fərdi məsələ deyil. Bu, akademik mühitin daxilində kök salmış, idarəetməni içəridən çürüdən və elmi institutların nüfuzunu sarsıdan sistemli böhrandır. Belə hallar elmin öz mahiyyətini təhlükə altına qoyur və cəmiyyətin akademik institutlara olan etimadını ciddi şəkildə zədələyir.

**Ali Məhkəmənin "Şəxsiyyət hüquqlarının müdafiəsi" haqqında 24 dekabr 2025-ci il tarixli Plenum Qərarını kim yazıb və ya yazdırıb?**

Onu da deyək ki, AMEA-dan redaksiyaya neçə gün əvvəl Akademiyanın institutlarından biri ilə bağlı bu tip vəziyyət haqqında ciddi məlumatlar daxil olub. Hələlik ad çəkmədən demək kifayətdir: susmaq çıxış yolu deyil. Əksinə, susqunluq problemi dərinləşdirir. Bəzən ən çətin, amma ən ləyaqətli qərar-getməkdir... Unutmaq olmaz ki, elm yalnız bilik istehsalı deyil, o həm də mənəvi məsuliyyət, etik prinsip və ictimai etimad deməkdir! Elm vicdandır... Və vicdan itirildiyi yerdə elmin adı qalır, özü isə yox olub gedir...

***

...Deyəsən mövzudan kənara çıxdıq: Yasamal rayon Məhkəməsində şərəf və ləyaqətlə bağlı bir məhkəmə prosesi gedir. Hər iki tərəf, yəni iddiaçı ilə cavabdeh bir institutun iki əməkdaşıdır. Bəlkə də ilk dəfə idi ki, belə bir məhkəmə prosesini izləyirdik: iki iddiaçı və iki cavabdeh! Yəni, ortda qarşılıqlı iddia tələbi var!

***

...Yazıda tərəflərin nə özlərinin, nə də çalışdıqları institutun adını çəkməyəcəyik. Bunu bizdən tərəflərin vəkilləri israrla xahiş etdilər. Niyə? Çünki ortada hələki kimsənin dəqiq baş aça bilmədiyi bir sənəd var- Ali Məhkəmənin "Şəxsiyyət hüquqlarının müdafiəsi" haqqında 24 dekabr 2025-ci il tarixli Plenum qərarı!

Yeri gəlmişkən, neçə hüquqşünas və vəkildən bu Qərarın açmasını xahiş etsək də, hamısı başını tutub dedi ki, əgər o qərarı qəbul



etmiş Plenumun baş mərkəzi-Ali Məhkəmənin sədri hüquqşünas deyilsə, biz daha nə şərh verək?! Yəni, bu Plenum qərarı absurddur, anlaşılmazdır, ziddiyyətlidir!

Gəlirik mətləbə: haqqında bəhs etdiyimiz məlum məhkəmə prosesinin də olmasına səbəb elə həmin o Plenum Qərarıdır. Mahiyyətini qısa təqdim edirik: demək, bir tərəf(indi cavabdehlərdən biri) Prezident Administrasiyasına məktub yazıb ki, bəs, çalışdığım institutda qalmaqallara məhkum edilmişəm, burda qanunsuz əməllər, korrupsiya hüquqpozmaları və s. var, kömək edin, tədbir görün! Və ərizəçi həmin şikayətdə institut direktorunun və bir qadın iş yoldaşının da adını çəkir. PA rəsmiləri həmin şikayəti tədbir görülməsi üçün barəsində şikayət edilən institutut direktorunun üstünə göndərirlər.

Deyə bilərsiniz ki, elə niyə? Haqqında şikayət edilən özü haqqında necə tədbir görə bilər??? Bunu biz də bilmirik, amma bəlkə də düz ediblər ki, bu tip şikayəti bu cür göndəriblər.

Elə aləmi qatan və aranı qarışdıran da direktor olub. Necə: deməli, bu daxili kargüzarlıq qaydalarına uyğun yazılmış və PA-dan tədbir görülməsi üçün geriyə göndərilmiş məktub direktor tərəfindən şikayətdə adı çəkilən digər qadına-işçiyə ötürülür. Həmin qadın da indi şərəf və ləyaqət davası ilə məhkəməyə müraciət edib!

***

Sual olunur: qaşınmayan yerdən qan çıxartmaq direktora lazım idimi?! Bəlkə də lazımdır, amma baxır hansı qrup qanı çıxarmaq lazımdır!

Praktikada və qanunvericilikdə aydın və aşkar yazılıb ki, şərəf və ləyaqət, işgüzar nüfuz o vaxt ləkələnmiş hesab edilə bilər ki, bu məlumat hardasa-kütləvi çıxışda, ictimai söhbətdə, el arasında, lap belə, hansısa media subyektində(qəzet, sayt, TV və ya sosial medi(şəbəkə) yayılmış olsun. Axı burda məktub yazılır PA-ya ki, tədbir görülsün, bu məktub PA-dan direktora göndərilir. İnstitutun kollektivində müzakirə edilmir, mediada yayılmır, divar qəzetində belə işıqlandırılmır, falçılara danışılmır, bəs niyə mübahisə predmeti olur??? Deməli, direktor bilərəkdən, yaxud bilməyərəkdən bu daxili məktubu başqa birinə ötürür, həmin o başqa birisi də faydalı işlə məşğul olmur deyə, vaxt öldürüb maaş alması üçün nəsə etməlidir axı, üz tutur məhkəməyə. Hələ bir özünə vəkil də tutur. Bu vəkili yaxşı tanıyırıq... Heç olmasa, o vəkil bu qadına başa salmır ki, hər gün PA-ya yüzlərlə şikayət məktubu göndərilir, həmin məktublar tədbir görülməsi üçün aidiyyəti üzrə harasa göndərilir... Belə çıxır ki, hər gün məktub əlinə keçən və barəsində orda nəsə yazılanlar məhkəmələrə üz tutmalıdır? Təkrar edirik, məktub çap olunmayıb, yayılmayıb... Deməli, bundan sonra divara üz tutub nəsə danışmaq da olmaz! Bu ifadə və ya söz azadlığının qıfıllanması deylmi?!

***

Bəs niyə belə bir vəziyyət yaranıb, yaxud yaradılıb? İndi çalışaq qısa da olsa izahlayaq.

Azərbaycan Respublikası Ali Məhkəməsinin "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" hələ 14.05.1999-cu il tarixli qərarının 3-cü bəndində məhkəmələrə tövsiyyə olunmuşdu: "Məhkəmələr şərəf və ləyaqətin müdafiəsi barədə işlərə baxarkən üç halı aydınlaşdırmalı və onlara məcmu halında hüquqi qiymət verməlidir: məlumatın vətəndaşların və təşkilatların şərəf və ləyaqətini ləkələməsi; həmin məlumatların doğru olmaması; bu məlumatların yayılması. Məlumat əxlaqi prinsiplər, istehsal təsərrüfat, xidmət və ictimai fəaliyyətlə əlaqədar cəmiyyət, kollektiv və yaxud ayrı-ayrı şəxslər arasında vətəndaş barəsində mənfi rəy yaradırsa, o, şərəf və ləyaqəti ləkələyən məlumat hesab edilir. Yol verdiyi nöqsanlara görə vətəndaşın tənqid edilməsi onun şərəf və ləyaqətinin ləkələnməsi kimi qiymətləndirilə bilməz".

Sonra deyilir: «Məlumat mətbuatda dərc edilməklə, radio və televiziya verilişlərində səsləndirilməklə, kinoxronikal proqramlarda nümayiş etdirilməklə, əsərlərdə təsvir edilməklə, yığıncaq və toplantılarda deyilməklə, məktub, ərizə və şikayətlərdə göstərilməklə, idarə, müəssisə və təşkilatlardan çıxan sənədlərdə qeyd edilməklə və s. üsullarla yayıla bilər. Məlumatın ona aid olan şəxsə təklikdə bildirilməsi həmin məlumatın yayılması sayılmır".

Göründüyü kimi, əgər məlumat hardasa yayılarsa, o, şərəf və ləyaqətin ləkələnməsi sayıla bilər. Kargüzarlıq haqqında mövcud qaydalara uyğun olaraq PA-ya göndərilmiş məktub institutut direktorunun özünə, diqqət edin, məhz tədbir görülməsi üçün, məktub yazanın cəzalandırılması üçün yox, göndərilibsə, burda məlumatın yayılması necə baş vermiş olub???

Azərbaycan Mülki Məcəllənin 23.2-ci maddəsinə görə isə, əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən... məlumatlar media resurslarında yayılmışdırsa, həmin media resurslarında da təkzib edilməlidir və s.

Amma bu dəfə ortaya daha bir absurd və hüquqi anlaşılmaz məsələ çıxır: Ali Məhkəmədə hesab edirlər ki, «Təkbətək edilən təhqir, böhtan mənəvi zərərə səbəb olmaqla mülki məsuliyyət yaradır". Amma baxın, "Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 14 may 1999-cu il tarixli 4 saylı Qərarına əsasən, «...məlumatın ona aid olan şəxsə təklikdə bildirilməsi həmin məlumatın yayılması sayılmır".

Amma bu dəfə Azərbaycan Ali Məhkəməsinin Plenumunda hesab ediblər ki, əksinə, «Təkbətək edilən təhqir, böhtan mənəvi zərərə səbəb olmaqla mülki məsuliyyət yaradır". Plenum bunu əsaslandırıb məhkəmələrə qərar qəbul edərkən tutalqa verilməsi üçün "Şəxsiyyət hüquqlarının müdafiəsi" haqqında 24 dekabr 2025-ci il tarixli belə bir qərar da qəbul etmişdir. Plenumun qərarında əsaslandırma belədir: «...Şəxsin şərəfi və işgüzar nüfuzu məlumat, ifadə və ya hərəkətlərlə ləkələnə bilər(-Kiməsə barmağın hansısa bir füqurunu göstərdinsə, o səni yüz faiz məhkəməyə verə bilər. Oxu:«Təzadlar") . Şəxsin şərəf və ləyaqətini ləkələyən ifadələr və hərəkətlər şəxsin barəsində təhqiramiz sözlərin işlədilməsi və hərəkətlərin edilməsidir. Şəxsin şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyən məlumatlar həm şifahi, həm də yazılı (mətn, şəkil, karikatura, audio, video və s.) ola bilər. Şəxsin şərəfinin və işgüzar nüfuzunun ləkələnməsi 3 halın birlikdə mövcudluğu ilə şərtləndirilir: birincisi, məlumat, təhqiramiz ifadə və ya hərəkət şəxsin şərəfini, ləyaqətini və işgüzar nüfuzunu ləkələməli; ikincisi, belə məlumat, ifadə və ya hərəkət yayılmış olmalı; üçüncüsü, ləkələmə məlumatın yayılması ilə bağlıdırsa, həmin məlumat yalan olmalıdır.

İşgüzar nüfuzu ləkələyən məlumatlar həm də üçüncü şəxslərdə şəxsin işgüzar fəaliyyəti və bu fəaliyyətin keyfiyyəti barədə mənfi rəyin yaradılmasına yönəlmiş olmalıdır. Şərəf və işgüzar nüfuzdan fərqli olaraq, ləyaqətin alçaldılması yayılma olmadan da mümkündür. Yəni, yuxarıda göstərilən məlumat, ifadə və hərəkətlər heç kəsin iştirakı olmadan, təklikdə şəxsin özünə bildirildikdə də ləyaqətin alçaldılması ilə nəticələnə və bu əsasla mülki iddia irəli sürülə bilər".

Vayyyy... Di gəl baş aç görüm «...ləyaqətin alçaldılması yayılma olmadan da mümkündür. Yəni, məlumat, ifadə və hərəkətlər heç kəsin iştirakı olmadan, təklikdə şəxsin özünə bildirildikdə də ləyaqətin alçaldılması ilə nəticələnə... bilər".

Onda Plenumun bu qərarını yazan hüquqşünas(hakim, mütəxəssis, professor...) deyə bilərmi ki, məsələn, tutalım Həsənlə Hüseyin təklikdə mübahisə edirlər... Sonradan Hüseyn məhkəməyə və ya polisə şikayət verir ki, Həsən onu söydü, təhqir etdi, yaxud ləyaqətini alçaldan ifadə işlətdi, «üç barmağın həndəsi fiqurunu" göstərdi və s. İndi məhkəmə və ya təhqiqatçı bu yalan-palan şikayəti necə sənədləşdirməli və araşdırmalıdır? MPM-yə görə ortada maddi sübut və şahid olmalıdır. Nə sübut var, nə də şahid! Bu isə o deməkdir ki, kimin kiminlə xoşu gəlməsə, zəhləsi getsə, əlinə alacaq Ali Məhkəmənin "Şəxsiyyət hüquqlarının müdafiəsi" haqqında 24 dekabr 2025-ci il tarixli Plenum Qərarını və cumacaq məhkəməyə, yaxud polisə! Nəticə nə olacaq, bilirsiz?! Bax yuxarıda haqqında bəhs etdiyimiz məhkəmə işi kimi: vətəndaş bundan sonra heç bir yerə şikayət məktubu yazmayacaq ki, həmin şikayət barəsində şikayət etdiyi adamın əlinə keçər və sonra qalar məhkəmələrdə!

***

Adı çəkilən Plenum qərarını yazan hüquqşünasa (professora, hüquq elmləri doktoruna) və bu qərarı yazdıran Ali Məhkəmənin sədri cənab İnam Kərimova sadə bir sadə sual veririk: «Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 11-ci maddəsində («Maddə 11-2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi") yazılır: «11-2.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qadağandır. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən işçiyə belə məlumat verdiyinə görə birbaşa və ya dolayı yolla qisas almaq məqsədilə tənbeh tətbiq etmə, əmək müqaviləsinə xitam vermə, vəzifədən azad etmə, başqa işə keçirmə, əməkhaqqından qanunsuz tutulmalar aparma, vəzifədə irəli çəkilməyə və ya həvəsləndirilməyə aktiv və ya passiv formada maneçilik törətmə, mənfi cəhətdən xarakterizə etmə və digər bu cür tədbirlər tətbiq edilə bilməz".

İzahımız: vətəndaş çalışdığı idarə (şirkət, komitə, nazirlik, institut) rəhbərliyindən bu və ya digər(korrupsiya hüquqpozmaları da daxil) formada yuxarı orqanlara şikayət yazır, sonra həmin şikayət, bir daha diqqət edin, tədbir görülməsi üçün, şikayət verənin cəzalandırılması üçün yox, idarəyə göndərilir... Və şikayətçi təqib olunur, məhkəməyə verilir(yuxarıdakı məhkəmə prosesindəki kimi), onda Ali Məhkəmənin yuxarıdakı məlum 24 dekabr 2025-ci il tarixli Plenum Qərarı necə olacaq???

Nəhayət, bildiyimiz qədər, Yasamal rayon Məhkəməsindən nümunə çəkdiyimiz məlum mülki iddiaya məruz qalmış(özü həm də qarşılıqlı iddia vermiş) institut əməkdaşı PA-ya yazdığı ərizəsində həm də bu və ya digər formada qanunsuzluqdan, korrupsiya hüquqpozmalarından yazıb.

İndi hüquqşünaslar və vəkillər desin: belə olan halda, «Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 11-ci maddəsi absurd məhkəmə çəkişməsinə tuş gəlmiş həmin institut əməkdaşının arxasında durmalıdırmı??? Duracaqsa, onda PA-dan gələn məktubu digər iddiaçıya ötürən direktor məsuliyyət daşıyacaq(«Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 11-ci maddəsinə görə), yox, durmayacaqsa, onda qanunvericilik aktı ilə Plenumun qərarı arasındakı bu ciddi zidddiyyətə görə kim cavabdehlik daşımalıdır???

Lap sonda: əgər bu ziddiyyət aradan qaldırılıb hüquqi izah və ya aydınlıq gətirilməsə, vətəndaşların harasa şikayət yazanda bir yolu qalmış olacaq: mütləq ərizəyə rəhbərin korrupsiya əməllərindən də yazsınlar ki, «Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 11-ci maddəsi onların arxasında dayansın!!!

Sitatın sonu...

**«Təzadlar"ın
Araşdırma Qrupu**

# Aktrisa Sebahat qadınlara işıq olacaq

*"Mən məndən oğurlanmış həyatımı zorla, əzmimlə, dişimlə-dırnağımla geri aldım və Sebahat Adalar brendi yaratdım»*



*""Öyle bir geçer zaman ki"də Cəmiləni döydüyüm üçün (Döne -red.) məni Tarabyada qəhvəxanadakı insanlar küçəyə çıxıb döydülər..."*

(Əvvəli 5-ci səhifədə)

Dediyim kimi, bu sevdaya uşaqlıqdan yaxalanmışdım və bu sahə üzrə təhsil almağa çox can atırdım. Anam müəllim olmağımı, atam isə udda çalmağımı istəyirdi. Amma heç birinin istədiyi olmadı, çünki mən aktrisa olmağı seçmişdim və bu istək məni heç zaman tərk etmədi. Həm də atamdan mənə genetik olaraq keçən istedadım vardı: həm aktrisalıq, həm mahnı oxumaq. Qardaşlarım da elədir. Musiqişünasdılar, çox istedadlı insanlardı. Ailə olaraq genlərimizlə sənət aləminə bağlıyıq. İlk dəfə "Kurtlar vadisi" serialında bir bölümdə rola çəkildim. Sonra "Ekmek teknesi"ndə də çəkildim və bununla yolum açıldı. Hər kəs məni çox bəyəndi və kiçik rollarla sənətimə başladım. Xarakterik rolları canlandıraraq tələb olunan aktrisa oldum. Bununla da xəyallarımı gerçəkləşdirməyə başladım və bir daha ailə qurmağı düşünmədim. Artıq 4 nəvəm var...

**– Atanızın sənətinə şahidlik edərək aktrisalığı seçdiniz... Bəs sənət aləmində başqa bir idealınız, bəyəndikləriniz oldumu?**

– Bəli, uşaqlıqdan heyran olduğum türk aktrisaları vardı: Aliye Rona, Fatma Girik, Yıldız Kenter...

**– Dediniz ki, ""Kurtlar vadisi"" və "Ekmek teknesi" seriallarına çəkilməniz sənət həyatınızda tramplin oldu və siz daha tez-tez xarakterik obrazları canlandırmaq üçün dəvətlər aldız. Bəzi aktyorlar dramatik rollara çəkilirsə, heç bir zaman komediya janrında olan filmdə çəkilmirlər, yaxud da əksinə. "Öyle bir geçer zaman ki"nin Dönesi, "Leyla ile Mecnun"un Çiçekçisi, "Siccin 4"ün Rahimesi... rollar, xarakterlər müxtəlif. Sizə çətin olmur? Bir xarakterdən digərinə keçmək, mənimsəmək və tamaşaçıya onu qəbul etdirmək...**

– Bəli, mənim rollarım müxtəlif olub. Bildiyiniz kimi, 3 sezon davam edən "Leyla ile Mecnun"da "Çiçekçi" rolunu oynadım. Davam etmə müddətinə görə ən çox bu komediya filmində rol almışam. "İhlamurlar altında" da iki il çəkilmişəm. Televiziya filmlərində də, sinema filmlərində də çox rol oynamışam. Bir çoxuna qonaq aktrisa olaraq dəvət edilmişəm. Kanal 7-nin dini filmlərində çəkilmişəm... Amma qorxu filmlərinə də çox çəkilmişəm. "Siccin 4" filmindəki roluma görə Rusiyada – Moskvada mükafat aldım. Türkiyədə də "HAKEDENLER" mükafatı təqdim edildi. Altsheymerlərlə bağlı bir layihə vardı. Buna görə də mükafat aldım. Mən Türkiyənin Pakistanda qurulan Humanitar Yardım Fondunun təşəbbüs səfiriyəm. İki dəfə Bakıda keçirilən konfranslarda fəxri qonaq və Sülh səfiri kimi iştirak etmişəm. Misirdə "İnsan və sənət" adlı tədbirə dəvət edildim və mükafat aldım... Mən heç bir zaman eyni tip rol oynamadım. Düşünürəm ki, aktyor bütün rolları, bütün xarakterləri canlandırmağı bacarmalıdır. Əgər sən gerçək aktyorsansa, bunu edə bilməlisən. Lakin aktyorun da öz seçimi olur: bəzən yalnız komediya janrında çəkilən filmlərdə özünü daha yaxşı təsdiq etdiyini düşünür və bir istiqamət üzrə yol alır, yaxud da dramatik... Müəllimlərimdən biri deyərdi ki, küçədə gördüyün hər bir insana diqqətlə bax, çünki bir gün sən o insanı səhnədə canlandırmalı olarsan – "Onu öyrən, heybənə qoy".

**-Məşhurların, sənət adamlarının gündəlik yaşam tərzi digərlərindən fərqli olur. Sizdə də fərqlidirmi?**

-Mən heç bir zaman roluma qapanıb qalmaram. O, mənim libasımdır – çıxardaram, asaram. Sonra mənəm – sıradan bir insan. Həyatın içində yaşadım, belə deyim, heç vaxt akvariumda yaşamadım.

**-Yəni, "star xəstəliyi"nə yaxalanmadınız. Çünki bəzən görürsən ki, sənət cameəsindən olan bir adamdır, amma öz "mən"ini, istedadını qeyri-adekvat dəyərləndirir, təkəbbürlü olur, insanlarla arasında məsafə qoyur...**

-Heç zaman özümü heç bir kəsdən ayırmadım, dəyişmədim və ömrümün sonuna qədər də belə qalacam. Çünki aktyorluq mənim peşə fəaliyyətimdir və mən yalnız üzərimə düşən işimi yerinə yetirirəm. Heç bir kəsdən fərqim yoxdur. Sadəcə, ekranlarda, göz önündə olan biriyəm. Məni filmlərimdəki rollarıma görə dünyanın bir çox ölkəsində tanıya bilərlər. Həkim bazarda gəzəndə xalatını geyib gəzmir ki?! Mən də elə. Rol libasımı asılqandan asan kimi, sadəcə, Sebahat oluram: ağlayaram da, gülərəm də, səkidə oturub çörəkarası yemək də yeyərəm. Kağız toplayan uşaqla da dostlaşaram... Evimin bazarlığını da özüm edirəm. Hər bazar günü bazara gedirəm və təzə göyərti, meyvə-tərəvəz alıram. Bəzən eşidirəm ki, təəccüblə danışırlar ki, Sebahat Adalar bazara gəlib. Niyə gəlməyim? Mən bundan, əksinə, zövq alıram. Bilirsiniz, mən insan olaraq özümü heç bir kəsdən üstün görmürəm və görməyi də düşünmürəm.

**-Sizi Sebahat Adalara bənzədib, amma buna inanmayanlar olubmu?**

-Bəli, çox olub. Hətta bir dəfə bazarda ana ilə qızı öz aralarında söhbət edirdilər. Qızı anasına dedi ki, "Bax, bax, Sebahat Adalardı". Anasının ona çəmkirərək "onun bazarda nə işi var" dediyini eşitdim. Alış-veriş əsnasında səsimi eşidən qızı bir də anasına dedi ki, səsi də bənzəyir. Anası yenə də ona inanmadı. O zaman qızı mənə yaxınlaşaraq özümdən soruşdu. Ona yanılmadığını söylədim. Lakin anası hiddətləndi və məni yalan danışmaqda, başqasının adı ilə öyünməkdə suçladı... Bazardan çıxarkən qarşıdan aktyor dostum Barış Atay gəldi. O, məni görüncə hal-əhval tutdu. Dedi ki, bacı, "Leyla ile Mecnun" çox əladı, davamlı izləyirəm. Mən də təşəkkür etdim. Sən demə, bazardakı həmin ana və qızı ardımca gəlirmiş. Ana yaxınlaşıb məndən üzr istədi. Mən isə ona məndən deyil, inanmadığın qızından üzr istə dedim...

**-Bəzi mənfi rollarınızla bağlı tənqidlərə, qınağa tuş gəldinizmi?**

-Nəinki qınandım, hətta bir dəfə döyüldüm də. "Öyle bir geçer zaman ki"də Cəmiləni döydüyüm üçün (Döne -red.) məni Tarabyada qəhvəxanadakı insanlar küçəyə çıxıb döydülər...

**– Bəs, Sebahat Adalar hansısa filmini seyr edən zaman kaş ki, burada daha başqa cür oynasaydım – deyə təəssüflən-dimi, həmçinin rollarınızdan daha çox bəyəndiyiniz, belə deyək, şah əsərinizi oynadınızmı, yoxsa düşünürsüz ki, hələ o rol gələcəkdə olacaq?**

-Yox, oynadığım heç bir roluma görə peşman deyiləm, izləyəndə belə kaş ki, başqa cür oynasaydım, demədim. Ən çox sevdiyim obraz isə "Leyla ile Mecnun"dakı "Çiçekçi" oldu. Çünki orda çox gizli, sətiraltı yumor, zarafat, atmacalar var. Məsələn, səhnələrdən birində deyir ki, "Bibican, oğlunuzu beş dəqiqəlik apara bilərəm?" Mən də deyirəm ki, "niyə, mənim oğlum ingilis açarıdı?.." Bütün rollarımı sevirəm, amma bu serialı unuda bilmirəm.

**– Təbii ki, film çəkilişləri o qədər də asan başa gəlmir. Tamaşaçı hazır məhsulu görür, lakin kadrarxası məqamlardan xəbərsizdir. Bir zamanlar mətbuatdan oxumuşdum ki, "Xəlifə Ömərin Doğuluşu" filmində çəkiliş zamanı qorxunc bir hadisə baş verib. Bir it sizə sarı qaçmış və siz çəkiliş aparılan evin pilləkənlərindən yıxılaraq xəsarət almısınız... Hətta qolunuzun sındığı deyilirdi. Sebahat xanım, siz həm də bir çox qorxu filmlərinə çəkilmisiniz. Belə filmlərə necə çəkilirsiniz, çəkilişlər zaman hansısa yaddaşdan silinməyəcək hadisə, fors-major hal yaşandımı?**

-Elədir, qorxu filmlərinin çəkilişi zamanı pis xatirələrim, anlarım var. Məsələn, "Siccin 4" filminin çəkilişi aparılan villada yuxarı mərtəbədə hamam səhnəsi vardı. Hamam səhnəsini çəkdikdən sonra əlimi yumaq üçün ora getmək istədim. Yuxarı qat həm də çox qaranlıq idi. Çox ürpəndim, qorxudan təkbaşıma ora qalxa bilmədim. O məkanı heç unuda bilmirəm. Onu da deyim ki, Türkiyənin ilk qorxu serialında mən də rol oynamışam. 10 seriyalıq filmdir. Mən onun 6 seriyasında oynadım. Filmdə bir ərazidə gecəyarısı – saat 3-4 arası görüş səhnəsi çəkilməliydi. Çəkiliş heyəti ərazidən çox uzaq məsafədən çəkiliş aparırdı. Mən tək dayanmışdım və ara tərəfdən çaqqalların səsləri gəlirdi... Çox qorxdum, o dərəcədə ki, kameraların üstünə sari qaçdım. Ona görə adamları kolluğun arxasına düzdülər və mən özümü güvəndə hiss edib rolumu oynaya bildim.

-Yəni, qorxu filmlərinin çəkilişi aktyorlar üçün heç də asan başa gəlmir və bu filmlərə çəkilən zaman insanlar özləri də qorxu hissi yaşayırlar... (Gülürük. Sebahat xanım bildirir ki, çəkilişin aparıldığı məkanlarla bağlı belə hallar yaşanır).

**-Çəkiliş meydançalarında bəzən hər hansı bir səhnəni təkrar-təkrar lentə alırlar, yəni rejissorlar ürəyi istəyən nəticəni əldə etməyə çalışırlar. Yəqin ki, bu da aktyorları yorur...**

-Mən Boluda bir filmə çəkilirdim. Bəlkə də yerdə bir metr qar vardı. Gecə yağan qarı rejissor daha fərqli, daha gözəl gördü və təkrar-təkrar lentə aldırdı. Onun fikrincə, hər yağan qar əvvəlkindən daha gözəldi... On dəfəyədək qarın içində gedib-gəldim. Yerimək belə çətin idi – qar dizə çıxırdı. Çəkilişlər bitdikdən sonra bir ay xəstəxanada yatdım. Donma təhlükəsi baş vermişdi. Yenə Ərzincanda film çəkilişindəydim. Havanın temperaturu mənfi 21 dərəcə idi. Ayaqlarım qarda qalmaqdan bütün üzüm yara oldu. Mən adanalıyam və soyuq havaya öyrəncəli deyiləm. Amma bütün bunlara rəğmən, sənətimi çox sevirəm. Film çəkilişləri mənim üçün nəfəs kimidir. Çəkiliş olmayanda, sanki yaşamıram, ölürəm: damarlarımdakı qan kimi – həyat bağım! Bəzən deyirəm ki, mən zövq aldığım bir işi yerinə yetirirəm, hələ üsəlik buna görə mənə pul da verirlər (Gülürük). Çalışmağı sevirəm, libaslarımı, hətta çantalarımı özüm tikirəm, bəzək əşyalarımı özüm hazırlayıram. Film çəkilişlərində lazım olduğu zaman libasımı belə tikə bilərəm. Bunlar da sevdiyim işlərdir. Xalq Sənət Mərkəzində əl sənətləri ilə bağlı 4 il müəllimlik etmişəm. Gözəl şəkillər çəkirəm, kiçik hekayələr yazıram...

**-Siz küllərindən doğulmuş bir qadınsız. Həyat sizi çox imtahana çəkib. Bugünkü həyatınıza da gec atıldınız, çətinlikləriniz də çoxdur, amma çox dinamiksiniz, səyahətləri sevirsiniz, ətrafınıza müsbət enerji saçırsınız və sizi dinlədikcə əzminizə, həyata olan sevginizə valeh olmamaq olmur.**

-Elədir, mən məndən oğurlanmış həyatımı zorla, əzmimlə, dişimlə-dırnağımla geri aldım və Sebahat Adalar brendi yaratdım. Bütün bunlara nail olarkən, əsla başqasının haqqını itirmədim, tapdamadım, ədalətdən yan keçmədim, heç bir sənət dostumun rolunu əlindən almağa çalışmadım. Tam əksinə, çəkildiyim filmlərə onları da dəvət etdim.

**– Söz düşmüşkən, sənət aləmində bir-birinin yoluna daş qoyanlar, mane olanlar çox olur. Söylədiyiniz kimi, əksinə, dəstək verənlərdənsiniz. Bəs sizə qarşı belə əngəllər oldumu?**

-Bəli, belə halları çox yaşamışam, hətta kimlər olduğu da mənə məlumdur: bəzən razılaşma olub, amma son anda çəkilişə başqası çağırılıb. Həm də çox gözəl seriallarda... Ad çəkmirəm. Sektorla bağlı dedi-qodu etməyi də sevmirəm. Kimsənin eyibini də üzünə vurmaram. Onu da bildirim ki, filmlərdəki rollarımı özüm səsləndirmişəm. Uzun illər dublyaj sahəsində də fəaliyyətim oldu. Amma indi tamamilə dayandırmışam.

**–Heç bu sahədə pedaqoji fəaliyyətiniz oldumu, yəni sənətinizin sirlərini öyrətdiyiniz davamçılar yetişdirmə fürsətiniz yarandımı?**

-Zəlzələdən əvvəl Hataya getdim və bir sənət mərkəzində təhsil verdim. İstanbulda özəl tələbələrim oldu, amma hansısa təhsil müəssisəsində pedaqoji fəaliyyətim olmayıb. Yalnız çoxlu sayda Workshop-larda (ustad dərsləri-red.) iştirak etmişəm. Bakıda da Yalçın Çobanın – Çoban Yıldızı Film Akademiyası tərəfindən Workshop-a dəvət edilmişdim. Siz də iştirak etmişdiniz.

# Adaların ümidsiz həyat hekayəsi

## *“Heç zaman sənətimlə bağlı kimsəyə boyun əymədim, kimsədən bir şey xahiş etmədim”*




(Əvvəli 8-ci səhifədə)

**-Bəli, mən sizin tələbələrə verdiyiniz tövsiyələri eşitdikdə düşündüm ki, bu, heç bir universitetdə tədris edilməyəcək, səmimi şəkildə dilə gətiriləcək məsləhətlərdir. Bunu yalnız təcrübəli, film və teatr səhnəsində tələbləri bilən, səhnənin görünməyən tərəfini görən böyük sənətkarlar deyə bilər. Tələbələrin də xeyli suallarını cavablandırdınız. Diqqətimi çəkən suallardan biri isə mənfi rolları necə oynamağınızla bağlı idi. Daha doğrusu, sizin cavabınız.**

-Mən mənfi rollarımı onlara nifrət edərək oynayıram. Canlandırdığım obraza çox nifrət edirəm və bu, mənə rolumu ifa etməkdə kömək edir. Hər aktyorun bir strategiyası var – mənimki də budur.

**-Siz həm də teatr aktrisasınız. Tamaşalarda oynamağa nə zaman başladınız?**

-İlk rolum məktəb illərində olub. Professional olaraq İstanbulda “Karanfil” teatrının səhnəsində yer almışam. Ümumilikdə, cəmi iki teatrda çalışmışam. “Dünya malı dünyada qalır” komediya tamaşasında, “Ailə sandığı”nda baş rollarda oynadım. “Fələstində bir gün” tamaşasında ana rolu vardı, onu canlandırmışam. 7 nəfəlik bir tamaşaydı. Ailə üzvləri və əsgərlər. Bu tamaşanı 9 il oynadıq. Çox seyr edildi. Fələstində yaşanan acı bir həyat dramı idi. Müxtəlif şəhərlərə qastrollara gedərək tamaşanı nümayiş etdirdik. Televiziya tamaşalarına isə çəkilmədim. Hər zaman teatrda göstərilən canlı tamaşalarda rollar ifa etdim. İki il əvvəl təbiət turuna çıxdım. 3 ay ərzində bütün bölgələri gəzib məktəblərdə tamaşalar göstərdik. Yenə də bu barədə təklif gəldi, amma getmək istəmirəm. Çünki çox yorucudu. Ümumilikdə, 10-dək tamaşada rol almışam. Elə tamaşam olub ki, illərlə oynamışıq.

**-Bəzən aktyorlar hansısa filmə, seriala çəkilirlər sonra bildirirlər ki, ödəniş olunmayıb, yaxud zəhmətlərinin haqqı düzgün qiymətləndirilməyib. Filmdə rolunu yarımçıq qoyub gedən də olur, illər sonra bunu dilə gətirən də... Yəni belə hallara rast gəlinir. Sizdə necədir, maddi anlamda sizə qarşı haqsızlıq oldumu?**

-Bəli, oldu. Bir neçə işlər oldu ki, pulumu ala bilmədim. Məsələn, ikisindən tamamilə ödəniş almadım, amma birindən bir neçə seriyanın pulu verilmədi. Hələ də alaram ümidi ilə gözləyirəm...

**-Haqsızlığa uğramış sənətçi olaraq nə əcəb məhkəməyə müraciət etmədiniz?**

-Çünki bu işləri görərkən həqiqi ünvanlar olmur: ünvanı dəyişdirirlər, əmlakı yoxdur. Məhkəmələrdə boş yerə sürünürsən, vaxt itirirsən. Çox insanlar çalışır film çəkilişlərində – ssenarist, rejissorlar, prodüser... Ödəməni kim edir, necə olur, bilmirik. Biz yalnız pulun ödənişini edəcək adamın, yəni bizi çəkilişə çağıranın – ünsiyyətdə olduğumuz şəxsi bilirik.

**– Sebahat xanım, sizdə necədir, çəkiliş üçün ödənişini alan aktyorlara sonradan yerli, yaxud xarici ölkələrdəki sinemalarda yayımlandığı üçün faiz ödənilirmi? Belə deyək, film satılırsa, filmdə əməyi keçənlər də yada salınırmı?**

– Çox vacib nöqtəyə gəldiniz. Bu isə ondan ibarətdir ki, ölkəmizdə qanunda müəllif haqları qeyd olunub, amma tətbiqdə yoxdur. İstehsalçı bunu ödəmir. Məsələn, o film hər yayımlananda ödənilməlidir. Filmlər var ki, illərdir yayımlanır, amma heç bir aktyor buna görə pul almır. Sən film çəkilişində istehsalçı şirkətdən razılaşdığın pulu alırsan, bununla da məsələ bitdi. Əgər istehsalçı filmi televiziya kanalına, yaxud Netflix-ə satarsa, istehsalçı şirkət pulunu alacaq, amma bundan aktyorlara pay düşməz. Xarici ölkələrdən isə alınır, amma hər ölkə də vermir. Amerika, Yunanıstan, Yaxın Şərq və ərəb ölkələri əsla ödəmir. Məsələn, mən vəkilimlə danışdım. O ölkələr deyir ki, siz də bizim filmləri yayımlayırsınız, bizə müəllif haqqı verirsizmi, biz də verək? Amma İspaniya, İtaliya, təzəlikcə Macarıstan da verir. Mənin kolleqalarım var ki, xarici ölkələrdən müəllif haqqı ala biliblər. Mənim çəkildiyim “Leyla ile Mecnun” serialı dünyada ən çox izlənilən komediya filmləri sırasında beşinci olub. Çinə də satılıb. Amma ödəniş olmadı.

**-Söylədiyiniz kimi, seriallar var ki, illərlə davam edir. Serial nümayiş olunan dövrdə bir də görürsən ki, filmin aktyorlarından biri başqa bir filmə çəkilir. Məsələn, hazırda “Uzak şehir”in baş qəhrəmanlarından olan Ozan Akbaba yay tətilində “Postaçı” filminə çəkilmişdi. Bu, necə baş verir?**

-Serial sezon finalına gedərkən çəkiliş mayda bitir. Yayda fasilə olur. Sentyabrda aktyor öz çəkildiyi filmin çəkilişlərinə başlayır. Lakin 3 ay boyunca aktyor başqa filmə çəkilməkdə sərbəstdir. Məndə də olub. “Leyla ile Mecnun”un çəkilişi gedən zaman başqa filmə çəkilmişəm.

**-Bizdə sənət adamlarına müxtəlif adlar verilir. Bu adları alan şəxslər dövlətdən hər ay pul alırlar. Dövlət seçilən sənətkarları mükafatlandırır, hətta bəziləri evlə təmin olunur və ilaxır. Məsələn, xalq artistləri 300 manat, əməkdar artistlər 200 manat, Prezident təqaüdçüləri 1700 manat aylıq təqaüdlə təmin edilirlər. Sizdə bu sahədə vəziyyət necədir?**

-Türkiyədə “Dövlət sənətçisi” adı var. Mədəniyyət Nazirliyi tərəfindən verilən addır. Məsələn, Yıldız Kenter, Türkan Şoray, Macide Tanır, Hülya Koçyiğit və bəzi sənətçilər o adı alıblar. Həmin adla təltif olunanların dövlətdən maaş aldığını eşitmişəm, amma bunun davamlı verilib-verilmədiyini bilmirəm.

**-Sonuncu çəkildiyiniz film “Muamma-Cenin-i-Cin” oldu. Bu qorxu filmini Türkiyədə də tamaşaçılar kino mərkəzlərində seyr edirlər, yoxsa artıq televiziyada yayımlanıb?**

– Hazırda Türkiyə tamaşaçıları da bu filmi sinemalarda izləyir. Filmin çəkilişləri bitir, amma sinemalarda da sıraya qoymaq xeyli vaxt alır. Yəni növbəni gözləməlisən. Onu da açıqlayım ki, bu filmi çəkən mənim fanatım imiş. Bütün filmlərimi izləyib. Məhz bu filmdə mənim çəkilməyimi istəyib. Bu filmdəki rolum indiyədək oynadığım rollarımdan ən kiçiyidir – çox da aktiv biri deyil. Amma onlar mütləq mənim çəkilməyimi arzuladılar və mən də qəbul etdim. 10 gün İstanbulun Şilə rayonunda çəkiliş aparıldı. Prodüser Emre Coşkun idi. Çox da yaxşı oldu. Bu filmdən sonra Emre bəy daha iki film çəkdi, hələ nümayiş olunmayıb. Hər iki filmdə də mən oynayacaqdım. Mənə zəng etdi, lakin şəhər kənarındaydım. İzmirdən qayıdarkən qatar qəzası baş verdi. Həyatını itirən də oldu. Mən bu səbəbdən gecikdim. Onlar başqa bir aktrisa ilə razılaşası oldular. Amma Qala gecəsinə məni də dəvət etdilər.

**– “Muamma-Cenin-i-Cin”də rolunuzun çox kiçik olduğunu söylədiniz, amma rolun böyü-yü-kiçiyi olmaz deyirlər, əsas tamaşaçını inandırmaqdır. Sevdirmək, yaxud nifrət etdirmək...**

-Düzdür, mən oynadığım digər qorxu filmlərində də kiçik rollarım var. “Üç Harfliler: Adak”, “Siccin 4”dəki qədər tanıdan qorxu filmi deyildi.

**– Əslində, sizin kiçik dediyiniz rolunuz da çox uğurlu idi. Siz o aktrisalardansınız ki, mimikanız, baxışlarınız belə danışır...**

-Təşəkkür edirəm. Mimiklərimdə çox bacarıqlıyam. Bir rejissorum belə demişdi: “danışmağına ehtiyac yoxdur, gözlərinlə oynayırsan”... 10-dan çox qorxu filminə çəkilmişəm. Şəxsən özüm qorxu filmini seyr etmirəm. İlk dəfə idi ki, Qala gecəsində filmimi izlədim. Yəni Qalası keçirilirsə, gedib baxıram, yoxsa televizor qarşısında əyləşib əsla baxmıram. Mən rola çəkilərkən qorxu filmi kimi çəkilmirəm ki, sadəcə rolumu oynayıram. Sonradan effekt, səs, işıq və digər əlavələr edilir. Ondan sonra qorxulu filmə çevrilir.

**– Heç övladlarınızla da əyləşib çəkildiyiniz qorxu filmini seyr etmirsiniz?**

-Onlar da qorxu filmləri seyr etmirlər. Övladlarım da filmlərə çəkilirlər. Böyük oğlum Alper Yağmurçu aktyordu. Kiçik oğlum rejissordu. Mən zatən filmdəki rolumun sözlərini evin içərisində danışarkən, rolumu oynayarkən görürlər, izləyirlər... (Gülür).

**– Belə çıxır ki, evdə bir film səhnəsi var: siz və övladlarınız. Rejissor, aktyor... hamısı var. Hamınız sənət adamı...**

– Bəli, istedad bizim genlərimizdən gəlmədir. Heç zaman sənətimlə bağlı kimsəyə boyun əymədim, kimsədən bir şey xahiş etmədim, rollara da dəvət edilərkən “bu rolun öhdəsindən yalnız Sebahat Adalar gələr” deyə çağırıldım. Az oynadım bəlkə, amma yaxşı oynadım. Sənətə gec gəldim, amma yenə də xoşbəxtəm: təbiəti sevirəm, müharibəyə “yox” deyirəm, dünyada sülh istəyirəm. Mən sərhədlərin belə əleyhinəyəm, hər yer insanın evi olmalıdır. Bu dünya yaşamaq üçün hamımıza yetər. Nəyin davasını aparırıq, nəyi paylaşa bilmirik? Ortalama insan ömrü 60-70 yaşdı. Biz xərçəngi yaratdıq, təbiətə zərər vurduq, bir çox heyvanların nəslini kəsdik... Halbuki nə heyvanlar, nə də təbiət bizi öldürmür. Təbiət bizə həyat verir. Bu məsələdə də çox dərdliyəm. Düşünürəm ki, insanların dünyaya vəfa borcu var.

**– Sizə Bakıdan sənətinizlə bağlı hər hansı bir iş təklifi gələrsə, “yox” deyərsiniz?**

– Xeyr, əsla demərəm. Bakını çox sevirəm.

**-Sizin heç bir toxunuş olmayan, təbii cizgiləri olan simanıza baxıram və düşünürəm ki, bu sualı mütləq verməliyəm. Bu gün nəinki sənət adamları, iş qadınları, evdar xanımlar belə müxtəlif plastik əməliyyatlar etdirirlər, yaxud kosmetoloji prosedurlardan yararlanırlar. Son dövrlər bu, daha geniş vüsət alıb. Məlumdur ki, qadınlar yaşlanmağı heç sevmirlər. Sənət adamı olaraq siz bu barədə nə düşünürsünüz?**

-Bu yaşa qədər heç bir plastik əməliyyat etdirməmişəm və etdirməyi də planlaşdırmıram. Çünki güzgüyə baxanda, bütün yaşlarımı görmək istəyirəm.

**-Sebahat xanım, sevdiyiniz işlə məşğul olmaq üçün çox böyük mücadilə vermisiz, ağır həyat şərtləri ilə üzləşmisiz. Bilirəm ki, açıqlamaq istəmədiyiniz qayğılarınız da var. Dünyada bir çox qadın öz həyatı ilə bağlı müstəqil qərar verə bilmir. Elə bütün dünya miqyasında olduğu kimi, bizim cəmiyyətimizdə də zamanın keçdiyini, geriyə dönüşün olmadığını düşünən, təhsili, peşəsi olmayan yüzlərlə ümidsiz qadın var. Fürsət düşmüşkən, burdan onlara hansı mesajı vermək istərdiniz?**

-Mənim qadınlara tövsiyəm: əsla təslim olmasınlar! Cənnət xəyallarının gerçəkləşdiyi yerdir. Ona görə də hər kəs xəyalının ardınca qaçsın. Mən indi 71 yaşındayam, amma özümü 30-40 yaşında hiss edirəm. Hələ də dinamikəm, çalışmağı sevirəm, həyatı sevirəm. Yəni, həyat insan övladına bir hədiyyədir. Bunun qiymətini bilməyimiz lazımdır. Öncə ana, sonra qadınam, amma mən insanam. Bunu dərk etməliyik – qadın, ya kişi fərq etməz, öncə insanıq. Kölə deyiləm, uşaqlarımı da böyüdəndə onları öncə insan olaraq tərbiyə verdim. Mən bu günümə görə Mustafa Kamal Atatürkə borcluyam. Əgər Atatürk olmasaydı, biz qadınlar dəyərsiz olaraq yaşayacaqdıq. Dünyada bir çox ölkədən öncə -1934-cü ildə bizə seçmə-seçilmə (qadınlara səs vermək və seçilmək hüququnun verilməsi – Atatürk islahatlarından biri – red.) haqqı verdi. Ona bu gün minnətdarıq. Ata-anama da minnətdaram. Yaxşı ki, məni bu dünyaya gətiriblər, bu gözəl dünyada mən də yaşayıram. Can Azərbaycanı çox sevirəm. Burdakı dostlarımı çox sevirəm. Özümü evimdəki kimi hiss edirəm. Hamıya sevgilərimi göndərirəm.

**– Mən də öz həyat hekayənizi bizimlə bölüşdüyünüz üçün oxucularımız və redaksiyamızın kollektivi adından sizə dərin təşəkkür edirəm.**

**Yasəmən Məmmədli**

# Azərbaycan kinosunun itirilmiş qizil dövrü - bəs indi?

*...Adil İsgəndərov və Yusif Vəliyev kimi monumental simaların təmsil olunduğu parlaq pleyadanın əziz xatirəsinə rekviyem*

**Bu gün siyasətdən uzaqlaşıb, kino sənətindən yazmaq istəyirəm. Doğrudur, bu mənim sahəm deyil, ancaq xarakterimdən qaynaqlanan öyrənmək, hər sahəyə maraq göstərmək istəyi, üstəlik, kinonun milli-mənəvi dəyərlərin formalaşması, hər fərdin xarakterində mühüm izlər qoyması bu sahəyə hər zaman marağımı çəkib. Mən kinoya təkcə əylənmək, vaxt keçirmək üçün baxmıram, bəyəndiyim filmi təkrar-təkrar izləyir, analiz edir, nəticələr çıxarıram. Təbii ki, rejissor işi, hər hansı bir epizodda şifrələnmiş mesajlar, aktyorların professionallığı, hətta mimikası və səs tembri diqqətimi çəkən əsas məqamlardır.**

Hollivud aktyorları içərisində bəyəndiyim çoxu var. Ancaq dünyanın bir nömrəli kinostudiyasının iki klassik nümayəndəsi mənim nəzərimdə kino sənətinin zirvəsi hesab olunur: Kirk Duqlas və Viktor Mature.

K.Duqlas kino sənətinin və şöhrətin zirvəsinə qulların sərkərdəsi Spartak roluyla yüksəldi. Yəqin, bu filmə əksəriyyətiniz baxmısınız, Duqlas baxışları, mimikası, hətta üz və bədən əzələlərinin hərəkətiylə Spartakı oynamır, onu yaşayır. Onun sayəsində biz tamaşaçılar da 2097 il öncə baş vermiş hadisələri yaşayırıq: sanki bir təpənin üstündə durub, Spartakla Krassın canlı döyüşünə tamaşa edirik.

Viktor Matureyə gəlincə... bir-birindən fərqli çox obrazlar yaradıb. Ancaq onun “Misirli” adlı filmdə oynadığı Horemheb (gələcək firon) rolu kino sənətinin zirvəsidir. Mature öz möhtəşəm roluyla Horemheb şəxsiyyətinə ayrı bir rəng qatır. Maturenin fiziki quruluşu, sərt, lakin dərin və mənalı baxışları antik dövrün sərkərdə və qəhrəman obrazları üçün sanki biçilmiş bir libas idi.

Mature Horemhebi sadəcə bir əsgər kimi deyil, pragmatik və uzaqgörən strateq kimi canlandırır. Firon Akhenatonun (Exnaton) xəyalpərəst, mistik dünyasına qarşı Maturenin Horemhebi real dünyanı, ordunu və dövlətin ayaqda qalması üçün lazım olan “dəmir iradə”ni təmsil edir. Aktyorun oyunu bizə göstərir ki, Horemheb, bəlkə də, qəddar görünə bilər, amma onun hərəkətlərinin arasında emosionallığını müəyyən ahəng və ritmlə, məqsədyönlü şəkildə ifadə etməsinin arxasında Misiri xaosdan qurtarmaq istəyi dayanır. Məhz Maturenin sayəsində tamaşaçı gələcək firon Horemhebi anlayır, başa düşür ki, o, ən az II Ramzes qədər böyük firon və şəxsiyyət olub. Mature Horemhebi oynamır, onu yaşayır, seyrçini də özüylə bərabər 3400 il öncəyə götürür.

V.Maturenin Samson obrazı da əvəzolunmazdır (“Samson və Dalila”, 1949). Əslində, o, bu rolu ilə dünya miqyasında məşhur oldu, Horemhebi oynayanda artıq Hollivudun 1 nömrəsiydi. Əgər Horemheb roluyla Mature tamaşaçıya sərtliyin və hökmün təmsilçisini sevdirə bilmişdisə, Samson obrazıyla fiziki gücünü, Dalilaya olan sevgi və inancını itirən adamın yaşadığı mənəvi əzabı, insanın daxili dramını inandırıcı şəkildə çatdırmışdı. Ümumiyyətlə, personajın daxili aləmini seyirçiyə çatdırmaq nə qədər rejissor işidirsə, ondan daha da çox aktyorun bacarığından asılıdır. Rejissor istiqamət verir, aktyor isə rolu yaşayır. Elə filmlər var ki, mənfi tipajı aktyor o qədər canlı oynayır ki, seyirçi o tipaja sayğı göstərir. Aktyorun “rolu yaşaması” ilə “rolu oynaması” arasındakı fərq tamaşaçının o personajla qurduğu emosional bağın dərəcəsini müəyyən edir.

Bir az əvvəl vurğuladığım “mənfi tipaja sayğı” məsələsi kino sənətinin ən maraqlı tərəflərindən biridir. Bunu bir neçə məqamla analiz edə bilərik:

- “İnsan faktoru və motivasiya” - usta aktyor mənfi personajı sadəcə “pislik edən biri” kimi deyil, öz doğruları, məntiqli məqsədləri olan bir insan kimi təqdim edir. Seyirçi onun niyə belə etdiyini anlayanda, hərəkətlərinə bəraət verməsə də, onun iradəsinə və zəkasına hörmət etməyə başlayır;

- “Viktor Mature və Horemheb nümunəsi” - elə götürək Horemhebi. Bir çox ssenaridə o, inqilabçı firona (Akhenatona) qarşı çıxan “mürtəce” və ya “taxt-tac hərisi” kimi göstərilə bilər. Amma Maturenin oyunu bizə bir sərkərdənin ağır məsuliyyətini, ölkənin dağılmaq qorxusunu və nizamı bərpa etmək üçün çəkdiyi iztirabı göstərir. Və tamaşaçı onun sərtliyini “şər” kimi deyil, “zərurət” kimi qəbul edir;

- “Seyirçinin mənfi personaja heyranlığı” - bəzən aktyorun enerjisi o qədər güclü olur ki, mənfi personaj hətta filmin müsbət qəhrəmanını kölgədə qoyur. Bunun əsas 2 səbəbi var: a) dürüstlük: mənfi personajlar adətən maskasız olur, nə istədiyi açıq-aşkardır; b) xarizma: aktyorun səs tembri, baxışları, xarakterə qatdığı dərin məna və s.

Usta aktyor rolu yaşamalıdır. Aktyor rolu yaşayanda biz kadrda V.Mature və ya başqa bir simanı görmürük; biz real fironu, generalı, əsl sərkərdəni görürük. Bu kinonun insana ötürdüyü ən böyük sehrdir.

***

İndi gələk Azərbaycan kinosuna. İlk olaraq, yaddaşlardan silinməyən, bir çox rolu ilə tamaşaçının rəğbətini qazanmış, kinomuzun “Səfərəlisi” və “Şirməmmədi”, “Qılınc Qurbanı”, “Topal Teymuru” və cinayətkar, qatil “Qurd Cəbrayılı” olan adamdan - yaşayarkən klassikləşən, korifey zirvəsinə yüksələn, kinomuzun monumental siması Yusif Vəliyevdən başlayaq...

Yusif Vəliyev!

Kimdir bu adam? O, bir dühamı? Məncə, bu söz belə onu tam olaraq ifadə etmir...

Yusif Vəliyev “Arxadan vurulan zərbə” filmində qatı cinayətkar Qurd Cəbrayılı oynayır... əslində, oynamır, birbaşa Qurd Cəbrayılı yaşayır!

Filmin finalında 16 saniyəlik bir eizod var. Həmin epizod əsl oskarlıqdır! Yusif Vəliyevin o epizoddakı baxışları, üz əzələlərini gərməsi...

Aman Tanrım, bir aktyor oynadığı rolu başqa nə cür yaşaya bilər ki!?

Bəli, Yusif Vəliyev Qurd Cəbrayılı oynamır, yaşayır!

Əsl aktyor rolu oynamaz, yaşayar!

Yusif Vəliyev bütün qəhrəmanlarını yaşayırdı...

Bəhs etdiyim 16 saniyəlik epizodun çəkilməsinin özünəməxsus tarixçəsi var. Filmin rejissoru Arif Babayev çəkilişdən öncə Yusif Vəliyevə deyir:

- Usta, sənin fenomenal səsin var. Ancaq bu epizodda səsindəki əsrarəngiz çalarlara ehtiyac yoxdur. Həbs olunarkən sənə maşının qapısını açan müstəntiq Kərimbəyliyə sadəcə baxacaqsan. Ona Yusif Vəliyev kimi yox, Qurd Cəbrayıl kimi baxacaqsan!

Bu epizod cəmi bir dubla çəkilib. Çəkiliş bitən kimi Arif Babayev Yusif Vəliyevə doğru hərəkətlənir, onu qucaqlayır və var səsi ilə bağırır:

- Alındı! Alındı! Qurd Cəbrayıl, alındı! Həm də çox mükəmməl alındı!

Yusif Vəliyev obraz yaratmırdı, kadrda həqiqəti yaşayırdı. Onun mimikası, hər jesti və baxışı ssenaridəki boşluqları dolduracaq qədər güclü idi. Bu mənada onu Hollivudun nəhəng ismi Kirk Duqlasla müqayisə edə bilərik. Məsələn, Duqlasın çəkildiyi “Vikinqlər” filmi həm rejissor işi, həm də ssenarinin zəifliyi ilə diqqət çəkir, amma filmdəki bu boşluğu Kirkin peşəkarlığı, mimika və jestləri, dərin baxışları tamamlayır; seyirçi Duqlasa görə bu filmə baxmaqdan vaz keçmir. Yusif Vəliyev də ən az Kirk Duqlas qədər bir fenomendir!

Bəhs etdiyim həmin 16 saniyəlik epizod - Qurd Cəbrayılın tutulma anı - dünya kinosu səviyyəsində bir dərslikdir!

Yusif Vəliyevin Qurd Cəbrayılı niyə unudulmazdır? İlk olaraq, “səssizliyin gücü” özünü göstərir. Rejissor Arif Babayevin o dahi toxunuşu (səsdən imtina etməsi) Yusif Vəliyevin daxili enerjisini üzə çıxarır. Aktyorun baxışlarında sadəcə bir cinayətkarın məğlubiyyəti deyil, həm də bütöv bir taleyin qüruru var idi...

Qurd Cəbrayıl dövrün qanunlarına görə qatı cinayətkar olsa da, Sovet quruluşuna düşmən biriydi, sistemə nifrət edirdi. Bu nifrəti Yusifin ecazkar səsiylə vermək mümkün deyildi, senzuradan keçməzdi. Bax, burada Arif Babayevin rejissor kimi dahiyanə müdaxiləsi özünü göstərir: “Yusif, sənin fenomenal səsin burada yetərli deyil. Sən bu epizodda Sovet müstəntiqinə əsl Qurd Cəbrayıl kimi baxacaqsan!”

Mesaj alınmışdı. Yusif Vəliyev həmin 16 saniyəni Qurd Cəbrayıl kimi yaşadı. Onun baxışlarında nifrət və iradə ortaya çıxdı. Qurdun o baxışlarında sistemə, mühitə, bəlkə də taleyinə olan dərin bir nifrət sezilir. O, təslim olan “oğru” deyil, sarsılmayan bir xarakter kimi baxırdı Kərimbəyliyə. Heç bir süni jest etmədən, sadəcə, üz əzələlərinin gərilməsi ilə seyrçiyə personajın bütün daxili fırtınasını ötürmək hər aktyorun işi deyil. Bu, yaşamaq sənətidir. Yusif Vəliyev məhz belə bir sənət yaşayıb.

Yusif Vəliyev 16 saniyəlik o epizodla seyirçiyə göstərdi ki, əsl sənət istənilən ideologiyadan üstündür...

Qurd Cəbrayıl sovet kinosunun qanunlarına görə “mənfi tip” olmalı idi, tamaşaçı ondan nifrət etməli idi. Lakin Yusif Vəliyevin dühası bu çərçivəni qırdı. O, Qurd personajını o qədər vüqarlı və bütöv təqdim etdi ki, seyrçi onun cinayətlərinə deyil, şəxsiyyətinin bütövlüyünə sayğı duydu. Bu, usta bir aktyor üçün əldə etdiyi ən böyük qələbədir - ideoloji obrazı insani zirvəyə qaldırmaq!



Onun “Nəsimi”dəki “Topal Teymur”u da eyni möhtəşəmliyə sahibdir. Səsi və baxışları ilə o, bir imperatorun həm qəddarlığını, həm də heyranlığını (Nəsimiyə qarşı) eyni anda yaşada bilmişdi. Yusif Vəliyev oynadığı rollara özündən əlavələr də edirdi. Xarizması və dühasına sayğıyla yanaşan rejissorlar onun bu hərəkətinə göz yumurdular. “Nəsimi” filmində də o qədər əlavələr etmişdi ki, rejissor Həsən Seyidbəyli zarafatla demişdi:

- Yusif, biz Nəsimiyə film çəkmək istəyirdik, sənin sayəndə Topal Teymura film çəkdik.

Azərbaycan kinosu ötən əsrin 50-80-ci illərində öz qızıl dövrünü yaşayıb. Yusif Vəliyev kimi bircə baxışı ilə bütöv bir hekayəni danışa bilən bir nəsil vardı kino sənətimizdə. O metaforik pleyada artıq yoxdur, bitdi... son moqikan Fəxrəddin Manafov da artıq finişə yaxınlaşıb...

1950-1980-ci illər ekolu zirvəydi, təəssüf ki, qapalı sovet sistemi o zirvəni fəth edənlərin imkanlarını qısıtlayırdı...

Yusif Vəliyev, Həsən Turabov, Həsən Məmmədov, Səməndər Rzayev, Hamlet Xanızadə, Fuad Poladov, Şahmar Ələkbərov... say, say, bitməz. Elə bir kollektiv bir də olacaqmı? Bu pleyadanın bir üstün cəhəti də o idi ki, əksəriyyəti rollarını özləri səsləndirirdi, hamısının ecazkar səs tonu vardı.

O pleyada sadəcə aktyorlar qrupu deyil, Azərbaycan kino mədəniyyətinin “Qızıl dövrü” idi. Sadaladığım isimlər və adını çəkmədiyim onlarca digər korifeylər hər biri təkbaşına bir institut, bir məktəb idi. Yuxarıda toxunduğum “sehrli səs” məsələsi isə bu ustadların ən böyük silahı idi. Gəlin o zirvəni fərqli edən bir neçə məqamı - reallıqları analiz edək:

- Səs aktyorun imzası idi. O dövrün aktyorları obrazı təkcə bədənləri ilə deyil, həm də səsləri ilə yaradırdılar. Səməndər Rzayevin o titanik, həm də məxməri səsi... Həsən Turabovun hər kəlməsində hiss olunan aristokratik intonasiyası... Hamlet Xanızadənin daxili sarsıntıları ötürən titrək, amma hədəfli səs tonu... Bu səslər dublyaj deyil, aktyorun daxili orqanizminin bir parçası idi. Onlar danışanda ekranın o tərəfindəki seyrçi sadəcə eşitmir, həm də o səsin rənginə bürünürdü;

- “Son moqikan” - Fəxrəddin Manafov! Bəli, Fəxrəddin Manafov (artıq 71 yaşı var) həmin böyük ekolun bizə qalan ən parlaq nümunəsidir. Onun “Təhminə”dəki Zauru, “Park”dakı Maratı və ya “Ölsəm, bağışla”dakı obrazları məhz o qədim məktəbin - “susaraq danışmaq” və “gözlərlə yaşamaq” sənətinin davamıdır. O, sanki o nəhənglərlə müasir dövr arasında bir körpüdür;

- Sovet sisteminin “qıfılı” - o sistem bu dühaların dünyanı fəth etməsinə mane oldu. Yusif Vəliyev və ya Hamlet Xanızadə Parisdə, Londonda və ya Hollivudda yaşasaydılar, bu gün dünya kino dərsliklərində ilk sıralarda olardılar. Onlar dar qəfəsdə (ittifaq miqyasında) okean qədər böyük bir enerji ilə yaşayıb yaratdılar.

O kollektiv bir daha olacaqmı? Təəssüf ki, tarixdə belə pleyadalar nadir hallarda bir araya gəlir. Bunun əsas səbəbi məktəb və ustad-şagird münasibətidir: o dövr aktyorları teatrdan, səhnənin tozundan, böyük rejissorların (Adil İsgəndərov, Tofiq Kazımov, Rasim Ocaqov məktəbi) süzgəcindən keçirdilər.

Bəzən düşünürəm ki, bu günün texnoloji imkanları (sosial media, internet) həmin dövrdə olsaydı, Yusif Vəliyev kimi bir düha dünya kinosunda hansı rezonansı yaradardı? Təsəvvür edin: o, Şekspir qəhrəmanını və ya antik bir hökmdar rolunu ifa edir; Hollivud filmlərində Yusif Vəliyevin unikal səsi ilə Kral Lir və ya Otello ifasını dinləyirik...

Usta aktyor üçün unikal səs tembri uğurun yarısı deməkdir. Məsələn, Kərbəlayı İsmayıl rolunun uğurunun 50 faizi əfsanəvi Adil İsgəndərova aiddirsə, 50 faizi də rolu səsləndirən Yusif Vəliyevə aiddir. Məsələn:

- Bismillah! Cinə, şeytana oxşayırsan, Qəmlo!

- Bəy, bizim də namusumuz, qeyrətimiz var!

Bu sözləri Yusif Vəliyevin intonasiyası ilə dinləmək seyrçiyə tamam başqa zövq verir.

Və yaxud Əli Zeynalovu götürək. Nodar Şaşıqoğlu başarılı oyunuyla Mehdini - Mixaylonu bizə nə qədər sevdiribsə, Əli Zeynalov da adamı riqqətə gətirən səsiylə ən az o qədər sevdirib.

“Uzaq sahillərdə” və “Axırıncı aşırım” kimi filmlər Azərbaycan kinosunda səs və obrazın vəhdəti üçün ən mükəmməl örnəklərdir…

“Kərbəlayı İsmayıl” - bir bədəndə iki nəhəngin imzası... Əfsanə Adil İsgəndərov kadra heybəti, oturuşu, sərkərdə duruşu ilə Kərbəlayı İsmayıl ruhu gətirmişdisə, Yusif Vəliyev o ruha səs tembri və intonasiyası ilə qan vermişdi: “Cinə, şeytana oxşayırsan, Qəmlo!” Bu cümlədə ahəngdar səs tonunu yalnız Yusif Vəliyev belə vura bilərdi.

Burada bir maraqlı məqam da var: Adil İsgəndərov özü də dahi rejissor və aktyor idi, lakin o, səsinin personajın anarkist qətiyyətinə uyğun gəlməyəcəyini bildiyi üçün dublyajı məhz Yusif Vəliyevə həvalə etdi. Bu, sənətə olan fədakar ehtiramın nümunəsidir.

“Axırıncı aşırım” filmi çəkilib qurtardıqdan sonra rejissor Kamil Rüstəmbəyov Kərbəlayı İsmayıl rolunu oynayan Adil İsgəndərova telefon açıb, dublyaja dəvət edir. Adil müəllim deyir ki, mənim səs tembrim Kərbəlayı İsmayıl obrazını tam açmağa müsait deyil. Rejissor soruşur ki, bəs siz kimi məsləhət görərdiniz? Korifey sənətkar düşünmədən “təbii ki, Yusif Vəliyev” deyir.

O vaxt Adil müəllimlə Yusif Vəliyevin arası sərin imiş, danışmırmışlar. Ancaq Adil müəllim əsl alicənablıq nümunəsi göstərir: “Rolu mən oynadım, düşünürəm ki, pis də oynamadım. Lakin dublyajda Kərbəlayını mən səsləndirsəm, rolun əhəmiyyəti itər. Yusifi çağırın! Kərbəlayını ondan başqası səsləndirməməlidi!”

Adil müəllim professionaldı, bilirdi ki, Kərbəlayı İsmayıl əzəmətini onun roluyla Yusif Vəliyevin səsinin vəhdəti ortaya çıxara bilər, başqa bir səs həmin effekti verməz. Doğrudur, onun özünün də möhtəşəm səsi vardı, ancaq başqa xarakterli obrazlar üçün. Məsələn, “Uzaq sahillərdə” filmində partizan qız Anjelikaya dediyi ifadə: “Aaa, tanıdım… gülsatan qız!”

Gələk “Mixaylo” obrazında Nodar Şaşıqoğlu-Əli Zeynalov “duet”inə... Nodar Şaşıqoğlunun dinamikası və xarizması ilə Əli Zeynalovun o kübar, təmkinli, məxməri, romantik və intellektual səsi birləşəndə ortaya əfsanəvi bir Mixaylo çıxır...

***

Mixaylo təkcə döyüşçü deyil, həm də rəssam və kəşfiyyatçı idi. Əli Zeynalovun səsi obrazdakı o zadəganlığı və zəkanı tamamlayır.

Seyrçi bəzən unudur ki, kadrda gördüyü adam başqa, danışan başqadır - bu, dublyaj sənətinin pik nöqtəsidir.

Unikal səs aktyorun gizli silahıdır. O dövrün aktyorları sözü tələffüz etmirdilər, onu dadırdılar. Hər sait, hər samit bir musiqi aləti kimi səslənirdi. İndiki dövrdə isə səs çox vaxt “informasiya ötürücüsü” rolunu oynayır, orada nə dərinlik, nə də həmin köhnə sənətkarların “səs titrəyişi” (vibrasiyası) qalmayıb. Əli Zeynalovsuz “Mixaylo”, Yusif Vəliyevsiz “Kərbəlayı İsmayıl” təsəvvür etmək mümkünmü? Əlbəttə ki, yox!

O dövrün sənətkarlarının bir üstün cəhəti də o idi ki, sənəti şəxsi ambisiyadan üstün tuturdular. Adil İsgəndərov böyük “məktəb” idi. O bilirdi ki, Kərbəlayı İsmayıl obrazı sadəcə bir rol deyil, xalqın yaddaşındakı qəhrəman tipajıdır. Öz səsinin daha yumşaq və ya fərqli tembrdə olduğunu hiss etdiyi üçün, obrazın “dağ vüqarını” və “sərt kəndli inadını” məhz Yusif Vəliyevin xırıltılı, sarsıdıcı səsi ilə tamamlamağa qərar verdi. Bu, professionallığın zirvəsidir.

Adil müəllimin səsi başqa xarakterlər üçün mükəmməl idi. O, intellektual, bəzən kaprizli professorun səsini elə ustalıqla çıxarırdı ki, seyrçi heyran qalırdı. Onun səsi daha çox aristokratik və intellektual obrazlara yaraşırdı. Amma Kərbəlayı İsmayılın “torpaq və barıt qoxulu” səsi üçün Yusif Vəliyev əvəzedilməzdi. Məhz sənətə olan sevgi və sədaqətdən dolayı, Adil İsgəndərov umu-küsünü bir qırağa qoyub, əsl aristokrat, zadəgan tavrıyla demişdi: Yusifi çağırın!

…Və biz seyrçilər iki möhtəşəm dahini eyni rolda - bir bədəndə iki nəhəngin imzasını görürük!

Təsəvvür edin, iki nəhəng - biri kadrda (Adil İsgəndərov), biri mikrofonda (Yusif Vəliyev) - bir obrazı iki yerə bölüb sonra yenidən birləşdirirlər. Nəticədə, elə bir monolit (bütöv) personaj yaranır ki, bu gün də biz o filmə baxanda “bu səs başqasınındır” deyə düşünmürük... Səs kadrın içində əriyir və biz Kərbəlayı İsmayıl əzəmətini görürük: BİZİM DƏ NAMUSUMUZ, QEYRƏTİMİZ VAR, BƏY!

Həmin o ekolun sənətkarları üçün “bu rolu mən oynamalıyam” davasından çox, “bu rol necə mükəmməl alınar” davası var idi. Adil İsgəndərovun bu addımı həm də Yusif Vəliyevin dühasına verilən ən böyük qiymət idi. Küsülü olsalar da, sənət onları barışdırırdı və ya sənət xatirinə küsülülüyü kənara qoyurdular. İndiki dövrdə hansı “ulduz” aktyor öz rolunun daha yaxşı alınması üçün səhnəni və ya səsini öz “rəqibinə” belə rahatlıqla həvalə edər? Əfsuslar olsun ki, o dövrün yaradıcılıq etikası da həmin ustadlarla birlikdə tarixə qovuşub...

**Fərəməz NOVRUZOĞLU**

# O qızı tapın! - ana fəryad qoparır!

*O qızı tapın! Yox, bu məşhur Azərbaycan filminin adı deyil, Ağdaşda iki aydan çoxdur itkin düşmüş qızın tapılması üçün anasının polis orqanlarına bir çağırışıdır...*

**Redaksiyamızın elektron poçtuna Ağdaş rayon Dəhnəxəlil kənd sakini Kərimova Zenfira Sabir qızı tərəfindən, Azərbaycanın baş prokuroru cənab Kamran Əliyevə, Azərbaycanın daxili işlər naziri cənab Vilayət Eyvazova və surəti “Təzadlar” qəzeti redaksiyasına ünvanlanmış müraciət daxil olub. Zenfira Kərimova öz müraciətində iki uşaq anası, qızı Sevgülü Yusifovanın neçə aydır itkin düşməsində qızının qaynatası Qədim Yusifovdan və qızının baldızı Nuranə Yusifovadan şübhələndiyini bildirir. Müraciətdən məlum olur ki, Zenfira Kərimova Yevlaxda vətəndaş qəbulu keçirərkən daxili işlər naziri cənab Vilayət Eyvazovun da qəbulunda olub. O, qızının axtarılması və tapılması, bu işdə əli olan günahkarların cəzalandırılması üçün Ağdaş rayon Polis Şöbəsinə göstəriş verilməsini nazirin diqqətinə çatdırıb. Eləcə də rayon polisinin bu istiqamətdə axtarış- əməliyyat fəaliyyətinin zəif olduğunu bildirib. Radaksiyamıza daxil olmuş müraciəti kiçik ixtisarla təqdim edirik:**



**-Azərbaycan Respublikasının baş prokuroru Cənab Kamran Əliyevə!**

**Azərbaycan Respublikasının daxili İşlər naziri Cənab Vilayət Eyvazova!**

**Surəti: “Təzadlar” qəzeti və saytının rəhbərliyinə!**

**Ağdaş rayon Dəhnəxəlil kənd sakini Kərimova Zenfira Sabir qızı tərəfindən**

**Müraciət**

**Hörmətli cənablar!**

Sizi məlum edirəm ki, iki uşaq anası olan qızım Yusifova Sevgülü Adil qızı ər evinə getdiyi gündən, qaynatası Yusifov Qədim Fərman oğlu və baldızı Yusifova Nuranə Qədim qızı tərəfindən mütamadi olaraq şiddət görüb. Dəfələrlə adı çəkilənlərlə aparılan söhbətlər heç bir nəticə verməyib. Həyat yoldaşı Ruslan Yusifov da atası və bacısı tərəfindən göstərilən bu təzyiqlərə, şiddətlərə göz yumub.

Məlumat üçün deyim ki, hər gün gördüyü bu şiddətlərə dözməyərək, qızım 17 may 2024-cü il tarixində sirkə içərək intihara cəhd etmişdir. Qızım Sevgülünü ağır vəziyyətdə Ağdaş Rayon Mərkəzi Xəstəxanasına çatdırılmış və həyatı xilas edilmişdir. Bu barədə xəstəxananın qeydiyyat şöbəsində məlumatlar vardır. Sevgülünün diaqnozu həmin vaxt “qida zəhərlənməsi” kimi qeyd edilmiş və iki gün stasionar müalicə almışdır. Halbuki, məlumata əsasən, həmin vaxt o, Qədim və Nuranənin təzyiqlərindən bezərək sirkə qəbul etmişdir. Bu səbəbdən, məsul tibb işçilərindən sirkə qəbulunun hansı əsasla “qida zəhərlənməsi” kimi qeydə alındığına aydınlıq gətirilməsi indi olduqca zəruridir.

Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, qızımı gözümçıxdıya salan, hər gün təzyiq göstərən, onu söyüb təhqir edərək alçaldan baldızı Nuranə Yusifova Ağdaş Rayon Mərkəzi Xəstəxanasının Təcili Yardım (“Acil”) şöbəsində tibb bacısı işləyir. Bu isə təbii ki, qoyulan diaqnozun obyektivliyinə dair ciddi şübhələr yaradır. Bundan əlavə, onun qardaşı, yəni kürəkənimiz Ruslan Ağdaş rayonu Tofiqi kənd tibb məntəqəsində işləyir. Nuranənin sözlərinə görə, qardaşı Ruslanın psixoloji vəziyyəti normal deyil. Psixoloji vəziyyəti normal olmayan bir insan tibb məntəqəsində necə işləyə bilər? Səhiyyə Nazirliyi buna mütləq aydınlıq gətirməlidir.

**Hörmətli cənablar!**

10 yanvar 2026-cı il tarixində qızımı bir az sakitləşdirmək üçün evimizə gətirmiş və söz-söhbət olmasın deyə həmin gün axşam saatlarında yenidən yaşadığı ünvana qaytarmışıq. 6 fevral 2026- cı il tarixində isə, qaynatası Yusifov Qədim Fərman oğlu və baldızı Yusifova Nuranə Qədim qızı bizə məlumat verərək bildirdilər ki, Sevgülü evdən çıxıb və bir daha geri qayıtmayıb. Biz bu xəbərdən çox sarsıldıq. Elə səhəri günü, 7 fevral 2026-cı il tarixində bu barədə Ağdaş Rayon Polis Şöbəsinə müraciət etmişik.

*“Sevgülü 10 yanvar tarixində bizə gələrkən, ana,“bir sirr var, yaxın zamanda sizə deyəcəyəm” ifadəsini işlətmişdir”*

Bir məqamı da qeyd etmək istəyirəm ki, Sevgülü 10 yanvar tarixində bizə gələrkən, ana,“bir sirr var, yaxın zamanda sizə deyəcəyəm” ifadəsini işlətmişdir. Neçə dəfə soruşsaq da o, əlavə heç nə demədi. Aradan xeyli vaxt keçməsinə baxmayaraq, polis orqanları bu işə ciddi yanaşmadı. Bu günədək qızımdan bir xəbər yoxdur. Ona görə də 1 mart və 17 mart 2026-cı il tarixlərində TV aparıcı Xoşqədəm Hidayətqızının təqdim etdiyi “Səni axtarıram” televiziya verilişində də iştirak etmişəm. Maraqlıdır ki, həmin verilişdə Nuranə Yusifova tərəfindən Sevgülünün evdən çıxıb getməsini əks etdirən bir neçə ədəd istintaq üçün əhəmiyyət kəsb edən kamera görüntüləri təqdim edilmişdir. Sual olunur, polis əməliyyatçıları və müstəntiqbizə hər dəfə bildirirdilər ki, Sevgülü evdən çıxarkən heç bir müşahidə kamerasına düşməyib, iz yoxdur... Bəs necə olur ki, TV- yə bu görüntülər göndərilir? Bu isə sual doğurur: istintaq üçün əhəmiyyətli bu görüntülər Nuranə tərəfindən hansı yolla əldə edilmişdir? Ona bunu kim ötürmüşdür? Niyə onu polis əməkdaşları əldə edə bilməyiblər? Burada Nuranə Yusifovanın və atası Qədim Yusifovun təmizə çıxarılması təəssüratı yaranmırmı? Bu görüntülərlə Nuranə sübut etmək istəyir ki, biz Sevgülüyə heç nə eləməmişik və sağ-salamat evdən çıxıb gedib. Elə evdən qaçıb getməyə məcbur etməyin özü cinayət əməlinin törədilməsinə şübhələri yaratmırmı? Burada polisin araşdırmalı olduğu məqamlar çoxdur.

**Hörmətli Cənablar!**

6 mart 2026-cı il tarixində isə, Azərbaycan Respublikasının daxili işlər naziri cənab Vilayət Eyvazovun Yevlax şəhərində vətəndaşlar üçün keçirdiyi qəbulda olmuşam. Nazir bu məsələyə ciddi baxılması üçün rayon polis şöbəsinin rəhbərliyinə xüsusi göstəriş verdi. Amma Ağdaş polisi bu məsələdə hələlik təsirli heç bir iş görməyib. Biz hər yerdə demişik ki, qızımın yoxa çıxmasında qaynatası Qədim Yusifovun və baldızı Nuranə Yusifovanın əli var. Amma bizi eşidən yoxdur. Niyə bu iki şübhəli şəxs bu günədək dindirilib ifadələri alınmayıb? Nuranə isə dəfələrlə bildirib ki, “mənim əlim-qolum o qədər uzundur ki, mənimlə heç kim bacara bilməz və heç kim mənə heç nə deyə bilməz.” Görəsən, adi bir tibb bacısının əli nə qədər uzun ola bilər ki, bu boyda cinayəti ört-basdır elətdirsin? Bundan əlavə, Sevgülü itkin düşdükdən sonra qaynatası onun qeydiyyatda olduğu ünvandan çıxarılması üçün də aidiyyəti üzrə müraciət etmişdir. Niyə, nə olub? Maraqlı deyilmi? Əgər qaynatası Qədimin və baldızı Nuranənin Sevgülünün öləsi və ya öldürülməsi barədə dəqiq məlimatları yoxdursa, niyə onun pasport qeydiyyatından çıxarılmasını belə tələm- tələsik istəyirlər? Bəlkə mənim qızım sağdır, tapılıb evinə qayıdacaq? Deməli, onlar qızımın sağ olmamasına əmindirlər. Bu suallara hüquq-mühafizə orqanları cavab tapmalıdır.

**Hörmətli Cənablar!**

Qızım Sevgülünün itkin düşməsi ilə bağlı Yusifov Qədim Fərman oğlu və Yusifova Nuranə Qədim qızının əlaqəsinin olmasını ehtimal edirik və onun harada olması barədə məlumatın məhz onlarda ola biləcəyini düşünürük. Əgər qızım sağdırsa, o, ötən iki ay ərzində mütləq bizə, qohum- tanışlara mütləq verərdi.



Daha bir maraqlı məqam odur ki, 23 fevral 2026-cı il tarixində saat 10:50-də Y. Ruslan və Y.Sevgülü boşanma ilə bağlı MSA/MT061-2026-00057 saylı iş üzrə Mediasiya prosesinə dəvət olunmuşdur (ünvan: Ağdaş şəhəri, H. Əliyev Mərkəzi). Lakin bilə-bilə ki, Süvgülü itkin düşüb, amma bununla belə ona bildiriş göndərilməsi hüquqi baxımdan anlaşılmazlıq deyilmi?

6 fevral 2026-cı il tarixindən 29 mart tarixinə qədər müvafiq qurumlar tərəfindən bizim ailə ilə heç bir əlaqə saxlanılmamışdır. Sevgülünün valideynləri olaraq dəfələrlə müvafiq qurumlara müraciət etsək də, yalnız “axtarış gedir” cavabı verilmiş, lakin heç bir nəticə əldə olunmamışdır. 30 mart 2026-cı il tarixində Rayon Polis Şöbəsinin rəsmiləri tərəfindən biz valideynlər Şöbəyə dəvət olunmuşuq. Orada bizə dedilər ki, Sevgülünün sağ qalma ehtimalı 1 faiz, həyatını itirmə ehtimalı isə 99 faiz olaraq qiymətləndirilir. Buna baxmayaraq, onun nə diri, nə də ölü halda tapılması ilə bağlı konkret nəticə yoxdur. Bəs bu işdə şübhəli üç şəxs olan qaynatası və həyat yoldaşı, baldızı necə dindirilib, onlar istintaqa necə cəlb edilib? Bizim ehtimal və şübhələrimiz necə araşdırılıb, kamera görüntüləri hansı qaydada yoxlanılıb? Axtarış necə aparılıb və hansı istiqaməti əhatə edib???

Hörmətli “Təzadlar” qəzetinin və saytının baş redaktoru, xahiş edirəm, övlad itkisi yaşayan mən dərdli ananın bu fəryadını işıqlandırıb hörmətli Prezidentimiz cənab İlham Əliyevin, baş prokuror cənab Kamran Əliyevin, daxili işlər naziri cənab Vilayət Eyvazovun diqqətinə çatdırasınız. Bu iş onların diqqətində olmasa, həqiqət üzə çıxmayacaq və qızımın harada olduğu bilinməyəcək.

**Hörmətli cənablar!**

İnanıram ki, mən dərdli ananın göz yaşları ilə yazdığı bu müraciətə həssaslıqla yanaşacaqsınız, bunun da nəticəsində qızımın yeri müəyyənləşəcək və günahkarlar layiqli cəzasını alacaqlar.

**Əvvəlcədən hər birinizə ayrılıqda təşəkkür edirəm!**

**Hörmətlə: Kərimova Zenfira Sabir qızı”**

Redaksiyadan: Əks tərəfin mövqeyini öyrənmək üçün Ağdaş Rayon polis Şöbəsinin əməliyyatçısı Nicat Hüseynovla əlaqə saxladıq. Müraciətimizə çox həsaslıqla yanaşan N.Hüseynov sorğumuza cavab olaraq belə dedi: “**Valideynlərin narahatçılığını başa düşürəm. Ağır dərddir. Biz də əlimizdən gələni edirik ki, qız tapılsın və sağ-salamat valideynlərinə təhvil verilsin. İnanıram ki, qız salamat tapılacaq. Bundan ötrü qaynatasını, qızın həyat yoldaşını və baldızını istintaqa cəlb edərək sorğusual eləmişik və eləməkdə də davam edirik, ifadələri alınıb, hər bir şübhələr yoxlanılır. Hələki bir ipucu yoxdur. Amma bu işin üzərində çox ciddi işləyirik və nəticə verəcəyinə də inanıram”.**

N.Hüseynovdan soruşdum ki, deyilənə görə, baldızı Nuranə Yusifovada Süvgülünün evdən getdiyini əks etdirən görüntülər var, amma bu görüntülər polisdə yoxdur. Bu, belədirmi?

Cavab olaraq N.Hüseynov dedi: “Yalandır! O görüntü bizdə də var. Amma çox uzaqdan görünən müşahidə kamerası çəkib deyə, görüntü nöqtə boydadır. Bu səbəbdən də demək olar ki, heç nə görünmür. Mən indi sizə istintaq sirrini aça bilmərəm. Onu deyə bilərəm ki, qızın tapılması üçün rəhbərlik səviyyəsində belə ciddi işlər görülür. Ona görə də qızın tapılacağına inanıram”.

**Hazırladı və təqdim etdi: Elçin MƏMMƏDLİ**

# Jurnalist Baş Prokuror Kamran Əliyevə müraciət etdi

**Avropa Mətbuat Federasiyasının üzvü, «Təzadlar” qəzetinin baş redaktoru, peşə fəaliyyətinə görə «Tərəqqi” və «Milli Mətbuat-150 il”, «Hərbi sahədə əməkdaşlığa görə” medalları ilə təltif olunmuş jurnalist Asif Mərzili Azərbaycanın Baş Prokuroru cənab Kamran Əliyevə aşağıdakı məzmunda müraciət etmişdir. Təqdim edirik:**



«Çox hörmətli Kamran müəllim!

Cənab Prezident İlham Əliyevin ölkəmizdə hüquqi sahədə islahatların həyata keçirilməsi istiqamətində tapşırıq və göstərişləri həm də möhkəm siyasi iradənin məhsuludur. Çünki Ulu öndər Heydər Əliyevin aforizmə çevrilmiş məşhur kəlamında deyilir: “Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə”.

Bu zərb-məsəlin fəlsəfəsi ondan ibarətdir ki, vətəndaşların, iş adamlarının... hüquq və mənafeləri Konstitusiyamızda təsbit olunduğu-qorunduğu kimi, bu hüquqların praktiki olaraq müdafiəsi isə prokurorluq orqanlarından çox asılıdır. Çünki müstəntiq cinayət işinin istintaqında səhvə yol verə bilər, amma prokuror bu səhvi nəzarət qaydasında aradan qaldıran və hüququ pozulanın arxasında duran yeganə orqandır. Lakin Ulu Öndərin təbirincə desək, əgər günahkar cəzasız qalırsa, bu artıq yolverilməzdir.

Sizə və rəhbəri olduğunuz Baş Prokurorluğun fəaliyyətinə dərin hörmətimi ifadə etməklə, həm də təəssüflə diqqətinizə çatdırmağa məcburam ki, Bakının Sabunçu rayon Prokurorluğunda sadə bir iş adamının hüquq və mənafelərinin müdafiəsinə aid 33 məhkəmə qərarı 4 ildir Sabunçu rayon Prokurorluğunda icra edilmir, yaxud icrasına prokuror Murad Dadaşov imkan vermir.

Peşə təcrübəmdən çıxış edərək (Yəqin səmimiyyətimə inanarsınız) diqqətinizə çatdırıram ki, bəzən şikayətçi redaksiyaya üz tutanda çalışırıq ki, onun problemi burada həllini tapsın ki, o, Prezident Administrasiyasına, digər dövlət orqanlarına, yaxud sosial şəbəkələrə... üz tutmasın. Axı, əgər bu haqq o şikayətçinindirsə, Haqq olan Allah da bilir ki, geci-tezi o hüquq təmin edilməlidir. Niyə şikayətçi dünyəvi siyasətlə məşğul olan Prezidentə şikayət yazmalıdır??? İndi atalarımızın məşhur bir sözünün müasirləşdirilmiş bu ifadəsinin yeridir ki, «Yüz yeyənin olsun, bir şikayət edənin olmasın!”.

Elə bu məntiqlə də redaksiyamıza gəlmiş şikayətçi-iş adamı Ağasəf İsmayılova söz verdim ki, şəxsən Baş Prokuror Kamran Əliyevin ədalətinə və peşəkarlığına o dərəcədə inanıram ki, bu məsələdən xəbər tutsa, haqqınız özünüzə qaytarılacaq, ona görə də başqa ünvanlara yazıb vaxtınızı itirməyin və s.

Hörmətli Kamran müəllim, şikayətçinin təqdim etdiyi rəsmi sənədlər, məhkəmə aktları və qərarlarına istinadla qısa olaraq bildirirəm ki, cahibkar Ağasəf İsmayılov “Magna Trans” MMC-nin təsisçisidir. “Magna Trans” MMC-nin direktoru isə Ağayev Mirzahid Mirsahib oğludur. Sonuncu və digər həmtəsisçilər- yeznə-qayın kimi qohum olan Həmidov Bürhan Əhməd oğlu ilə Hacıyev Namiq Gülosman oğlu və başqaları həmin MMC-nin əmlakını, pul vəsaitlərini mənimsəyiblər. Sabunçu rayon Prokurorluğunun icraatında olan 210050957 saylı cinayət işinin materiallarında bütün bu faktlar əksini tapıb. Lakin nə sirdirsə, prokurorluq qanunsuz olaraq dəfələrlə istintaqı dayandırmaqla və ya xitama verməklə sündürməçiliyə könül verib. Lakin A.İsmayılovun şikayətləri əsasında Sabunçu rayon və Bakı Apellyasiya məhkəmələrinin sayca 26 qərarları prokurorluqda illərdir ki, qərəzli olaraq icra edilmir (bu iş üzrə 33 məhkəmə aktı var).

*“Sənədləri araşdırarkən məlum oldu ki, Sabunçu rayon Prokurorluğunun müstəntiqləri: Tural Mürsəlov, Fuad Babayev, Natiq Məmmədov qanunun tələblərini kobud surətdə pozmaqla bərabər, məhkəmə qərarlarında qoyulmuş tələbləri də icra etməkdən qətiyyətlə imtina edirlər”*

Sənədləri araşdırarkən məlum oldu ki, Sabunçu rayon Prokurorluğunun müstəntiqləri: Tural Mürsəlov, Fuad Babayev, Natiq Məmmədov qanunun tələblərini kobud surətdə pozmaqla bərabər, məhkəmə qərarlarında qoyulmuş tələbləri də icra etməkdən qətiyyətlə imtina edirlər. Hətta, təsəvvür edin ki, bu müstəntiqlərin qanuna zidd əməlləri sayca 20 məhkəmə qərarının hər birində birbaşa göstərilib, yenə də istintaqa rəhbərlik və nəzarət edən rayon prokuroru Murad Dadaşov və digərləri bu qərarların icra edilməsini təmin etməkdənsə, onların bir neçəsinin ləğv edilməsi ilə bağlı protestlər də verməkdən çəkinməyiblər. Özü də heç bir qanuni əsas olmadan!

Bir vacib məqam: Bakı Apellyasiya Məhkəməsi prokurorların protestlərinin əsassız olması səbəbinə görə heç birini də təmin etməmiş və özlərinə qaytarmışdır. Hər halda, bu, prokurorluq orqanı üçün yaxşı rəy deyildir. Və bu məhkəmə qərarlarından nəticə çıxarmaq əvəzinə, müstəntiqlər və prokurorlar cinayət işinin süründürməçiliyini davam etdirmək üçün, hətta absurd qərarlar verirlər. Çünki MƏNİMSƏMƏ kimi cinayəti əməli – ETİBAR EDİLMİŞ ÖZGƏNİN ƏMLAKINI məhz, şəxsiyyəti məlum olan bir kəs tərəfindən MƏNİMSƏNİLMƏSİ CİNAYƏT HƏRƏKƏTİDİR və bu Azərbaycan Cinayət Məcəlləsinin 179-cu maddəsində aydın göstərilmişdir. Lakin prokurorluğun müstəntiqləri bu aydınlığı niyə görə bilmir, bu ciddi sualdır. Hətta onlar cinayət işinin istintaqını əngəlləmək üçün başqa yol tapmadıqlarına görə, Azərbaycan CPM-nin 53.1.1. maddəsi ilə, yəni guya “cinayət törətmiş şəxsin müəyyən edilməməsi səbəbinə” görə dəfələrlə işi dayandırmışlar. Halbuki həmin «şəxs” prokurorluğun binasına az qala gündə ayaq açır, əməli məhkəmə qərarlarında var. Daha nə lazımdır!

Məsələ isə belədir: “Magna Trans” MMC-nin direktoru Mirzahid Ağayevlə müavini Ramil Xəlilova etibar edimiş həmin MMC-nin əmlakının-pullarının mənimsəmələri elə onların özlərinin imzalayıb-möhürlədikləri sənədlərlə təsdiq olunur, cinayət törətmiş bu maddi-məsul şəxsləri prokurorluq isə hansısa səbəbdən “müəyyən edə bimir?”. Ortada və ya göz qabağında olan əməli necə müəyyən etməmək olar?!

Cinayət işi üzrə zərərçəkmiş şəxs A.İsmayılovun sonuncu dəfə məhkəmə nəzarəti qaydasında vermiş olduğu şikayət Sabunçu rayon Məhkəməsinin 09 dekabr 2025-ci il tarixli qərarı ilə təmin edilmiş və “Sabunçu rayon prokurorluğunun müstəntiqi Fuad Babayevin 210050957 nömrəli cinayət işi üzrə istintaq hərəkətinin aparılmamasından və məhkəmələrin müvafiq qərarlarında göstərilən göstərişlərin icrasız saxlanılmasından ibarət hərəkətsizliyi qanunsuz hesab edilmişdir.”

Soruşuram: bir müstəntiqin bu cür hərəkəti ilə niyə Azərbaycan Baş Prokurorluğunun adına yersiz və lazımsız şikayətlər yayılmalıdır? Bu qərardan şikayət etmək müddəti 3 gün olduğu halda isə, 2 ay sonra Sabunçu rayon prokuroru apellyasiya şikayəti verir. Bu hansı qanunda yazılıb? Bəlkə prokuror Murad Dadaşovun ayrı bir qanunu var?! Hətta Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası ayyarım əvvəl-18.02.2026-cı il tarixli, 6(3-6)-93/2026 saylı qərarı ilə Sabunçu rayon prokurorunun protestini əsassız sayıb yenidən rədd etmişdir. Protestlə bağlı onu diqqətinizə çatdırım ki, sahibkar A.İsmayılov 34 avtobusunun oğurlanmasına dair ərizəsi ilə bağlı dəfələrlə xahiş etsə də, izahatımın alınmasını illərdir ki, təmin erməyən istintaqa nəzarət etməli olan prokuror Murad Dadaşov, hətta zərərçəkmişin şikayətlərinin baxılmasını və istintaq hərəkətlərinin yerinə yetirilməsini əngəlləmək üçün nə az, nə çox-düz 12 vərəqlik əsassız, qanunsuz protest yazmışdır. Həmin protest də rədd edilmişdir.

Daha vacib məqam: zərərçəkmiş şəxsin 4 il ərzində çoxsaylı müraciətinə cavab verməyən Sabunçu rayonunun sabiq prokuroru İbrahim Lənbəranski avtobusları oğurlanmış, əmlakı talanmış, pulları mənimsənilmiş “Magna Trans” MMC-nin maddi-məsuliyyət cavabdehliyini daşıyan direktor Mirzahid Ağayevin müdafiəsi üçün yazmış olduğu 15 səhifəlik apellyasiya protesti də yazmışdır. Yenə də bu protest əsassız olması səbəbindən Bakı Apellyasiya Məhkəməsində rədd etmişdir!

A.İsmayılov 34 avtobusun oğurlanmasına dair şikayətlə Bakı şəhər Baş Polis İdarəsinə də şikayət vermişdir, lakin orda da şikayət ərizəsi ilə bağlı heç bir tədbir görülmədiyi üçün, o, istintaqa məhkəmə nazarəti qaydasında aidiyyəti üzrə məhkəməyə şikayət etmişdir. Xətai rayon Məhkəməsinin 14.02.2025-ci il tarixli, 6(011)-31/2025 saylı qərarında göstərilir ki, “Bakı ŞBPİ-nin Təhqiqat şöbəsinin rəisi Tərlan Zeynalovun 34 ədəd avtobusun oğurlanması ilə bağlı müraciət üzrə araşdırma aparmaması, müraciətin nəticəsi üzrə prosessual qərar qəbul etməməsi qanunsuz hesab edilsin”.

Çox hörmətli Kamran müəllim! Təsəvvür edirsinizmi, bir-iki prokurorun, müstəntiqin günahı üzündən Baş Prokurorluğun sayənizdə illərdir formalaşmış nüfuzu məhkəmələrdə rədd edilən protestlərdə itib gedir! Bu, zənnimcə, qəti yolverilməz bir haldır!

Təsəvvür edin, Bakı şəhər Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Əlizadə Emil Əli oğlu isə Bakı Apellyasiya Məhkəməsində çıxış edərək, Mobil Şəfiyevin apellyasiya protestinin təmin edilməsini və məhkəmə qərarının ləğv edilməsini xahiş edir. Bu dəfə isə Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 02.05.2025-ci il tarixli 6(103)-177/2025 saylı qərarında göstərilir: **“Məhkəmə kollegiyası, apellyasiya protesti ilə əlaqədar iş materialını araşdıraraq, proses iştirakçılarının çıxışlarını dinləyərək hesab edir ki, apellyasiya protesti əsassız olduğundan təmin edilməməlidir. Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşaraq hesab edir ki, 34 ədəd avtobusun qanunsuz ələ keçirilməsi ilə bağlı Bakı ŞBPİ-də heç bir araşdırma aparılmamış, hər hansı prosessual qərar qəbul edilməmişdir. Cinayət prosesini həyata keçirən orqanın əməkdaşı AR CPM-in tələblərinə uyğun qərar qəbul etməli olduğu halda hərəkətsizlik göstərmişdir. Apellyasiya protesti təmin edilməsin. Qərar qətidir, ondan kassasiya şikayəti və ya protesti verilə bilməz.”**

Bu da bəs deyil! Bakı ŞBPİ-nin Təhqiqat şöbəsinin rəisi Tərlan Zeynalov isə, sanki acığa düşərək məhkəmə qərarlarını icra etmək əvəzinə, 34 ədəd avtobusun oğurlanmasına dair ərizəni “araşdırılıraq, nəticəsi barədə müəllifinə bildirilməsi” üçün Sabunçu rayon polis İdarəsinə göndərir. Ərizə icraatına verirlmiş İstintaq şöbəsinin müstəntiqi Orxan Səmədovun süründürməçilik və məsuliyyətsizlik hərəkətləri etməsi səbəbindən, məhkəmə nəzarəti qaydasında zərərçəkmişin vermiş olduğu şikayətlər üzrə, Sabunçu rayon Məhkəməsinin üç-22.08.2025-ci il tarixli 6(008)-75/2025, 28.10.2025-ci il tarixli, 6(008)-109/2025 və 08.12.2025-ci il tarixli, 6(008)-119/2025 saylı qərarlarında birmənalı olaraq göstərilir: **«Sabunçu RPİ İŞ-nin müstəntiqi Orxan Səmədovun cinayət haqqında ərizənin qəbul edilməsindən imtina edilməsindən ibarət hərəkətsizliyi qanunsuz hesab edilsin, A.İsmayılovun şikayətində göstərdiyi, o cümlədən məhkəmənin həmin qərarda göstərdiyi xüsusatlarla bağlı əlavə araşdırma aparılsın.”**

**Yaxşı, bu da bəs deyil, yaxud bu da dərs olmadı?!**

Hörmətli Kamran müəllim, inanıram ki, qısa məzmunu barədə Sizə təqdim etdiyim faktlar əsasında Sabunçu rayon Prokurorluğuna xüsusi göstəriş verəcəksiniz ki, 4 ildir davam edən istintaq-prokurorluq süründürməçiliynə, nəhayət, son qoyulsun!

Şəxsən mən inanıram ki, bu belə olacaq! Çünki yuxarıda eləbelə xatırlamadım ki, Ulu Öndər Heydər Əliyev deyirdi: **“Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə”. Yaxşı, indi biz bir prokurorun və iki müstəntiqin bizə məlum olmayan hansısa müəmmalı maraqlarına hərəkətsizliyinə görə Prezident İlham Əliyevin siyasi iradəsi, şəhidlərimizin qanı və Ordumuzun canı bahasına dayaqları möhkəmləndirilmiş Dövlətimizin sarsılmasına susaq???”.**

**“Təzadlar”**

**Məmməd Arazlı xatirələr: GÜLXANIM FƏTƏLİQIZININ "Ömürdən yarpaqlar" kitabından... Oxucuların müraciəti və xahişi ilə "Ömürdən yarpaqlar" kitabından bir hissəni təqdim edirik:**

# "Sabir Rüstəmxanlı ilə Nüsrət Kəsəmənli harda erməni görürdü, dava salıb döyürdülər"



## MƏMMƏD ARAZLI XATİRƏLƏR

**GÜLXANIM FƏTƏLİQIZI:** "1 sentyabr — Gəzinti vaxtı sual verdim:

— Məmməd, Səməd Vurğun haqqında xatirən qurtardı?

— Yox, hələ var. Bir dəfə yazıçıların plenumuna hazırlıqla əlaqədar "Natəvan" klubunda yığıncaq keçirilirdi. Onda Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov, məsul katibi Əli Vəliyev idi.

Biz cavanlar — Sərdar Əsəd, Famil Mehdi, İlyas Tapdıq, Tofiq Bayram belə yığıncaqlara gedərdik. Hamıdan əvvəl gəlib Rəsul Rza oturdu. Sonra Anarla Nigar xanım gəldi. Səməd Vurğun onlara yaxınlaşıb Nigar xanımla görüşdü. Sonra Anara tərəf dönüb soruşdu:

**— Anar, mən yaxşı şairəm, yoxsa Rəsul?**

**— Rəsul, – deyə, – Anar cavab verdi.**

Hamı Anarın kəsə cavabına gülüşdü.

İclas başlandı. Cəfər Xəndan məruzəçi idi. Məruzə qurtarandan sonra zalda narazılıq oldu. Onda tərəflər arasında — Süleyman Rəhimov, Səməd Vurğun, Əli Vəliyev, Mirzə İbrahimov arasında çəkişmələr vardı. Mirzə İbrahimov iclasa gəlməmişdi. Cəfər Xəndanın məruzəsindən razı qalmamışdılar. Əli Vəliyev dedi:

**— Elmlər doktoru, universitetin rektoru, tənqidçi Cəfər Xəndandan başqa məruzəni kimə verməli idim ki?**

Həmin iclasda MK-da təbliğat şöbəsinin müdiri Cəfər Cəfərov çıxış etdi. O, Stalin mükafatına göndərilməsi nəzərdə tutulan əsərlərin sənədlərini hazırlayıb vaxtında MK-ya göndərilməməsində Yazıçılar İttifaqını təqsirləndirdi. Cəfər Cəfərov çıxış edəndə Səməd Vurğun da zalda oturmuşdu. O, Cəfərovun çıxışına replikalarla cavab verirdi. Sonra dözə bilməyib ayağa durdu, papiros çəkə-çəkə qapıya yaxınlaşdı, papirosu zibil qabına atdı və voobşe yazıçıya məsləhət lazım deyil, deyib çıxıb getdi. O vaxt bu, böyük cəsarət idi.

Məmməd Rahim mənə Səmədlə bağlı belə bir əhvalat danışmışdı:

— "Vaqif" əsəri Stalin mükafatına təqdim olunmaq üçün əvvəlcə Yazıçılar İttifaqında müzakirə edildi. Bəzi yazıçılar əsərin müasir tələblərə cavab vermədiyini deyib mükafata layiq olmadığını söylədilər. Sonra əsərin müzakirəsi Mircəfər Bağırovun iştirakı ilə keçirildi. Yenə də əsəri tənqid edib məsələni tamamilə ayrı səmtə döndərdilər. Onda Əli Vəliyev durub dedi:

— Səməd Vurğun xalqımızın ən böyük şairidir, ən böyük şairi olaraq qalacaq, əsəri də mükafata layiqdir.

Sonra fasilə elan olundu. Fasilədən qayıdanlar gördülər ki, Səməd Vurğun Mircəfər Bağırovla oturub çay içir. Bunu görən yığıncaqdakılar əsəri tərifləməyə başladılar.

Yaşlı yazıçılar həmişə söhbət edərdilər ki, Mircəfər Bağırov yazıçıların fəaliyyətini tənqid edib deyirmiş:

— Yazıçılar sosializmi yaxşı təbliğ etmir, gələcəyi, kommunizmi əsərlərində yaxşı əks etdirmir və sair.

Onda Səməd Vurğun söz alıb çıxış edər, zal alqışlarla sözünü kəsər, Səməd təzədən danışardı. Yenə də alqışlayardılar. Onda Bağırov da məcbur olub əl çalarmış.

2 sentyabr — Məmmədə Nüsrət Kəsəmənlinin ruhlarla danışığı haqqında yazılmış məqaləni oxudum. Məqalənin adı "Məni birinci həyatımda balta ilə öldürüblər!" idi. Məmməd dedi:

— Nə olsun, o, özünü elə inandırır, başqasına ziyanı dəymir ki, qoy elə fikirləşsin. Nüsrətin axır vaxtlar yazdığı şeirlərindən xəbərim yoxdur. Əvvəllər yaxşı yazırdı. İndiki nəslin özündən əvvəlki şairlərdən öyrənmək imkanı var. Hüseyn Arifi, Bəxtiyarı, məni oxuyub bəhrələnirlər.

— Necə ki, Nizami məktəbi, Füzuli məktəbi, hə kişi?

Güldü Məmməd:

— Hə, məktəbin Nizami, Füzuli kimi başçıları qalır, qalanları isə tökülür.

*Məmməd Əli Vəliyev haqqında danışmağa başladı*

Orta məktəbdə oxuyanda S. Vurğunu o qədər tərifləyirdilər ki, şairin bu şöhrətinə vurulurduq, şeir yazmağa həvəslənirdik. Mən də o zaman "Ararat" adında bir şeir yazdım. Şeirin məzmunu belə idi ki, Ararat dağı kapitalistlərin əlində göz yaşı tökür, azad deyil, nə bilim nə, nə. Şeiri Şahbuzda çıxan "Sosializm maldarlığı", — ada bax a, əlavə etdi — qəzetinə apardım. Qəzetin redaktoru Bayram Qurbanov idi. Kişi mənə dedi:

— Ay Məmməd, axı belə sözlər yazmazlar, onlar bizim qardaşlarımızdır. Fikrini, sözlərini mənə elə incə şəkildə çatdırdı ki, yəni başa saldı ki, türklər bizim qardaşımızdır. Sonralar Bayram Qurbanovu görəndə şeirimə görə xəcalət çəkirdim.

3 sentaybr — Məmməd Araz, işdə yanına gəlib gedən olubmu?

— Bəli, bir ağbaş kişi idi, adını bilmədim. Salamdan sonra aşağıdakı sözləri döşədi qabırğama ki, mən də şeir yazırdım, gördüm ki, xalqıma xəyanət edirəm, daha qələmimi sındırdım, şeir yazmadım. Siz niyə Əliğa Kürçaylını unutmusunuz Məmməd müəllim? Əliğa Kürçaylı sizi böyük şair adlandırmışdı, "Narbənd ağacı" şeirində. Sizin böyük şair olduğunuzu xalq da təsdiq edib. Səməd Vurğun haqqında poema yazmışdım. Apardım Yusif Səmədoğlunun yanına. Soruşdum ki, Səmədin oğlusan, yoxsa Yusif Səmədoğlusan?

— Hər ikisiyəm, — dedi.

— Sənə poemamı oxumaq istəyirəm, xahiş edirəm qulaq as. Səni dinləməyə vaxtım yoxdur, cavabını verdi mənə, cənublu qardaşına.

Kişi bu sözləri deyib çıxıb getdi.

Məmməd Əli Vəliyev haqqında danışmağa başladı:

— Əli müəllim məndən bir neçə dəfə küsmüşdü, bilirsən. Süleyman Rüstəm "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru idi. Xəlil mənə dedi ki, gedək Süleymana şeirlərimizi oxuyaq. Getdik, yerində olmadığına görə Süleymanı gözlədik. Süleyman gəlib katibin otağına keçdi. Xəlillə içəri girdik. İçəridə Əli Vəliyev və Zeynal Xəlil də vardı. Xəlil Süleymana dedi ki, şeir oxumağa gəlmişik. Mən "Manilus Qlezus" şeirimi oxudum. Zeynal Xəlil dedi:

— Məmməd, bu fəlsəfən səni Bəxtiyarın yoluna aparır. Başqa bir neçə söz də söylədi.

Süleyman isə şeirin çapına söz verdi.

Səhər İttifaqa getdim, mən yuxarı qalxanda Əli müəllim aşağı düşürdü. Salam verdim:

— Sənin salamın mənə lazım deyil, — dedi, — Məşədi İbrahimin nəslindən xəbərçi çıxmayıb, sən o nəsildən deyilsən, get, bir də ittifaqa gəlmə.

Mən bu sözlərdən pərt oldum:

— Nə olub, Əli müəllim, mənim günahım nədir? Cavab vermədi.

Mehdi Hüseyn də yuxarı qalxırdı. Mənim yaman pərt olduğumu görüb Əli Vəliyevə dedi:

— Əli müəllim, hər şey cəhənnəmə, Məmməd yaxşı şairdir, xətrinə dəyməyin. Sonra məni öz otağına apardı. Mehdi o vaxt məsul katib idi. Sonra məsələnin böyüdüyünü görən Xəlil demişdi ki, Zeynal Xəlilin dediyi sözləri Bəxtiyara o çatdırıb. Bir neçə gün keçəndən sonra Əli müəllimlə yenə rastlaşdım. Mən salam verməmiş soruşdu:

— Nə təhərsən, bağışla, bilirdim ki, Məşədi İbrahim törəməsi xəbərçi olmaz.

Bir də yadındamı Məsud Əlioğlu bizi qonaq çağırmışdı. Orada Mirzə İbrahimov, Əli Vəliyev, Mehdi Hüseyn, Kamal Talıbzadə, İsmayıl Şıxlı vardı. Yadımdadır, Kamal Talıbzadə badə qaldırıb dedi:

— Bilirsiniz, ağsaqqallar, siz özünüzdən sonra gözəl bir nəsil qoyub gedirsiniz. İçək başda İsmayıl Şıxlı olmaqla yeni nəslin sağlığına!

Mehdi onda yerindən qalxdı, acıqlandı:

— Hara gedirik, ə? — dedi.

Məclisdə bir az qan qaralığı oldu. Kamal Talıbzadə məsələni bir az yumşaltmaq məqsədilə əlavə etdi, yəni deyirəm, insan gedərgidir.

O biri həftənin üçüncü günü İsrafil Nəzərov mətbuat komitəsinin kollegiyasını keçirirdi. Hökümət telefonu səsləndi, İsrafil dəstəyi götürdü, bir neçə saniyə pauzadan sonra dilləndi:

— Başınız sağ olsun, Mehdi Hüseyn keçindi. Bu, Məsud Əlioğlunun evində olan söhbətdən dörd gün sonra oldu.

5 sentyabr — Məmməd, axı Əli Vəliyev səndən bir neçə dəfə küsmüşdü?

— Rusların Çexoslavakiyanı işğal edib əhalisini qırmaqlarını biz cavanlar müzakirə edir və rusların bu hərəkətini pisləyirdik. Bu danışıqlarımız bizim qoca kommunistlərə xoş gəlmirdi. Əli müəllim məni görəndə dedi:

— Eşitmişəm qəhrəman olmaq istəyirsən, rusları pisləyirsən?

— Düz pisləyirik, rusların orada nə işi var?

Əli Vəliyev heç nə deməyib, çıxıb getdi. Sonralar Əli müəllimdən soruşdum:

— Əli müəllim, deyəsən, kommunizmdən bir şey çıxmadı?

— Düz deyirsən, bir şey çıxmadı — cavabını verdi Əli müəllim.

7 sentyabr — Ermənilərin baş qaldırdığı vaxt idi. Sabir Rüstəmxanlı ilə Nüsrət Kəsəmənli dost idilər. Harda erməni var Sabirlə Nüsrət dava salıb onları döyürdülər. Bir dəfə də, vaxtı dəqiq yadımda deyil, Sabir mənə dedi:

— Əmi, gedək dəniz vağzalının yanındakı restoranda çörək yeyək. Sabir bilirdi ki, orada ermənilər işləyir, çalğıçılar da ermənidir. Mən, Söhrab, Nüsrət və Sabir getdik ora. Çörək yeyib hesablaşandan sonra uşaqlar qəsdən dava saldılar. Ermənilər dedilər ki, çıxaq çölə vuruşaq.

Mənə göstəriş verdilər ki, əmi, sən kənar dur, qarışma. Söhrab da onlara qoşuldu. Ermənilər qaçdılar, çörək yeyən ermənilər də öz hesablarını götürdü, yavaşca hamı əkildi. Biz də ermənilərdən öz "hayıfımızı" belə çıxırdıq.

Xalq yavaş-yavaş qəflət yuxusundan ayılırdı. 1989-cu ilin soyuq günlərindən biri idi. Deyəsən, noyabr ayı idi. Nemət Pənahov zəng etdi ki, səninlə görüşüb söhbət etmək istəyirəm. Görüşü növbəti həftəyə təyin etdik. Evimizin aşağısında, Tofiq Bayramın evi olan yerdə görüşdük. Bir az söhbət etdikdən sonra məni Səttərxan adına zavoda görüşə çağırdı.

Görüş başlanana qədər Nemət təzədən məni söhbətə tutdu:

— Xalq cəbhəsi təşkil etmək istəyirik, siz də xalq cəbhəsinin sədri olun. Onda bir cavab vermədim. Sonra məni kabinetə apardılar. İçəridə Xəlil Rza, Ağamalı Sadiq, Əbülfəz Elçibəy bir də zavodun direktoru Əyyam müəllim vardı. Söhbət başlanana kimi yenə də məndən xalq hərəkatına başçılıq etməyi xahiş etdilər. Elçibəyi göstərib dedim ki, xalq hərəkatına bu kişi rəhbərlik etsə yaxşıdır. Nemət də Əbülfəz də bir ağızdan dedilər ki, biz sənin şeirlərini oxuyandan sonra meydana atılmışıq, azadlığın yolunu şeirlərinlə bizə göstərmisən, sən də rəhbər olmalısan.

Cavab verdim:

— Vallah, fiziki cəhətdən mənim qüvvəm çatmaz, görürsünüz, necə xəstəyəm, amma mənəvi kömək etməyə hazıram.

Görüş başlandı. Ağamalı da, Xəlil də, Nemət də, Əbülfəz də haqqımda danışdılar özü də çox yaxşı danışdılar. Beləliklə, başçılıq məsələsində məndən əl çəkdilər.

Sənə deyim ki, xalq hərəkatı çoxdan başlamışdı. Bir dəfə naxçıvanlı Benyamin yanıma gəlmişdi. 80-cı illər idi. Söylədi ki, təşkilat yaratmışıq, əhalini dövlətdən narazı salmaq məqsədi ilə təxribatla məşğuluq. Sən də bizim təşkilata üzv ol.

— Mən belə işlərə qoşula bilmərəm — cavabını verdim...

**(Davamı var)**

**Təqdim etdi:**
**Asif Mərzili**

# ŞƏFA OCAĞINDAKI XİDMƏTDƏN MƏMNUNUQ



***7 saylı şəhər poliklinikasına müraciət edənlər tibbi personalın peşəkar və qayğıkeş münasibəti ilə qarşılaşırlar***

**Hörmətli redaksiya!**

Sizə bu məktubu Azərbaycanın səhiyyə sistemindəki nöqsanlara, çatışmazlıqlara daim tənqidi mövqedən yanaşan, lakin zaman keçdikcə istər tibb müəssisələrinin qabaqcıl texnoloji avadanlıqlarla təchizi, istərsə də kadrların peşəkar hazırlığı və Hippokrat andına sədaqət nöqteyi-nəzərindən humanizm prinsiplərinə riayət mənəvi məsələlərini yaxından müşahidə edən və gördüklərinə sevinən obyektiv bir şəxs kimi yazıram.

Bir müddət əvvəl – ongünlük Novruz tətilində doğulub böyüdüyüm Zaqatalaya səfərim zamanı həyətyanı sahəmdə xırda kənd təsərrüfatı işləri ilə məşğul olarkən ayağımı yaraladım. Təbiətin qoynuna səyahət, qohum-əqrəba ilə bayram görüşləri, eləcə də "boş şeydir, keçib gedər" arxayınlığı ilə zədəyə əhəmiyyət vermədim. Lakin sən demə, həm rayonda havaların soyuq və yağıntılı keçməsi, həm də şəkərə meyilliliyim əzintini tətikləyirmişg



**Nilufər Həsənova,**
***Həkim-cərrah***

Paytaxta qayıdarkən ayağımdakı ağrılar, qaraltı və şişin artması üzündən Xətai rayonu Məzahir Rüstəmov küçəsində yerləşən 7 saylı şəhər poliklinikasına müraciət etməli oldum. Açığı, buradakı səliqə-səhman və intizama heyran qaldım. Tibbi sığorta bölməsinin qarşısında tam sakitlik hökm sürürdü, bəzi yerlərdəki kimi "internet sistemi çökməmişdi", haray-həşir yox idi.

Lazımi sənədləşmədən sonra məni gənc həkim-cərrah Nilufər Həsənovanın qəbuluna göndərdilər. Nilufər xanım gərəkən müayinə tədbirləri həyata keçirdi, resept yazdı və tövsiyələr verdi; sonra müalicəmi ev şəraitində davam etdirdim. Hər 2-3 gündən-bir həkim baxışı və sarğı dəyişdirilməsi üçün poliklinikaya getdim. Bu arada tibb bacıları Afət Hüseynova və Raya Bağırovanın da diqqəti, şəfalı əlləri, qayğısı ilə əhatə olundum.

Artıq 14-15 gün keçib, şükür Allaha ki, sağalmışam, sərbəst yeriməyim, əmək fəaliyyətim bərpa olunub, işə gedib-gəlirəm. Bu sətirləri təkcə öz üzərimdəki müsbət nəticəyə görə yazmıram və adıçəkilən səhiyyə heyəti müalicəyə başlayarkən mənim jurnalist olduğumu bilmirdilər. Həkimcərraha müraciət edən digər pasiyentlər də N.Həsənovanın elmi biliklərindən, peşəkarlığından, xoşxasiyyət davranışından çox razıdırlar. Mən orada olarkən istedadlı həkim, dermatovenerolog Şövqi Zeynalovun da qapısının qarşısını dolu gördüm və haqqında yaxşı sözlər eşitdim.. Əlbəttə, Xətai rayonu 7 saylı şəhər poliklinikasındakı yüksək tibbi xidmət və müsbət aura şübhəsiz ki, sözügedən müəssisənin baş həkimi Səfərova Şəlalə Zakir qızının idarəçilik qabiliyyəti və ümumi işə ciddi münasibətindən irəli gəlir.

Şəfa ocağındakı peşəkar rəhbərliyə və kollektivə bir daha minnətdarlığımı bildirir, xalqımızın sağlamlığı istiqamətindəki işlərində uğurlar arzulayıram!

**Hörmətlə: Qurban Cəbrayıl,**
**"Mədəniyyət/Culture" jurnalının redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü**

**Beynəlxalq dərəcəli idman ustası, Türk savaş sənəti üzrə araşdırmaçı, Alpaqut Turan döyüş sənətinin müəllifi Vasif Namazovun Alpaqut Turan döyüş sənəti haqqında olan kitabına istinad edərək qeyd edə bilərəm ki, insanların yaranışdan əldə etdiyi mədəni nailiyyətlərdən biri də döyüş sənətidir. İbtidai insana özünü müdafiə əsas həyat ehtiyacı idi. Zaman keçdikcə isə tayfa, qəbilə müharibələri, imperiya müharibələri hansısa bir xalqa məxsusluğunu deyə bilməyəcəyimiz savaş mədəniyyətinin formalaşmasına zəmin yaratmışdır. Məhz bunun nəticəsində XVIII əsrdən başlayaraq müxtəlif xalqların hərb döyüş sənəti sahəsində özlərinin özünümüdafiə döyüş və idman proqramı əsasında, müxtəlif adlarla (karate, uşu, muaytay, pankration, savate, takevando və s.) döyüş sənəti formalaşmışdır. Bu istiqamətdə şərq ölkələri, xüsusilə Mərkəzi Asiyada ("Turan" adlanan coğrafi arealda) və qonşu xalqlar daha irəli gedib.**

# Kənan Quliyev müharibə və idman "döyüşlərində"

***Bu məqaləmdə Qarabağ müharibələrinin veteranı, Alpaqut Turan döyüş sənəti üzrə Qarabağ nümayəndəliyinin sədri, həmin döyüş sənəti üzrə Ağdam rayonunda Baş məşqçi, Dünya və Avrasiya çempionu Kənan Azay oğlu Quliyevi "Təzadlar"ın oxucularına tanıtdırmağı özümə borc bildim...***




*Ağdam RİH-nin başçısı Vaqif Həsənov və Kənan Quliyev*



*Prezident İlham Əliyev və Kənan Quliyevin yetirməsi Qənbər Ağayev*

Beləliklə, Alpaqut döyüş sənəti Türk xalqlarının qədimdən mövcud olan döyüş sənətlərindən götürülüb və müasir döyüş sənətləri ilə sintezləşdirilmiş döyüş sənətidir ("Alp"-döyüşçü, "Qut"-qutsal, yeni "Müqəddəs Döyüşçü").

Gəlirəm mətləb üstünə: Ağdam rayonunda Alpaqut döyüş sənətinin mahir ustası, Dünya və Avrasiya çempionu Kənan Azay oğlunun həyat və fəaliyyəti barəsindəki fikirlərimə. Yurdu sevə-sevə əsl yurddaş, vətəni sevə-sevə əsl vətəndaş olan Kənan Quliyev 6 mart 1973-cü ildə Qarabağın dilbər güşəsi olan Ağdam rayonunun Gülablı kəndində dünyaya gəlib. Orta təhsilini də Gülablı kənd orta məktəbində alıb. Heyif ki, ali təhsil almaq arzularının gerçəkləşməsinə yurd-yuvalarının erməni-rus hərbi birləşmələri tərəfindən işğalı (4 sentyabr 1992-ci il), başlanan köçkünçülük həyatı, özünün düşmənə qarşı müharibədən kənarda qalmamaq isteyi və 1991-ci ildən 1996-vı ilədək Milli Ordu sıralarında Birinci Qarabağ müharibəsində şərəfli döyüş yolu keçməsi- Baş çavuş kimi əsgər-döyüşçü olması. Kənan Quliyev ön cəbhədə 5 il torpaqlarımızın qorunması, Ağbulaq, Naxçıvanlı, Dəhraz, Təkir Miri, Yenikənd və s. kəndlərin düşməndən təmizlənməsi uğrunda ön cəbhədə döyüşmüşdür.

Kənan müəllim 44 günlük Vətən müharibəsinin də iştirakçısı olmuş, könüllü olaraq əsasən Ağdərə istiqamətində kəşfiyyat dəstələrində döyüş yolu keçmişdir. O, müharibə fəaliyyətləri dillərdə dastan olan əfsanəvi kəşfiyyatçılar Zahid Əliyevin (üç qardaşı hərbi şəhid), Səyyaf Əhmədovun ("Xanı" ləqəbli, şəhid), Şəhid Müşfiq Abbasovun, Şəhid Emin Əliyevin kəşfiyyat dəstələrində döyüşmüş, qələbədən iki ay sonra isə döyüş dostlarından ayrılmışdır.

> *"Ağdam RİH-nin başçısı Vaqif Həsənovun hər zaman istedadlı gənclərin, eləcə də rayon idmançılarının yanında olması Kənan müəllim, eləcə də onun yetirmələri üçün qələbə stimulu yaratmaya bilməz..."*

Kənan Quliyev Vətən müharibəsindən sonra həyatını yenidən idman sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuş, düşmənlə döyüşlərdən, idman arenalarında rəqiblərilə "döyüşməklə" əvəz etmişdir. Hələ orta məktəb illərindən idmana olan bağlılığı, onu bugünkü peşəkarlığına qədər ucaltmışdır. Onun bu gün əldə etdiyi nailiyyətləri əsl nümunədir, peşəkar idmançı olmaq istəyində olan hər bir yeniyetmə və gənc üçün əsl örnəkdir. Faktlara nəzər salmaqla fikrimi əsaslandırmış olaram. Belə ki, Kənan müəllimin yetirmələri olan Dünya çempionları onlardır: 1. Ağayev Qənbər Xanlar oğlu-San Qara Kəmər Dünya çempionu, 8 qat Respublika çempionu, Dünya və Prezident kuboklarının sahibi, idman ustalığına namizəd, hazırda məşqçidir. Onu da qeyd edim ki, bu yaxınlarda Ağdamın Kəngərli kəndinin açılışında cənab Prezident İlham Əliyevin Qənbər Ağayevlə xüsusi görüşü olmuşdur. 2. Mehdiyev Bəxtiyar Eyvaz oğlu-I San Qara Kəmər və iki qat Dünya çempionu, 5 qat respublika və Avrasiya çempionu, hazırda məşqçidir. 3. Quluzadə Rəşad Kənan oğlu-II San Qara Kəmər ustası, 3 qat Dünya, 5 qat Respublika çempionu, Dünya və Prezident kubokunun sahibi, idman ustalığına namizəd. XI sinifdə oxuyur, arzusu Polis Akademiyasında təhsil almaqdır. 4. Sarıyev Fərid Siyavuş oğlu-I San Qara Kəmər və Dünya kubokunun sahibi, 5 qat Respublika çempionu, idman ustalığına namizəd. 5. Əsgərov Nicat Murad oğlu-I San Qara Kəmər Dünya və 3 qat Respublika çempionu, idman ustalığına namizəd. X sinif şagirdidir. 6. Sadıqov Vahid Əlzamin oğlu- I San Qara Kəmər sahibi, Dünya və 2 qat Respublika çempionu, idman ustalığına namizəd. 7. Pirili Aslan Anar oğlu-I San Qara Kəmər sahibi, Dünya və Respublika çempionu, idman ustalığına namizəd. 8. Əmrahov Adəm Elsevər oğlu-Dünya və Respublika çempionu, idman ustalığına namizəd. Hazırda C.Naxçıvanski adına hərbi liseydə təhsil alır. 9. Qasımzadə Ramazan Hüseyn oğlu- 3 qat Dünya, 5 qat Respublika çempionu, Dünya kubokunun sahibi, idman ustalığına namizəd. 10. Kərimov Nurlan Bəxtiyar oğlu-Dünya çempionu, Qara Kəmər sahibi. Hazırda FHN-də çalışır. 11. Həsənov Pünhan Həsən oğlu- I San Qara Kəmər sahibi, Dünya çempionu. Hazırda Daxili Qoşunlarda çalışır. 12. Cabbarov Mirməhəmməd Mircavad oğlu-I San Qara Kəmər sahibi, Respublika çempionu. 13. Şirəliyev Elçin Eldəniz oğlu-I San Qara Kəmər Sahibi, Respublika çempionu, idman ustalığına namizəd.

Kənan müəllim hazırda təltifləri, mükafatları olan daha 50 nəfərə qədər yeniyetmə və gəncləri beynəlxalq və respublika yarışlarına hazırlamaqdadır.

Kənan müəllimin düşmənlərimizə qarşı Birinci Qarabağ müharibəsindən başlayan, Vətən müharibəsində də davam edən döyüşləri ilə, sonra da idman arenalarında rəqiblərinə qarşı davam edən "döyüşləri" arasında bir bənzərlik, vəhdət görürəm: Vətənpərvərlik coşğusu, Bayrağımızı ucalıqda görmək eşqi, döyüşdən döyüşə olan inadkarlıq, əzmkarlıq və s.




*Kənan Quliyev və yetirmələri*

Onu da qeyd edim ki, Ağdam RİH-nin başçısı Vaqif Həsənovun hər zaman istedadlı gənclərin, eləcə də rayon idmançılarının yanında olması Kənan müəllim, eləcə də onun yetirmələri üçün qələbə stimulu yaratmaya bilməz...

Ümid edirəm ki, həyatını böyük idmana həsr etmiş, Dünya və Avrasiya çempionu olan Kənan Quliyevin bundan sonra da qələbələrinin, uğurlarının davamı gələcək. Ona da ümid edirəm ki, Azərbaycan Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Milli İdman Növləri Assosasiyası Respublika Alpaqut Fedarasiyası Kənan Quliyevin qazandığı uğurların qarşılığı olaraq ona "Əməkdar məşqçi" adının verilməsi təşəbbüsündə olacaqlar.

Bütün işlərinizdə uğurlar arzulayırıq, Kənan müəllim!

**Yusif Millətoğlu,**
**şair-publisist,**
**AYB-nin üzvü**

# “Ömürdən yarpaqlar” - Fazil Abbasoğlu

*“Psixoloqların tədqiqatlarına görə daimi gündəlik yazan insanlar daha təvazökar, daha səmimi, davranışında daha nəzakətli olurlar”*

**İnsanın hiss və duyğuları elədir ki, zaman keçdikcə, yaş üstünə yaş gəldikcə xatirələri daha da şirinləşir. Hər bir insanın keçmişdə qalan həyatının illəri acılı-şirinli xatirələrlə doludur. Bütün dünyada xatirələrin qələmə alınması zaman-zaman memuar ədəbiyyatının nümunələridir ki, ilk dəfə 1570-ci ildə fransız M.Montenin “Essesi” ilə bu janrın əsası qoyulmuşdur. Bir sözlə, xatirə ədəbiyyatıdır memuarlar. Xatirələr başqa bədii janrlardan fərqli olaraq əsas odur ki, bir nəfər şahidi olduğu hadisələri şərh edir, eyni zamanda da həcm məhdudiyyəti yoxdur.**



Onu da qeyd edim ki, Azərbaycanda memuar ədəbiyyatının yaranması XX əsrə aiddir və ən yaxşı nümunələr də mühacirətdə yaranmışdır.

Bu günlərdə oxuyub başa çatdırdığım və memuar ədəbiyyatının dəyərli nümunələrindən biri kimi qiymətləndirdiyim **Fazil Abbasoğlunun “Ömürdən yarpaqlar” kitabıdır.** Müəllifi yaxından tanıyıram. 45 il təhsil sahəsində müxtəlif vəzifələrdə çalışmışdır. 7 il onun rəhbərlik etdiyi




*“Bir müdrik deyib ki, xəyallarını xatirələrə çevirə bilən insan xöşbəxtdir. Mən belə xöşbəxt insanlardan birini də Fazil Abbasoğlunu hesab edirəm”*

məktəbdə tarix müəllimi kimi çalışmışam. Fazil müəllim həm ingilis, rus, türk və ana dilimizdə mütaliə həvəskarıdır, geniş dünyagörüşə, əhatəli məlumatlara malik olan ziyalıdır. Şübhəsiz ki, “Ömürdən yarpaqlar”ın qələmə alınması müəllifin qeyd etdiyim cəhətlərindən də qaynaqlanmaya bilməz.

Son illərdə Azərbaycanda memuar ədəbiyyatına maraq artmaqdadır. Xarici və yerli yazarlar arasında tanınmış insanların - futbolçuların, siyasi xadimlərin, alpinistlərin, incəsənət aləmində məşhur olan aktyor və aktrisaların qələm məhsulu olan nümunələr maraqla oxunur. Əgər bir insanın yaşadığı ömürdə qələmə ala biləcəyi və kimin üçünsə örnək ola biləcək həyat etüdləri, şirin xatirələri varsa, memuar yazır (vəzifə adamlarının elələri var ki, özü üçün çalışdığından vəzifədən getdikdən sonra yazmağa “üzü gəlmir”). Bir də ki, bir müdrik deyib ki, xəyallarını xatirələrə çevirə bilən insan xöşbəxtdir. Mən belə xöşbəxt insanlardan birini də Fazil Abbasoğlunu hesab edirəm.

Kitabada müəllifin uşaqlıq illərindən yaş senzi ilə əlaqədar olaraq təqaüddə olduğu bu günədək yaddaşında iz buraxan acılı-şirinli xatirələri yer almışdır. Hər bir sətrində səmimiyyət, hadisələrin təsvir şirinliyi, etirafılı hadisələr oxucunun rəğbətini qazanan əsas məziyyətlərdəndir.

**Fazil Abbasoğlu yazır:** *“Mən “Ömürdən yarpaqlar”ı yazmağa qərar verərkən çox vacib bir amili özüm üçün əsas götürmüşəm ki, hər şeyi mümkün qədər olduğu kimi qələmə alım... “Ömürdən yarpaqlar” nə arxiv materialları, nə xatirə dəftəri və nə də gündəlik əsasında qələmə alınmayıb. Bu kitabdakı yazılar yaddaşımın sadiqliyinə güvənərək yazıya alınan qələm işidir”.*

Maraqlı məqamlardan biri Fazil müəllimin ötən günlərini xatırlayarkən “itirdiklərim, yoxsa qazandıqlarım” sualını cavablandırarkən yazır ki, itirdiklərim çoxdur, öz-özlüyündə ən böyük itkini də dahi Xudu Məmmədovla bağlı olduğunu qeyd edir. Sonra da əlavə edir ki, Xudu müəllim haqqında bu böyük alimin, bu böyük insanın sağlığında onun haqqında heç nə yazmamışam...

“Ömürdən yarpaqlar” şərti olaraq ayrı-ayrı mövzulara ayrılmışdır. Məs., orta məktəb illərini əhatə edən “Dərsə gedən bir uşaq”, ailə şəcərəsinə istinad olaraq “Dədəm (babam)”, ali təhsil arzularına gedən yolu “Niyyətin hara, mənzilin ora” ifadə edir və s.

Psixoloqların tədqiqatlarına görə daimi gündəlik yazan insanlar daha təvazökar, daha səmimi, davranışında daha nəzakətli olurlar.

Onu da qeyd edim ki, kitabın hər bir sətrində səmimiyyət, hadisələrin təsvir şirinliyi, etiraflı hadisələr oxucunun rəğbətini qazanan əsas məziyyətlərdəndir.

Fazil müəllimin bu kitabı hər kəsin nağıl kimi xatırladığı uşaqlıq illərinə, gənclik dövrünə dönmək istəyinin etirafı kimi səslənə bilər. Onun yazısında unudulmaz şair Hüseyn Arifin “Qayıt uşaqlığım” şeirini yada salması təsadüfü deyil.

*Qayıt, uşaqlığım, qayıt bir anlıq...*
*İtən günlərimi tapmaq istərəm.*
*Minib axşamüstü qarğu atımı,*
*Yollardan yollara çapmaq istərəm.*

Hal-hazırda Mərzili kəndindən olan 20 nəfərədək şair və yazıçılar sırasında Fazil Abbasoğlu imzasının da əlavə olunması ədəbiyyatsevərlər üçün böyük yenilik-uğur hesab edirəm. Bilirəm ki, yazı dilinin rəvanlığı, fikrini ifadə edərkən sözə qənaətçilliyi, yazısına xəfif bir yumor hopdurması “Ömürdən yarpaqlar”ı sevdirəcək məziyyətlərdən olacaq.

Fazil Abbasoğlu növbəti kitab üzərində çalışmaqdadır. Gözəl insan, səmimi dost olan Fazil müəllimi oxucuları ilə ilk görüşü - “Ömürdən yarpaqlar”a görə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Yusif Millətoğlu,**
**şair-publisist,**
**AYB-nin üzvü**



# Eh, Balayev... Əziz dost, nə tez getdin...-

## TANINMIŞ YAZIÇIDAN ELEGİYA

*Rasim Balayev kimi böyük sənət ustaları heç kimə və heç nəyə baxmadan tarixin səhifələrində öz layiqli yerlərini tez-gec tuturlar!*

**Səni sevən hər kəsin qəlbində həzin bir xatirə qoyub uzaqlarda qalan dəyərli dostlarımız - Şahmar Ələkbərovun, Şəməndər Rzayevin, Həsən Məmmədovun, Həsən Əblucun, Yaşar Nurinin, Ələbbas Qədirovun, Məlik Dadaşovun yanınamı tələsdin?**

Axı, dedilər hər şey yaxşıdır, tezliklə İstanbuldan Bakıya dönəcəksən?! Və biz Azərbaycan Kinematoqrafçılar İttifaqındakı Sədr kabinetində səninlə görüşməyə, kino barədə müzakirələr aparmağa, xatirələr danışmağa hazırlaşdığımız vaxtda, bu nə qəfil xəbər idi?! Sən axı ətrafımızdakı bəzi-bəzilərindən fərqli olaraq, sözünə bütöv adam idin? Bəs niyə o xoş müjdəni bu acı xəbərlə əvəzlədin?

**Heyf... Kaş yalan olaydı, Balayev...**

...Rasim bəylə dostluğumuzun uzaq bir tarixçəsi var. Ötən əsrin 70-80-lərində Azərbaycan Kinosunun məbədgahı olan C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının qaynar çağlarına gedib çıxır. O vaxt kinostudiyanın gur fəaliyyət dövründə Şahmar Ələkbərov, Rasim Balayev və mən “Arxadan vurulan zərbə” filmində birlikdə çəkilmişik. Kinodan başlanan o dostluğumuz əbədiyyətə qədər uzandı...

...Bir ara iddialıların ictimai-siyasi müstəvidə bəlli oyunlarına görə, sənətkar qəlbli səmimi R.Balayev də Telekanallardan uzaq qalmışdı. Onu efirə çağırmağa risk etmirdilər. Onda mən AZTV-nin sədri Arif Alışanovu inandıra bildim ki, Rasim Balayev milli dəyərdir, onu efirdən məhrum etmək düz deyil. Onu öz verilişimə çağırmaq istəyirəm, məsuliyyəti də mənim boynuma. İnsafən, A.Alışanov etiraz etmədi. Və mən Rasim Balayevi “Mədəniyyət” kanalında müəllifi olduğum “Zaman və Məkan” proqramına dəvət etdim. Uzun fasilədən sonra Balayevlə çox maraqlı bir sənət söhbəti çəkib efirə verdik. Buz qırıldı...

...Bir neçə il öncə, ona “İstiqlal” ordeni təqdim olunanda, Prezidentlə səmimi söhbəti zamanı alicənab ziyalı olaraq yaradıcılığına verilən yüksək qiymətə görə Rasim Balayev hərarətlə Dövlət başçısına minnətdarlığını bildirdi, tarixi Qarabağ Zəfərinə görə Ali Baş Komandana ürəyindən gələn yüksək qiyməti dilinə də gətirdi... Və yenə bədxahların nahaq hücumuna tuş gəldi, ünvanına tənqid yağış kimi yağdırıldı. Susmaq yeri deyildi. R.Balayevin müdafiəsinə məqalə yazıb “Təzadlar” qəzetinə təqdim etdim. Cəsarətli jurnalist Asif Mərzili də etiraz etmədi və o yazını çapa imzaladı...

***

Təəccüblüdür, dünyaya hər an gəlməyən fitri istedad sahiblərinin xalq kütlələrinin ideya-estetik inkişafında, ictimai zövqün cilalanmasında nə qədər gərəkli və nə qədər əhəmiyyətli rol oynadığını dərk etmək nə çətin işdir ki! Onlara münasibətdə həssaslıq göstərməк vacibdir axı. Onsuz da ömrünü xalqın mədəni-estetik inkişafına həsr edən Rasim Balayev kimi böyük sənət ustaları heç kimə və heç nəyə baxmadan tarixin səhifələrində öz layiqli yerlərini tez-gec tuturlar!

Azərbaycan Kinosunun görkəmli simalarından olan Rasim Balayev dahi Nəsiminin, qəhrəman sərkərdə Babəkin və digər obrazların mükəmməl ifasına görə Azərbaycan Mədəniyyətində əbədi dərin iz qoyub. Nə qədər ki Azərbaycan var - Nəsimi də, sərkərdə Babək də var olacaq; və nə qədər ki Nəsimi, Babək olacaq - Rasim Balayev də xalqın sevimlisi olaraq qəlblərdə yaşayacaqdır.

Gözəl Kinolu illərimizin dostu Rasim Balayev, səninlə vida çox ağırdır.

**Ruhun şad olsun, əziz dost!**

**Akif ƏLİ**

# TƏZADLAR

03-04 (2400) 14.04.2026 www.tezadlar.az


# Həftəbecər



Aparıcı Vüsalə Əlizadə sosial şəbəkələrdə bir görüntü paylaşıb ki, orada belə deyib: "Mənim indiki yaşımdakı gözəlliyim mənə ləzzət verir. Belə əməlli- başlı ləzzət verir".

Bu sözləri bəzi izləyicilər bəyənib, bəziləri də tənqid ediblər.

***P.S. Heyranına şükür, ya Rəbbim, 42 yaşına az qalmış Vüsalə xanım özü haqqında niyə bu qədər tərif yağdırır? Həə... Yadıma düşdü. İnsan ki, özünə belə vurulur və özünü belə tərifləyirsə, bu, məlum xəstəliyin simptomlarıdır. Nə qədər ki, iş-işdən keçməyib, nə qədər ki, simptomlar ağırlaşmayıb, Vüsalə xanım təcili olaraq, psixatora müraciət etməlidir. Yoxsa, Vüsaləsiz biz özümüz dəli olarıq, mən ölüm.***

***

Məlumatlara görə, Türkiyənin Şanlıurfa bölgəsində keçirilən bir toy mərasimində böylə gəlin 100 nəfər yetim uşağı da toya dəvət edib. Qonaqlardan da xahiş olunub ki, bəylə gəlinə qızıl-zinət əşyaları almaq əvəzinə, yetim uşaqlara hədiyyələr alsınlar.

***P.S. Çox gözəl və xeyirxah bir addımdır. Sual olunur: Bizdə də belə addım ata biləcək cəsarətli bəylə gəlin ola bilərmi? Əlbəttə, yox! Çünki bizdə yetim günündə olanlarımız həddindən artıq. Bu qədər yetimi toya necə dəvət etsinlər axı?***

***

Bu günlərdə aramsız yağan yağışlar şəhərin və ətraf qəsəbələrin bir çox yaşayış massivlərində əməlli-başlı çaylar, göllər yaratdı. Sakinlərin evlərinə və əşyalarına çox ciddi ziyan dəydi. Keşlə qəsəbəsinin bir hissəsinin suyun altında qalmasının günahkarı kimi nə vaxtsa kollektorun üstündə tikilmiş ikimərtəbəli evi gördülər və həmin evi təcili söküb yerlə bir etdilər.

***P.S. Bəs o kollektorun üstündə ev tikmək üçün sərəncama imza atan, onun layihəsini təsdiq edən yerli icra hakimiyyətinin memarlıq şöbəsinin cavabdehi, evi tikən zaman gəlib pullarını alıb gedən digər qurumların sahibləri niyə cəsalandırılmır? Bəs Zabratda, Binəqədidə, Müşfiqabadda, Masazırda, şəhərin mərkəzində yağışların yaratdığı göllərin günahkarı kimdir? Nə qədər ki, yollar çəkilərkən yağış sularının axıdılması üçün, avadanlıqlar baha olduğuna görə quraşdırmırlar (Vaxtı ilə Bakının 20 yanvar dairəsinə asfalt çəkilərkən, orada olan sabiq mer Hacıbala Abutalıbova verdiyim suala cavab vermişdi ki, o avadanlıqları çox baha olduğu üçün quraşdırmırıq) və onun pulunu basıb yeyirlər, nə qədər ki, yağış və qara hazır olmayan qurum rəhbərləri cəzalandırılmayıb, onda yağış suları həmişə insanlara və yaşayış massivlərinə belə ziyan vurmaqda davam edəcək. Bu isə, təbii fəlakət yox, təbii məsuliyyətsizlikdir.***

***

Baş nazir N.Paşinyan bu günlərdə seçkiqabağı etdiyi çıxışında belə deyib: "Robert Köçəryan və Rusiya yönümlü qüvvələr hakimiyyətə gəlsə, sentyabr ayında "dəhşətli müharibə başlayacaq" və bu Ermənistan üçün fəlakətli nəticələr doğura bilər".

***P.S.Nikol Paşinyan çox ağıllı sözlər deyir. Bəli, Ermənistan bir də Azərbaycanla müharibəyə başlasa, bu dəfə Azərbaycan ordusu Ermənistanı tam nəzarətə götürəcək və kapitulyasiya aktı İrəvanda imzalanacaq. Bu bir. İkincisi isə, Robert Köçəryan, Serj Sarkisyan və digər Rusiya yönümlü qüvvələr artıq siyasi meyitlərdir. Ona görə də deyə bilərik ki, qəbristanlığa gedən ölü bir də geri qayıtmır.***



***



Müğənni sayılan Ayan Babakişiyevaya ad günündə "Rolex" brendinə məxsus saat hədiyyə edilib. Həmin saatın da qiyməti, nə az, nə çox, düz 42 min dollar, yəni 71 min 400 manatdır.

***P.S Əşi, vallah nəyə desəniz and içərəm ki, bu Ayanın 71 qramlıq sənəti yoxdur. Amma ona 71 min 400 manatlıq o saatı bağışlayan adama desən ki, şəhid övladının, qazinin və ya veteranın 3-4 min manatlıq təhsil haqqını ödə, inanın ki, deyəcək pulum yoxdur. Amma 71 qram sənəti, səsi olmayan Ayan Babakişiyevaya 71 min 400 manatlıq saat hədiyyə edə bilir. Rəhmətlik M.Ə.Sabirin məşhur şeiri bu yerdə yada düşür:***

**"Kim nə deyər bizdə olan qeyrətə,**
**Qeyrətimiz bəllidir hər millətə".**

***

Qəzetlərin birində ABŞ və İsrailin İranla müharibəsindən bəhs edən yazıya belə başlıq qoyulub: "Körfəz ölkələrinin ABŞ-a güvəni qırıldı".

***P.S. ABŞ prezidenti D.Tramp bu gün dediyi sözü səhəri gün danaraq, başqa söz deməklə, İranla bağlı verdiyi qərarları tez-tez dəyişməklə, nəinki körfəz ölkələrinin, hətta öz xalqının da güvənini qırıb. Ona görə də ABŞ-ın demək olar bütün ştatlarında güvəni qırılan xalq D.Trampın qələmini "qırmaq" üçün ayağa qalxıb.***

***

Bu yaxınlarda bir çox şou əhli müğənnilərin efirə çıxmasına rəsmən qadağa qoyuldu və əhalidə artıq adı gələndə ikrah doğuran zaurların, Xoşqədəmin, Elgizin, Tolikin və digərlərinin əttökən, abırsızlığı, həyasızlığı, pozğunluğu yayan verilişləri də bağlandı.

***P.S.Mən bu "Həftəbecər" rubrikasında 25 ilə yaxındır yazıram ki, bu abırsız şou əhlini efirlərdən qovmaq lazımdır. Hətta bir dəfə belə yazmışdım: "İşğal olunan Qarabağ torpaqlarını 15, 20, 30, 50 ilə geri qaytaracağıq. Amma bu abırsız və həyasız şou əhlinin gənclərimizin mənəviyyatına vurduqları zərbəni 100 ilə də sağalda bilməyəcəyik. Bəli, xalq düşmənləri olan bu bəzi şou əhli gənclər arasında pozğunluğu, abırsızlığı yaya bildilər. Nə yaxşı ki, əksər gənclərə təsir edə bilmədilər. Amma təsir edə bildikləri də xeyli oldu. İndi görək o gəncləri əvvəlki normal mənəviyyata qaytarmaq üçün bizə neçə il lazım olacaq?***

***

Saytların birində xəbər verilir ki, bu yaxınlarda verilişi bağlanan Xoşqədəm Hidayətqızı "İnstaqram" hesabında bir şəkil paylaşıb və orada açıq görünür ki, aparıcı bir dəri, bir sümük qalıb.

***P.S. Eybi yox, illərdir Xoşqədəm səviyyəsiz, düşük, istintaq sirrini yayan verilişi ilə bizlərin ətini tökmüşdü. İndi də verilişi bağlanandan sonra xiffətdən özü ət tökərək arıqlayıb. Burada qəribə heç nə yoxdur. Xalqa vurduğu mənəvi zərbənin cəzasıdır, qoy çəksin.***

***



Müğənni Nadir Qafarzadə xanım müğənnilər üçün sponsor tapmağın asan olduğunu bildirərək, "Günə uğurla" verilişində belə deyib: "İllər əvvəl Nüşabə Ələsgərli ilə bir toya düşdük. Dedi ki, yaman idarəçiliyin var, amma reklamın yoxdur. Qazandığını reklama burax, sonra pul özü sənə gələcək. Məni ayıltdı...".

***P.S.Ay alma yanaqlı, gül dodaqlı, maral gözlü Nadir Qafarzadə, indi neyləyək deyirsən? Almaz Ələsgərliyə qarğış edək ki, niyə səni ayıldıb, bizi bəlaya salıb? Çünki bizim də sənin o səviyyəsiz sənətindən, əttökən danışıqlarından gözləmiz yağır, qulaqlarımız da "mazol" olub e... "mazol"...***


**Baş redaktor: Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə (www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Şərafil Hüseynoğlu

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
Daxili: 7-23, 2-32, 4-98
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.
Qəzetdə "Olaylar" İA, "Media forum", "Azadlıq radiosu" və RATİ materiallarına istinad olunur.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1800
Çapa imzalanmışdır: 13.04.2026